AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

BAKI DÖVLƏT UNİVERSİTETİ

MAHMUDOVA HİCRAN RƏHMAN QIZI

# İSKİT – SİBİR DÜNYASI VƏ AZƏRBAYCAN

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

BAKI - 2019

**Bakı Dövlət Universitetinin**
**100 illik yubileyinə həsr olunur.**

***Bakı Dövlət Universitetinin Tarix fakültəsi Elmi Şurasının 16 oktyabr 2018-ci il tarixli 1 saylı iclas protokolunun qərarı ilə çap olunur.***


**Elmi redaktor: Qüdrət Seyfulla oğlu İsmayılzadə**
*Tarix üzrə elmlər doktoru, professor*

**Rəyçilər: Əmrah Nəzər oğlu Dadaşov**
*Tarix üzrə elmlər doktoru, professor*

**Bəhlul İmran oğlu İbrahimov**
*Tarix üzrə fəlsəfə doktoru*


*Kitabda iskitlərin tarixinə arxeoloji yanaşma əsas götürülərək, onların yaratdıqları mədəniyyət və abidələri, iskit incəsənətin əsas xüsusiyyətləri və mahiyyəti İskit-Sibir dünyası və Azərbaycan materialları əsasında müqayisəli şəkildə tədqiqat müstəvisinə çıxarılır, onların tariximizdəki yeri və rolu təhlil hədəfi seçilir. Tədqiqatdan ali məktəblərin tələbələri, aidiyyəti üzrə mütəxəssis və tədqiqatçılar faydalana bilər.*


*ISBN 978 9952 29 108 7*


# GİRİŞ

İskitlər uzun illər boyu Avrasiya çöllərində yaşamış çoxsaylı tayfalar içərisində e.ə. I minillikdə bu ərazinin tarixində silinməz iz qoymuş birlikdir. Məğlubedilməz atlı atıcı-oxçu olan iskitlər haqda məlumatlar əsrlər keçməsinə baxmayaraq, öz əhəmiyyətini itirməmiş, onların yaratdıqları mədəniyyətin zənginliyi mövzunun daim aktual olmasına səbəb olmuşdu. Özlərinə aid yazılı mənbələrin yoxluğuna baxmayaraq, antik müəlliflərin məlumatları bu günümüzə qədər müxtəlif tədqiqatçıların istinadgahı olmuşdur. E.ə. VII əsrdə iskitlərin Şimali Qara dəniz sahili bölgədəki fəaliyyəti Herodotun, Hippokratın, Demosfenin, Lisiyin, Esxilin, Strabonun və başqalarının əsərlərində təsvir olunmuşdur. Yaratdıqları «üçlük» - at əsləhəsi, heyvani üslub və ox ucluğu ilə kifayət qədər seçilən iskitlər, məhz elə bu səbəbdən də adını çəkdiyimiz kiçik bir arealda tədqiq edilmiş, istər sırf tarixi, istərsə də arxeoloji tədqiqatlar bu yönümdə araşdırılmışdı.

XVII-XVIII əsrlərdən etibarən geniş Avrasiya çölləri boyunca iskit mədəniyyətinin, incəsənətinin nümunələri əvvəl təsadüfi, sonradan sistemli arxeoloji qazıntılar nəticəsində aşkar olundu. Mərkəzi Asiya və Sibir ərazisində heyvani üslubda düzəldilmiş çoxsaylı əşyalar: iskit akinakları, bəzəklər, güzgülər və s. elm aləminə təqdim edildi. XIX əsrin yeni tapıntıları və XX əsrdə aparılmış daha sistemli arxeoloji qazıntılar Sibir ərazisinin iskit mədəniyyətinin yayılma arealından kənarda olmadığını, hətta daha erkən dövrlərdə iskit incəsənətinin ilkin nümunələrinin məhz burada qeydə alındığını təsdiq etdi. Cənubi Sibirin dağlıq hissəsində, Qazaxıstanda və Ob çayının yuxarı axarlarında yayılmış tunc dövrünün sonlarına aid Karasuk mədəniyyətinin qəbir avadanlıqları, Minusinsk çökəkliyinin, Altayın, Tuvanın e.ə. I min. sonlarına aid iri çar qəbirləri və s. Şimali Qaradəniz sahillərində ya-

randığı güman edilən iskit mədəniyyətinin elə buradan başlanğıc aldığını göstərirdi.

Son dövrlərə qədər bu yönümdə müxtəlif tədqiqatlar yazılsa da, iskitlərin Azərbaycan və Sibir tarixində yeri və rolu, incəsənətin lokal xüsusiyyətləri arxeoloji baxımdan xüsusi tədqiqat mövzusu kimi lazımi elmi səviyyədə öyrənilməmiş, tarixşünaslığın ümumi problemləri sistemli şəkildə ümumiləşdirilməmişdir. Eyni zamanda, müəyyən abidə və mədəniyyətlərin adlarının sovet tarixşünaslığında rus dilinə uyğunlaşdırılmış variantı ilə yanaşı onların türkcə hansı anlamı verməsi də diqqət mərkəzində olmamışdır. Karasuk – qarasu, Taqar-tağar, Pazırık-basırıq, besşatır-beş çadır, Tuva-Tıva və bu kimi bir çox adların da düzgün işlənməsi elmi ədəbiyyatda son dövrlərdə tədricən işlənməyə başlamışdır. Məhz bir sıra yeniliklərin tətbiqi baxımından monoqrafiya əhəmiyyətli və aktualdır.

Qeyd etdiyimiz kimi, iskitlər bir etno-mədəni birlik olaraq, bəzi tədqiqatçılar tərəfindən, əsasən, Şimali Qaradəniz sahilində yerləşdirildiyindən, uzun müddət, elə bu arealda da müxtəlif yönümlü, çoxsaylı tarixi-arxeoloji tədqiqatlar aparılmışdır. İstər iskit incəsənətinin mənşəyi, istər məişət həyatı, istər antropoloji xüsusiyyətləri, dəfn üsulu və s. Avroasiyanın qərb çölləri üçün öyrənilmişdir. Bununla belə, iskitlərə və bilavasitə Sibir tarixinə, arxeologiyasına həsr edilmiş müxtəlif tədqiqatlardan istifadə olunmuşdur.

Bizim üçün ən gərəkli mənbə Herodotun «Tarix» inin IV hissəsidir. Burada iskitlər haqqında hərtərəfli məlumat əldə etmək mümkündür. Herodot iskitlərin yaradılış əfsanələrini, iskit tayfalarının yerləşmə ardıcıllığını, ölkənin iqlimi, iskitlərin gündəlik və mərasim ayinləri, inancları, sosial münasibətləri, qonşu ölkələrlə siyasi münasibətləri və s. təsvir etmişdir. Herodotun iskitləri Şimali Qaradəniz ətrafında yerləşdirməsini bir əsas kimi qəbul edən tədqiqatçılar Mərkəzi



Asiya, Sibir və Azərbaycan ərazilərində iskitlərin mövcudluğu fikrini qəbul etmirdilər. Halbuki «Tarixin atası» yaşadığı dövr üçün bəsit olan coğrafi informasiyaya baxmayaraq, kifayət qədər geniş bir əraziyə qədər iskitlərin adlarını çəkmiş və bununla yanaşı özünə borc bilərək belə bir qeyd də etmişdir: «...mən elə bir adam görməmişəm ki, bu torpaqları öz gözü ilə gördüyünü desin, hətta Aristey öz epik poemasında issedonlar ölkəsindən uzağa getmədiyini bildirir» (52, 191; IV,16).

İskit probleminin öyrənilməsində görkəmli tədqiqatçı M.İ.Artamonovun böyük xidmətləri olmuşdur. Monoqrafiyada onun dörd məqaləsi və bir monoqrafiyasından istifadə edilmişdir (28;29;31;32;33). İskitlərin mənşəyi, antropomorf allahlar, heyvani üslublu iskit-sibir incəsənəti, Amu-Dərya xəzinə tapıntıları və s. tədqiqatçı tərəfindən maraqlı və oxunaqlı elmi dildə verilmişdir.

A.İ.Martınov iskit-sibir dünyasının paleoantroloji məsələlərinə, Taqar mədəniyyətinə, incəsənətdə dünyagörüşü məsələlərinə, yaşayış məskənləri və evlərə həsr etdiyi tədqiqatlarında Sibirin iskit dövrünə işıq salmağa çalışmışdır (124;125;126). A.İ.Martınov V.P.Alekseyevlə həmmüəllif olduğu kitabda iskit-sibir dünyasının sərhədləri, iskit üçlüyü, iskit-sibir dünyası nəzəriyyəsinin, iskit tipli mədəniyyət mərkəzlərinin yaranması haqqında məlumat vermişdir (123). A.İ.Martınov və M.B.Absalamovun «Taqar məskənləri» adlı tədqiqatında yaşayış məskənlərinin öyrənilmə səviyyəsi, məskənlərin tipologiyası və təsviri araşdırılmışdır (17).

Yenisey boyu arxeoloji abidələri, əsasən, kurqanları tədqiq edən E.B. Vadetskaya öz monoqrafiyalarında Karasuk və Taqar mədəniyyətlərinin ayrı-ayrılıqda mənşəyi, xronologiyası, qəbir abidələri, tapıntıları, onların yerləşmə ardıcıllığını təqdim etmişdir. Sibirin I Pyotr dövründə və sonralar tədqiqi, Arjan, Böyük Salbık kimi iri və möhtəşəm «çar» kurqanları-

nın təsviri onun monoqrafiyasında əksini tapmışdır (44; 45).

Asiyanın mərkəzində qədim köçəriləri öyrənən A.D.Qraç monoqrafiyada müəllif tərəfindən həvəslə istifadə edilmiş bir neçə tədqiqatı ilə təmsil olunmuşdur. A.D.Qraç Tuva ərazisində aşkar etdiyi arxeoloji komplekslərdə axtarış və qazıntıların metodikasını, kurqanaltı buzlaqlarla bağlı proseslər, aerometodların tətbiqi, Tuva və Monqolustanda iskit tipli arxeoloji mədəniyyətlərin üzə çıxarılması və s. məsələləri ön plana çəkmişdir. O, Asiya çöllərində maldarların sosial quruluşu, iskit-sibir incəsənətinin Mərkəzi Asiya regionunda qərarlaşmasını, qayaüstü təsvirləri, inancları, dəfnetmə mərasimlərini və s. təsvir etsə də, bu məsələlərin gələcəkdə yenidən kompleks şəkildə öyrənilməsinin vacibliyini yazmışdır (57;58;59).

Sibirin qədim tarixi S.V.Kiselyovun "Cənubi Sibirin tarixi" adlı monoqrafiyasında geniş təsvir edilmişdir. Sibir iskit dövrü Taqar mədəniyyəti, onun qəbir abidələri, yaşayış məskənləri burada araşdırılmışdır (89;90).

V.D.Kubarev Dağlıq Altay ərazisini tədqiqat obyekti kimi götürərək burada maral daşlarını, Dağlıq Altay köçərilərinin həyatında atın sakral mahiyyəti, Pazırık və Ulandrık kurqanlarından tapılmış zoomorf başlıqlı asmaların xarakteri və s. məsələlərə toxunmuşdur (98;99;100;101).

Tuvanın iskit dövrünü araşdıran M.X.Mannay – Ool monoqrafiyasında qəbir abidələrini, tapıntıları, metallurgiyanın inkişafını, iskit dövrü tuvalıların Uyuk mədəniyyətinin sinxron mədəniyyətlərlə əlaqə və münasibətlərini açmağa çalışmışdır (118). Sibirdə iskit dövrünün ən zəngin mədəniyyəti sayılan Taqar mədəniyyətinin ayrı-ayrı abidələrinin tədqiqi XX əsrin 60-70-ci illərində davam etdirilirdi. Onların mənşəyi, yaşayış yeri N.L.Çlenovanın, A.İ.Martınovun əsərlərində kifayət qədər işıqlandırılmışdır(206;211;210;124;126). Elə bu dövrlərdən etibarən Sibir arxeologiyasının öyrənilməsi tarixinə həsr olunmuş məqalələr (110), həmçinin Altayın iskit dövrünü kifayət qədər öyrənmiş S.İ.Rudenkonun xüsusi monoqrafiyaları (165;166;167;168;169) elm aləminə təqdim edilir. XX əsrin 70-80-ci illərindən İskit dünyası, İskit-Sibir mədəni-tarixi birliyi (204;68;70;201;80;95;101;53;158) adları altında məqalələr toplusu dərc olunmağa başlanır. Bu toplularda iskit-sibir mədəni-tarixi birliyinin incəsənət və ideologiyasının aktual problemləri, eləcə də iskit probleminin müxtəlif aspektlərinə həsr olunmuş məqalələr verilirdi. E.B.Vadetskayanın (44;45), A.İ.Martınovun (123,124) tədqiqatları iskit-sibir dünyası tarixinin, arxeologiyasının öyrənilməsinə köməklik etdi. A.İ.Martınov iskit-sibir incəsənətinin öyrənilməsində 2 mərhələ ayırmışdı: onlardan biri heyvani üsluba xas arxeoloji materiallarla əlaqədar olduğundan, onu tarixi-incəsənətin öyrənilməsi ilə də xarakterizə etmək mümkündür. Digəri isə müasir dövrə aid olub, XX əsrin 70-ci illərindən elmi işlərdə açıqlanmağa başlanmış semantikadır (123, 87-90).

Son dövrlərdə iskit – sibir probleminə ən maraqlı yanaşma A.İ.Martınov tərəfindən aparılmışdır. O, ilkin sivilizasiyalar və iskit dünyasının qarşılıqlı əlaqələr sistemindən danışarkən, tarixşünaslıqda Qədim dünya və Avrasiya çöllərinə iki tarixi sistem, paralel inkişaf edən iki dünya kimi baxılmamasına təəssüf etdiyini bildirmişdir (223). Tədqiqatçı nə üçün ayrı-ayrı hadisələrin seçilərək işləndiyinin səbəbinə də aydınlıq gətirmişdir. Onun fikrincə, qədim dünya cəmiyyətinə – tarixi, Avrasiya çöllərinə – arxeoloji baxımdan yanaşıldığından, ikinciyə səhvən aktiv tarixi hadisələr cərəyan edən, səviyyəli bir sistem kimi qiymət verilməmişdir (223). Məhs bu yenilik A.İ.Martınov tərəfindən irəli sürülərək, problem iki dünya – faktik iki sivilizasiya arasında qarşılıqlı münasibətlər fonunda işıqlandırılmışdır.

S.İ.Rudenkonun Altayın tədqiqindəki rolu danılmazdır.

Monoqrafiyada onun 6 müxtəlif monoqrafiyasından istifadə olunmuşdur. Dağlıq və Mərkəzi Altayın iskit dövrü mədəniyyəti, Altay iskitlərinin incəsənəti, Dağlıq Altay tapıntıları və s. məsələləri öz tədqiqatlarında ümumiləşdirən S.İ.Rudenko I Pyotrun Sibir kolleksiyasını da elm aləminə sistemli şəkildə təqdim etmişdir (165;166;167;168;169). Burada Sibir kolleksiyasının toplanma tarixinə qısa ekskurs edən tədqiqatçı ayrı-ayrı fəsillərdə kolleksiyaya daxil edilən tapıntıları qruplaşdırmış, onların əsas cəhətlərini, heyvani üslubda işlənmiş nadir və incə zərgərlik məmulatlarını xarakterizə etmişdir. Ermitajda saxlanılan kolleksiyanı kitabına əlavə etdiyi cədvəldə əyani surətdə oxuculara təqdim etmişdir (169).

«Mərkəzi Altay əhalisinin iskit dövrü mədəniyyəti» adlı monoqrafiyasında S.İ.Rudenko Altayın daş örtüklü kurqanlarından Böyük Katandin, Mayəmir, Şibə, Başadar, Tuektin, Pazırık kurqanlarının ölçüsü və quruluşunu təsvir edir, Çin xronikasına müraciətlə cəmiyyətdə anaya olan hörmət haqda məlumat verir. Eyni zamanda o, Assur, Misir, İran ənənələrinə görə ölənin mumiyalanması halının iskitlərdə – Sibir iskitlərində də mövcudluğunu bildirmişdi (168). «Dağlıq Altay tapıntıları və iskitlər» adlı əsərdə qəbir abidələri və dəfn mərasimi Şimali Qaradəniz sahili iskitlərində qeydə alınmış ənənələrlə müqayisəli şəkildə verilmişdir. Herodotun Qərb iskitlərində tayfa başçısının dəfn səhnəsinin təsviri Dağlıq Altay kurqanlarındakı dəfn prosesinə oxşar olmuş, tapılmış araba qalıqları, çətənə toxumlarından, iskit tunc qazanından istifadə və s. burada əks olunmuşdur (164).

Sibirin iskit dövrünün öyrənilməsində N.L.Çlenovanın da rolu böyük olmuşdur. O, «Karasuk dövrü abidələrinin xronologiyası», «Taqar mədəniyyəti tayfalarının mənşəyi və erkən tarixi», «Maral daşları tarixi mənbə kimi» və s. monoqrafiyaları və bir sıra məqalələri ilə Sibir tarixinin öyrənilməsinə köməklik etmişdir (206;207;208;209;210;211).



«Taqar mədəniyyəti tayfalarının mənşəyi və erkən tarixi» adlı monoqrafiyada tədqiqatçı e.ə. VII-III əsrləri əhatə edən vaxt kəsiyində Minusinsk çökəkliyində baş verən proseslərə nəzər salmışdır. O, Taqar mədəniyyətinə xas tapıntıları qruplaşdırarkən silahları iskit mədəniyyəti ilə Taqar mədəniyyətini bağlayan əsas halqa hesab etmişdir. Tapıntıların, xüsusən silahların, at əsləhəsi və tunc güzgülərin təbii təsnifatını verən N.L.Çlenova heyvani üslubun Taqar mədəniyyətində təsvirinə də geniş yer ayırmışdır. Burada o, heyvani üslubun Karasuk mədəniyyəti (e.ə. XIV əsrdən) dövründən yaranması fikrini müdafiə etmiş, Minusinsk və Altay üslubları arasında fərqə geniş yer ayırmışdır (210).

İskitlər haqqında yazılmış müxtəlif tədqiqatlardan da monoqrafiyada istifadə olunmuşdur. S.S.Bessonova, Q.M.Bonqard-Levin, N.A.Qavrilyuk, V.İ.Abayev, B.N.Qrakov, Q.F.Debets, V.A.İlyinskaya, A.İ.Terenojkin, İ.V.Kuklina, Q.O.Manseviç, A.İ.Melyukova, V.Y.Murzin, A.A.Neyxardt, D.S.Rayevskiy, A.P.Smirnov, A.M.Xazanov, E.V.Çernenko və başqaları iskit probleminin ayrı-ayrı sahələrini öz tədqiqatlarında araşdırmışlar (39;40;42;49;13;14;54;55;56;65;74;75;76;77;184;185;104;120;130;136;141;162;178;179;202;203;204;205).

İskitlərin Azərbaycanla əlaqəsi də monoqrafiya daxilində verilmişdir. Mövcud tədqiqatlar və əldə olan materiallar əsasında M.N.Poqrebova, Q.S.İsmayılzadə, İ.Nərimanov, İ.A.Babayev, N.V.Minkeviç-Mustafayeva, E.İ.Krupnov, S.M.Qazıyev, A.A.İessen, Q.M.İone, Q.A.Qeybullayev, S.B.Aşurbəyli, R.M.Vahidov, C.A.Xəlilov, S.M.Qaşqay, Z.H.Həsənov və digər tarixçi və arxeoloqlarımız öz tədqiqatlarında iskitlərin Qafqazdan keçərək yürüş etmələri, iskit dövrü Qafqazın qonşu ölkələrlə əlaqələri, Azərbaycanda «iskit çarlığı»nın mövcudluğu, Azərbaycan ərazisində iskit tipli tapıntılar və s. kimi məsələlərə yer ayırmışlar

(153;154;81;82;11;134; 107;108; 5;73;78; 8;34;12; 50).

Müasir dövrdə elmi-texniki yeniliklərin tədqiqat işlərinin yazılmasında rolu danılmazdır. İnternet-beynəlxalq informasiya şəbəkəsinə qoşulmaqla biz də son illərə aid məqalə və monoqrafiyalara müraciət edə bilmişik. Bu baxımdan Y.V.Frolov, O.İ.Çekrıjovanın heyvani üslubda işlənmiş tapıntıya həsr etdiyi tədqiqatını, V.V. Bobrov, A.V. Varenov, Y.F. Kiryuşin, A.A.Tişkin, A.İ.Martınov və başqalarının məqalələrini göstərə bilərik. Təbii ki, bunlar monoqrafiya işini ədəbiyyat və yeni elmi axtarışlarla zənginləşdirməyə köməklik etmişdi (220;221;222;223;224;225).

Monoqrafiyanın məqsədi Sibir ərazisində iskit dövrünə aid mədəniyyətləri, müxtəlif abidələri, sosial münasibətləri bütövlükdə araşdırmaq, iskit-sibir dünyası və Azərbaycanla bagli ümumi arxeoloji məsələlərini öyrənmək, iskit tipli maddi-mədəniyyət nümunələrinin yerli xüsusiyyətlərini müəyyənləşdirməkdən ibarətdir. Bu məqsədlə tədqiqatın qarşısında aşağıdakı vəzifələrin yerinə yetirilməsi durmuşdur:

Arxeoloji materiallar və antik müəlliflərin məlumatları əsasında iskitlərin Sibir və Azərbaycan tarixində mövqeyinin öyrənilməsi; bu dövrə aid ayrı-ayrı mədəniyyətlərin və onların xronologiyasının öyrənilməsi; məişət və təsərrüfat, qəbir abidələrinin tədqiqi; «İskit üçlüyünün» variantlarının öyrənilməsi; sosial-ictimai münasibətlərin, cəmiyyətdəki təbəqələşmənin tədqiqi; cəmiyyətin ideoloji və dini əsaslarının araşdırılması.

Göstərilən məsələlərin araşdırılması Sibir və Azərbaycanın iskit dövrü arxeologiyası və tarixşünaslığı haqda tam təsəvvür yaranmasını təmin etmişdir. Qeyd etdiymiz kimi, tədqiqatda Sibirin iskit dövrü mədəniyyət və abidələrinin öyrənilməsi ilə yanaşı, Azərbaycanla bağlı məsələlərin ümumi anoloji materiallar əsasında araşdırılmasına diqqət yrtirilmişdir.



Monoqrafiyanın nəzəri-metodoloji əsasında mövzunun tarixilik prinsipinə uyğun surətdə tədqiq olunması zərurəti haqqında arxeologiya elminin tələblərinə riayət olunması durur. İskit – Sibir problemi ümumiskit materialları əsasında analoji müqayisələrlə, arxeoloji, antropoloji, linqvistik və etnoqrafik məlumatlarla bütövlükdə nəzərdən keçirilmişdir.

Monoqrafiyadan ali məktəblərdə arxeologiya kursunun tədrisində, həmçinin, iskitlərə məxsus mədəniyyət və abidələrin öyrənilməsi və tədqiqində nəzərə alına bilər. Monoqrafiyanın məzmunu məqalələrdə, elmi konfranslardakı çıxışların tezislərində əksini tapmışdır.

Monoqrafiya giriş, 4 fəsil, ədəbiyyat siyahısı və əlavə olaraq, şəkillərdən ibarətdir. Tədqiqatın əsas məzmunu fəsil və yarımbaşlıqlarda verilmişdir.

I fəsildə İskitlər haqda ümumi məlumat, onların mənşəyinə qısa ekskurs, Azərbaycanda iskit çarlığı məsələsi, Sibir-Altay ərazisi və şərq iskitləri məsələsi, Sibirdə və Azərbaycanda iskitlərlə bağlı abidələrin, o cümlədən, qəbir abidələrinin, qayaüstü təsvirlərin, maral daşlarının, yaşayış məskənlərinin öyrənilməsi tarixinə geniş yer ayrılmışdır.

II fəsildə İskit üçlüyünün Sibir variantları və iskitlərlə bağlı arxeoloji mədəniyyətlər sadalanır, onların xronoloji yaşı sinxron mədəniyyətlərlə müqayisəli şəkildə təqdim olunur. Heyvani üslubun incəsənətdə qoyduğu izlər, tapılmış silahlar – ox ucluqları, at əsləhəsi Sibir və Azərbaycan materialları əsasında verilmişdir.

III fəsil Sibirin iskit dövrü abidələri və onların xarakteristikasına həsr olunmuşdur. Burada məişət və təsərrüfat abidələri, yaşayış məskənlərinin tipləri, təsərrüfat tikililəri, onların quruluşu, məişət - təsərrüfat tipli tapıntıların təsviri, qəbir abidələri və onların tipləri, kurqanların tikilmə üsulu, böyük və kiçik qəbirlərin xarakteristikası, kurqanlara aid əsas avadanlıqlar, maral daşları və qayaüstü təsvirlər öz əksini tap-

mışdır.

IV fəsildə Sibir iskitlərinin ictimai quruluşu və dini görüşlərinə yer ayrılmışdır. Sosial münasibətlərdəki incəliklər, təbəqələşmə arxeoloji materiallar əsasında izah edilmiş, həmçinin inanclar, dəfn mərasimində izlənən xüsusiyyətlər, antropomorf allahlara səcdə və s. məsələlərə diqqət yetirilmişdir.

Monoqrafiyaya mövzu ilə əlaqəli şəkillər, ədəbiyyat və ixtisarların siyahısı da əlavə edilmişdir.



# I FƏSİL

# SKİF-SİBİR PROBLEMİNİN ÖYRƏNİLMƏSİ MƏSƏLƏSİ

## 1.1. Sibir – Altay ərazisi və «Şərq iskitləri»

Eramızdan əvvəl I minillikdə geniş Avrasiya çölləri boyunca cəmiyyətin tarixi inkişafı prosesində iskit tayfaları xüsusi rol oynamışdır. XIX əsrdən başlayaraq, Sibir və Altay ərazisinin arxeoloji qazıntı materiallarının Qara dənizin şimal sahili iskit tipli tapıntıları ilə oxşarlığı müəyyənləşdirildikdən sonra, tədricən «İskit-Sibir mədəni tarixi birliyi» ifadəsi arxeoloji ədəbiyyatlarda özünə yer tutmağa başlamışdı (32; 123; 129). Bununla əlaqədar olaraq, şərq iskitləri, onların mədəniyyəti məsələsi də bir problem kimi ön plana çəkilmişdir.

Şərq mətnlərinin, xüsusən Assur mixi xronikalarının, eyni zamanda antik müəlliflərin əsərlərinin öyrənilməsi iskitlər haqqında daha qədim mənbələrin əldə olunmasına səbəb olmuşdu. Məlumdur ki, iskitlər barədə ilkin açıqlama «İliada»da «at südü içən» xalq kimi verilmişdir. E. ə. VIII əsrin görkəmli şəxsiyyətlərindən olan Hesiod isə bu tayfanı «iskit» adlandımışdır (56, 6). E.ə. VII əsrdə yaşamış Hellespontun Prokonnes şəhərindən olan Aristeyin «təkgöz» arimasplarla bağlı məlumatları sonrakı dövr müəllifləri üçün istinad obyekti olmuşdur (56, 6).

Kimmeri və iskitlər haqqında tutarlı tarixi mənbə rolunu oynaya biləcək məlumatlardan biri olan Bibliyanın «Mövcudat kitabı»nın IX fəslində, «Xalqların cədvəli»ndə yazılıb: «Nuhun övladlarının şəcərəsi belədir – Sam, Xam, Yafət. Daşqından sonra onların övladları oldu. Yafətin oğlanları: Homer və Maqoq və Maday və Yavan və Tubal və Meşex və

Tiras; Homerin oğulları: Aşkenaz və Rafat və Toqarma». Aydındır ki, Homer və Aşkenaz adları altında: Homer-qəməri-kimmerilər; Aşkenaz-aşquz-işkutay-iskit etnonimi nəzərdə tutlmuşdu. Qeyd edək ki, bəzi tədqiqatçılar «Maqoq» adını da iskit adı ilə eyniləşdirirlər (108, 188). Dyakonov İ.M. «işkuzay» dedikdə, Ön Asiyaya gələn tayfa birləşməsinin özünü adlandırmasını nəzərdə tutmuşdur (67, 142). Avrasiyanın m.ö. sonuncu minilikdə Altaydan Tuna boylarına qədər hakim sakaların batı qoluna yunanların «skith» deməsi ilə batıda onlar iskit adlandırılmışdır. Bu kəlməni müasir türkcədə daha yaxşı başa düşmək üçün sözönündəki "s – y" dəyişməsinə diqqət yetirmək lazım gəldiyini yazan O.Karatay bu halda sakanın Yaka, yaha şəklində səsləndiyini və müasir saxaların - Yakutların adının bunu tamamladıgını bildirmişdir. Yaka «sərhəd, tərəf» anlamını verdiyindən, tədqiqatçı bununla Seyhun və Ceyhunun arxasındakı türklərə işarət oldugunu istisna etmişdir (219, 146). Bundan əlavə, müəllif bütün çöl sakinlərini Hind – Avropa dil ailəsinə aid edənlərə cavab olaraq yazmışdır ki, həmin dövrdə heç bir etnik toplum ən dinamik yayılma ilə min ilin ərzində Altaylardan Fransaya, Hindistandan Sibirə qədər ucsuz- bucaqsız bir ərazini doldura bilməzdi(219, 148). Eyni zamanda bu qolun müasir İran, Orta Asiya, Rusiya və Ukraynanı da əhatə etməsi fikirlərini də nəzərə alsaq, bunun insanın təbii davranışından kənar olduğunu görərik. O, bundan əlavə sakaların - iskitlərin türk olmalarını bir necə fikirlə isbatlamağa çalışmışdır: a) Sakalar türklərə məxsus kurqan külütürünün daşıyıcısı olmuş, Arilərdə isə bu külütürün izləri olmamısdır; b) Ortadoğu mənşəli olan, doğu Türküstanda bulunan mimiyalanma sakalarda, Göytürklərdə, Anadolu Səlcuq sultanlarında rast gəlinmişdir; c) Basqırdların heyvani üslubu saka dövründə qaldığı yerdən davam etdirilmişdir; e) Dəfn adətləri olduğu kimi tətbiq olunmuş, arabalarda yaşama, qımız içmə,



donuzdan diksinmə, qan içərək yemin etmə və ya qan qardaşlığı bu günkü türklərdə qalmaqdadır. Saka kəlməsinə gəlincə, sözün sonunda "-t-d" əlavələrinin mümkünlüyü eftal – eftalit, kıdar – kidarit, masaha – massaget, maskut kimi işləndiyini əsaslandıran O. Karatay Sakanın Saka – it, Saka – ut, Sakut forması ala bildiyinin, habelə, öndə səssiz yığılmasını sevən Hind –Avropa dillərində sözün «skit» halında işlənməsinin mümkünlüyünü söyləmişdir(219,152-155). Q.Qeybullayev assurların işkuzay, yunan və latınların «skit» və «skut» kimi adlandırdıqları etnonimin əslində «iskutay» olmasını və onların Qara dənizin şimal çöllərində yaşayan iskitlərlə mənşə birliyinə malik olduqlarını bildirir (8, 135-136). Yuxarıda gördüyümüz kimi, Herodot da xalqın yunanlar tərəfindən iskit, özlərinin isə skolot adlandırdığını vurğulayırdı (52,188; IV,6).

Herodotun şərq iskitləri barədə məlumatının kifayət qədər olmadığını təbii hal saymaq olar. Qədim yunan və romalıların yürüşləri heç vaxt Asiyanın şimal-şərq hüdudlarından çıxmamışdı və həmin dövrdə Sibir xalqlarının da siyasi-mədəni vəziyyəti elə bir səviyyədə deyildi ki, onlar qərb ölkələrinə yürüş etsinlər (133, 187). Hətta Herodot öz kitabında bunu etiraf edir: «mən elə bir adam görməmişəm ki, bu torpaqları öz gözü ilə gördüyünü desin, hətta Aristey öz epik poemasında issedonlar ölkəsindən uzağa getmədiyini bildirir» və ya qeyd edir ki, «bu ölkələri hündür, keçilməz dağlar ayırır və heç kim onları aşıb keçməyib» və ya «Asiya Hindistana qədər məskunlaşıb. Oradan şərq istiqamətində çöl-səhra uzanır və heç kim deyə bilməz ki, ora necədir» (52,191,193; IV, 16, 40). Buna aydınlıq gətirmək üçün Herodotun tərtib etdiyi iskit tayfalarının yerləşmə ardıcıllığını Avrasiya çölləri boyunca nəzərdən keçirərək, antik müəlliflərin məlumatlarına diqqət yetirək (şək. 1.1.). Şimali Qara dəniz sahillərində Karpatdan Dona qədərki ərazilərdə iskit-

lər, Kubanboyunda meotlar, aşağı Volqaboyunda və Ural axarlarında savromatlar yaşayırdı. Xəzər dənizinin cənub sahillərində kaspilər, onlardan şimal-şərqdə Amu-Dərya çayı ətraıfında sak xaumavarqalar (amur iskitləri), Sır-Dərya ətrafında paradaray sakları, onlardan şimal-şərqdə Balxaş gölünə qədərki ərazidə sak tiqraxaudalar yaşayırdı. İli çayının şimalında Tyan-Şan ətəklərində issedonlar, cənubi və şərqi Uralətrafında irklər, onlardan şərqdə çar iskitlərindən ayrılan arqippeylər, İrtış çayının yuxarı axarlarında – arimasplar, onlardan şimalda Altay rayonu ərazisində əfsanəvi «qızıl qoruyan qriflər» məskunlaşmışdı (169,37). Deməli, iskit tayfalarının Avrasiyanın şərq çöllərində yaşadığını Herodot istər-istəməz təsdiq edirdi. Fikrimizi digər mənbələrlə dəqiqləşdirə bilərik. Hekatey iskitləri hindlilərin, Baktriya və hirkaniyalıların qonşusu olduğunu (112, 2), e.ə.V əsrdə yaşamış Samoslu Xeril və Strabon isə mənşəcə iskit olan, Asiyanın zəngin ərazilərində yaşayan, Baktriya və Hindistanla qonşu olan sakların adını çəkmişlər (104,103).

Meqasfenin məlumatlarına əsaslanan sicilyalı Diodor şimali Hindistandan dağlarla ayrılan iskit-saklar haqda məlumat vermiş, Filostroqiy və anonim «Torpaq quruluşu» nun müəllifi İskit ölkəsinin Hindistanla qonşu olduğunu bildirmiş, Pomponi Mela şərqdən qərbə doğru Asiyada yaşayan tayfaların adını çəkərkən hindli, ser və iskitləri ardıcıl yerləşdirmişdir. Arrian Kaspi dənizinə tökülən çaylardan danışarkən Yaksatın (Sırdərya) İskit ölkəsinin içərisindən keçdiyini, Plini iskitlərin Silis adlandırdığı Yaksat çayı arxasında onların yaşadığını təsdiqləmişlər (85). Möhtəşəm köçəri mədəniyyəti yaratmış Asiya tayfaları Ptolomeyin xəritəsində özünəməxsus yer almışdır: burada Volqadan Çinə qədər bütün ərazi «İskitiya» adlandırılmışdır (66,101). Şərqin barbar tayfalarını sadalayarkən Yuli Valeriy, Viktor Avreliy, Yevtropiy, Pavel Orosiy parfiyalı və baktriyalılarla yanaşı iskitlərin



də adını çəkmişdir (104, 105).

Mərkəzi Asiya ərazisində iskitlərin yaşadığını onların digər bir qonşusu olan çinlilər də təsdiq edir. E.ə.V-III əsrlərdə Çində dəmirin geniş yayılması, «döyüşən şahlıqlar » və Tsin – xanın dövründə çöl torpaqları əkinçilik obyekti kimi xüsusi iqtisadi əhəmiyyət kəsb edirdi. Ona görə də, maldarların məskunlaşdığı iskit – sibir dünyası arealına daxil olan şimal torpaqları təsərrüfat baxımından qiymətli sayılırdı. Bu əraziləri ələ keçirmək istəyən hökmdarın yaxınlarından birinin onu köçərilərlə müharibə etməkdən çəkindirməyə çalışdığı da mənbələrdə gəlib çatmışdır (226). Çuntsyu dövrünün ortalarında tunc məmulatların bədii üslubundakı dəyişikliyə diqqət yetirən çinli tədqiqatçı Qo-Mo-jo bunu iskit incəsənətinin təsiri hesab edir və bildirir ki, Çuntsyu-Çjan dövründə iskitlərin tutduğu ərazi Monqolustanın şimalına qədər yayılmışdı. O, Çjunşan əhalisinin «ağ di» tayfasını formalaşmasında iskitlərin iştirak etdiyi etnik qarışıq qrup hesab etməklə, di tayfalarının şimali Çin sərhədlərində e.ə. VII əsrdən görünməyə başladığını bildirmişdir (109, 179). Doğurdan da köçəri «di»lərin qədim Çinin şimal-qərb ərazilərində görsənməyi ilə Avrasiya çöllərində «iskit dünyası»nın mövcudluğu eyni vaxta düşür.

Sibir – Altay ərazisində iskit tayfalarının yaşadığını Herodotun İskit ölkəsinin iqlimi haqqındakı məlumatlarından da əldə etmək mümkündür. Belə ki, onun təsvir etdiyi kəskin soyuq iqlim Avrasiyanın qərb çölləri üçün xarakterik ola bilməzdi. O, yazır ki, 8 ay ərzində burada elə şaxta olur ki, su çox tez buza çevrilir, ölkənin şimalı daima soyuq, şaxtalı olduğundan, məskunlaşmamışdır və burada «adamlar ilin altı ayında yatırlar» (52,193-194; IV,28). Oxşar iqlim Sibir üçün xarakterikdir. Məlumdur ki, burada iqlim sərt, kəskin kontinental olub, qışda temperatur -30-50$^0$-qədər çatır və 6 mln km$^2$-dən çox sahədə çoxillik buzlaq yayılmışdır.

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

Bundan başqa, coğrafi yerləşməsinə görə I Pyotrun Sibir kolleksiyasının arqippey, arimasp və qriflərə (yueçji), qismən də iirk və issedonlara, sak tiqraxaudlara aid olduğunu da söyləmək olar (169, 37-38). A.N. Aristov və E.N.Eyxvald yazırdı ki, Herodot iskitlərinin bir qismi türk tayfalarına məxsus olmuşdur (218, 57-60, 75-78). Eyni zamanda qeyd edə bilərik ki, Herodot iskit tayfaları sırasına daxil etdiyi nevrlərin ilin müəyyən günlərində qurda çevrilməsi, sonra yenidən insan cildinə düşməsini söyləmişdi (52,213; IV,105). Maraqlıdır ki, iskitləri İrandilli hesab edən V.İ.Abayev türk törəyiş əfsanəsinə uyğun olaraq, Hirkaniya terminin qurd ölkəsi anlamını verdiyini yazmışdır(14,28). Qeyd edək ki, İ.M. Miziyev Xəzərin adlarından olan Hirkanı iskitlərin iirk tayfasının adı ilə eyniləşdirməklə bərabər, onun Balkanlarda və Anadolu dağlıq zonasında yaşayan yurk və iyurk tayfalarının adı ilə oxşarlığının təsadüfi olmadığını yazmışdır(132, 39).

Arxeoloji tarixşünaslıqda problem məsələlərdən biri də iskitlərin antropoloji təsviri ilə bağlıdır. Təbii ki, avropoid və ya monqoloid əlamətlərin üstünlüyü iskitlərin mənşəyi barədə mübahisələrin tam açarı olmasa da, müəyyən fikir formalaşmasına şərait yaradir. Müxtəlif konsepsiyaların tərəfdarlarının mənbə kimi müraciət etdiyi Herodot «Tarix»inin IV kitabında yazılır: «..onlar yastıburun və enli buxaqldır» (52,193; IV,23). İskit-arqippilər haqda monqoloid irqi üçün səciyyəvi olan bu təsvirdən əlavə o, iskit – arimaspilərin adını da çox maraqlı izah edir: «arima» - iskitlərdə bir, «spu» isə – «göz» deməkdir (52,193; IV,27). Türkologiyanın qəbul olunmuş ümumi qaydalarını əsas gətirən Q. Qeybullayev bu adın «qıyılmış göz» mənasını verdiyini bildirməklə yanaşı, monqoloid irq üçün səciyyəvi qıyıqgöz adamları ifadə etdiyini də xüsusi olaraq vurğulamışdır (51, 295). Bu «tək göz» iskitlərin qonşuluğunda «qızıl qoruyan» qriflər yaşadığını



yuxarıda qeyd etmişdik. Maraqlıdır ki, N.Marr «iskit» sözünün «qızıl çıxaran adam» mənasında işləndiyini yəqin edir (122, 40).

Hippokrat iskitlərin fiziki tipi barədə məlumat verərkən, onların enli, saqqalı sifətlərinin olmasını, soyuqdan şaxtanın təsirindən dərilərinin saraldığını bildirirdi (168,177). Burada monqoloid irqin əlamətlərinə işarə olsa da, S.M. Rudenko iskit dövrü Şərqi Avropadan Asiyaya qədərki ərazidəki çöl və dağlıq rayonlarda avropoid irqli tayfaların məskunlaşdığını, iskit, savromat, sak, massaget, yueçjilərin avropoid, pamir saklarının hind-əfqan, dun-xuların moqoloid irqinin daşıyıcısı olduqlarını yazmışdır (168,177). Onun fikrini təsdiq edən V.P.Alekseyev Orta Yenisey ətrafının erkən iskit dövrünə uyğun gələn Karasuk mədəniyyəti daşıyıcılarında belə monqoloid əlamətin olmasını qəti olaraq inkar edərək, burada braxikran-avropoid tipin üstünlük təşkil etdiyini, pamir-fərqanə irqi ilə yaxınlığın olduğunu söyləmişdir (22,385). Ümumiyyətlə o, dəfələrlə iskitləri avropoid insanlar adlandırmışdır (23,19). Görkəmli antropoloq Debets Q.F. iskitləri hündür boylu, XX əsrin adamlarından fərqli olaraq əl və ayaq sümüklərinin uzun, azca enli olduğunu xarakterizə edərək, kişilərin boyunun orta hesabla 168-170 sm-ə çatdığını qeyd etmişdir (65,9). O, Azərbaycan, Gürcüstan, çöl və meşə-çöl Ukraynası, Estoniya kimi ərazilərdə monqoloid əlamətin heç bir izinin olmadığını da qətiyyətlə vuruğulamışdır (65,8). K.Məmmədov Qafqaz xalqlarının antropoloji tərkibi haqda yazarkən, Azərbaycan türklərinin Kaspi tipinə aid edildiyini, lakin onun «Oğuz tipi» adlandırılmasının daha düzgün olduğunu bildirmişdir. Tədqiqatçı Azərbaycanda bu tipin ilkin variantının Qobustanda aşkar edilmiş uzunbaş (dolixokran) kəllə hesab edildiyini, Oğuz tipinin Xəzər dənizinin düzən-dağətəyi sahili ilə Dağıstan, Samur və Çıraqqala çayı vadisində də yayıldığını bildirmişdir (9,192). Bir daha

vurğulaya bilərik ki, monqoloid irqin əlamətinin mövcud olub-olmaması bu və ya digər xalqın türklüyünün əsas göstəricisi sayıla bilməz.

Taqar mədəniyyətinə aid kəllə sümüklərinin isə kifayət qədər çox olmasına baxmayaraq, burada populyasiyalar arasında fərqlər dəfələrlə araşdırılsa da, morfoloji cəhətdən öyrənilmə elmi mübahisələrə son qoya bilməmişdi. Bununla yanaşı, ümumi fikrə görə Taqar əhalisinin əksəriyyəti uzunbaşlı avropoidlər olmuşlar (123, 44). Şer İ.A. Minusinsk çökəkliyində, Sayan-Altay dağları ərazisində avropoid irqinin iki fərqli qolu: dolixokran avropoid-Afanasyevlilər və braxikran avropoid-okunevlilər (qismən monqoloid izləri) haqda fikir yürütmüşdür (213, 274).

İskitlərin antropoloji xüsusiyyətləri tədqiqatçıları hələ XIX əsrdən maraqlandırmışdır. A.P.Boqdanov həmin əsrin sonlarında iskitlərin kəllələrinin uzunbaş formada olduğunu və onun slavyanlarla oxşarlığını bildirmişdir (123, 38). T.S.Konduktorova iskitlərin antropologiyası ilə bağlı özündən əvvəlki fikirləri konkretləşdirməyə çalışmışdır (123, 38). Müasir tədqiqatçıların iskitlərin antropoloji məsubiyyəti ilə bağlı məlumatlarında onların keçid irq hesab olunan Subural monqolid - avropoid tipinə aid olduqları göstərilir. İskitlərin Cənubi Uralın prototürk as tayfalarından törəndiklərini yazan B. Muradov köçəri və oturaq iskitlərin antropoloji cəhətdən fərqləndiyini və təmiz iskit antropoloji tipinin müasir qaracaylılar, başqırdlar, qazax-alışınlılar və bir sıra türk xalqlarında saxlanıldığını bildirmişdir. O, qərb tədqiqatçılarının da iskitlərin ayrıca antropoloji tipə məxsus olduqlarını və onun da prototürklərə aid edildiyini əlavə etmişdir (224).

İ.Miziyev mənbələrdə iskit adının qəzəbli, hirsli kişi – aş kuzi mənasını daşıdığının göstərildiyini yazmaqla bərabər, tatar və başqırdların qəzəblənmək, hirslənmək sözünün – aşu olduğunu əlavə etmişdir. Bundan əlavə o, İspan, İsrak, İsmak



kimi şəxs adlarının başqırd, qaraqalpaq, qaraçaylılıar arasında geniş yayıldığını qeyd etmişdir(132, 42). Məlumdur ki, iskitlərin Papay və Api allahlarının adı ata, baba və ana sözləri ilə eyni səslənir. Bundan əlavə, Pliniyin məlumatına görə, iskitlər Qafqazı «Qraukasis» – qardan ağarmış adlandırırdılar. Müasir qaraqalpaq - başqırdlarda «qraukaş» eyni məna daşımaqdadır (112,185). Türkmənsəli iskit ifadələri demək olar ki, çoxsaylıdır. Məsələn, onlar Pantikapeyi (kap – qapı) «pontun qapısı» anlamında başa düşürdülər və istənilən türk xalqlarında hal – hazırda da qapı sözü işlənməkdədir.

İskitlərin tayfa və şəxs adları, toponimləri də linqvistik təhlillərlə əksərən türk mənşəli hesab edilir və əgər biz bütün bunları da ümumləşdirsək, Avropa iskitlərinin Dunay, Qara dəniz və Don arxasına qədərki böyük ərazidə, şərq iskitlərinin isə Don arxası ərazilərdə yaşadığını söyləyə bilərik. Ümumiyyətlə, iskitlərin mənşəyi, mədəniyyəti məsələsi tarix boyu mübahisəli qalaraq, bir neçə konsepsiyaların yaranmasına gətirib çıxarmışdı. Bunlardan biri iskitlərin şimali Qara dəniz sahilinin avtoxton əhalisi olduğunu, onların irandilli, qismən slavyan və Qafqazdilli xalqların əcdadı olduğunu, digər qrup isə iskitləri Asiyadan gəlmə türkdilli, həmçinin qarışıq etnoslardan ibarət xalq kimi təqdim edirlər. Təbii ki, bu nəzəriyyə tərəfdarlarının hər biri iskitlərlə bağlı antik müəlliflərin, xüsusilə Herodotun məlumatları ilə öz fikirlərini əsaslandırmağa çalışmışlar. V.K. Trednakovski, B.A. Rıbakov iskitləri slavyanların əcdadı (170), M.N. Şerbatov isə nə iskitlərin, nə də sarmatların slavyanlarla heç bir etnik qohumluğu olmamasını yazırlar (141, 19). İskitləri liv, fin və estlərin əcdadı hesab edən Q.Z.Bayer və XIX əsrdə rus mənbələri və qədim slavyanlar haqqında yazan A.Şletser slavyanlarla iskit və ya sarmatlar arasında genetik əlaqənin olmadığını qəbul etmişlər (141, 21). M.V.Lomonosov isə iskitləri fin, estland və liflandların, sarmatları slavyanların əcda-

dı, İ.E.Zabelin əkinçi iskitləri slavyanların şərq qrupu ilə, sarmatları isə birbaşa slavyanlarla eyniləşdirmişdir (141, 17, 52).

Slavyanların etnogenezində iskit tayfalarının iştirakının mümkünlüyü ilə əlaqədar olaraq, skfilərin mənşəyinə və onların etnik mənsubiyyətinə maraq sonralar da artmışdı. 1952-ci il 28 yanvar 2 fevral tarixində Moskvada keçirilən iskit-sarmat arxeologiyasının problemlərinin vəziyyəti ilə bağlı I konfransda iskit dövrü Şimali Qara dəniz sahili tayfalarının etnik mənsubiyyəti və birliyi, slavyanların etnogenezində iskitlərin iştirakı və s. məsələlər müzakirə obyekti olmuşdu. Maraqlı bir cəhət konfransın qətnaməsinin VI bəndində iskitlərin 4 böyük mədəni vilayətinin ayırd edilməsidir. Burada Moldoviya, Ukrayna və Rusiya Federasiyasının meşə-çöl zolağı; aşağı Buq, aşağı Dnepr və Azovətrafı çöllərin sırf iskit; Prikubanye və şərqi Priazovyedə sind-meot tayfalarının; Volqaboyu Ural çöllərində sarmatların mədəniyyətinin yayıldığını əsaslandırmağa çalışmışlar (156, 19-20). Əsas elmi-tədqiqat işlərinin Şərqi Avropa materialları əsasında qurulduğu I konfransdan fərqli olaraq, 1967-ci ilin yanvar-fevral aylarında keçirilən II konfransda dinlənilən 42 məruzə və məlumatlardan bir qismində iskitlərin Asiya ilə əlaqəsinə də toxunulmuşdu. A.İ. Terenojkinin iskit mədəniyyəti ilə bağlı məqaləsində, iskit mədəniyyətinin Asiyanın dərinliklərindən, e.ə. VII əsrin ortalarında cənub-şərqi Avropaya gətirilməsini bildirmişdir (186, 5). İskitlərin Qara dənizin şimal sahillərinin kərtmə mədəniyyətinin davamçıları olması fikrini isə ilkin olaraq M.Artamonov irəli sürmüşdü (29). Onun ardınca digər tədqiqatçılar iskitləri Novoçerkask mədəniyyəti daşıyıcılarından hesab etmişlər (55, 60). V.Y.Murzin iskit mədəniyyətini mənşəcə 3 müxtəlif komponentlərin birləşməsindən (Çerniqov-Novo-çerkask, Asiyadan gəlmə- protoiskit və Ön Asiya) yarandığını söyləymişdir (137, 16). A.M.Xazanov



«iskit mədəniyyətinin qəti formalaşmasını Ön Asiya ölkələrinin təsiri nəticəsində» mümkün saymış (194, 225), antropoloq Q.F.Debets iskitləri kərtmə mədəniyyətinin davamçısı kimi qəbul edərək, Orta Asiyada iskit kəllə sümüklərinə oxşar quruluşun olmadığını bildirmişdir (65, 8-10). V.A İlyinskaya, A.İ.Terenojkin iskit mədəniyyətini kök etibarilə Sibir və Altayın türkdilli tayfaları ilə bağlamış (76, 356), A.Neyxardt iskitlərin Altay əhalisi ilə qonşuluqda yaşadığını yazmışdır (141, 80).

İskitləri Altay dil ailəsi qrupuna aid edən Q.Qeybullayev onları 3 qrupa bölür: 1) yerli, avtoxton irandilli əhali - müasir osetinlərin əcdadı; 2) etnik mənsubiyyəti dəqiq məlum olmayan qafqazdilli əhali, 3) şərqdən - Asiyadan gəlmə türkdilli (51, 278).

İskitləri mənşəcə Türküstan və Sibir ərazilərinə aid edən Z. Həsənov iskit etnonimini oğuzla paralelləşdirməklə, onların eyni məna kəsb etdiyini yazaraq, iskitlərlə hunlar arasında genetik əlaqənin olmasını xüsusilə vurğulamışdır. İskitlərin həyatında qılıncın xüsusi yer tutduğunu göstərən müəllif Çin mənbələrində hunların qılınca sitayiş etmələri barədə verilən məlumatları bilavasitə iskitlərlə bağlayır. Fikrini əsaslandırmağa çalışan Z. Həsənov iskitlərdə sırf türk adətlərinin müşahidə olunduğunu, xanla bərabər əyanların dəfn olunmasının, çar cəsədinin (Kül – tigin və iskit çarlarının dəfn mərasimin nümunəsində) mumiyalanmasının eynilə təkrarlandığını göstərmişdir (50, 246-247, 253-259). A.P.Smirnov tipik iskit əşyalarının ümumi əlamətlərinə görə Asiya ilə əlaqəli olduğunu və Qazaxıstan, Orta Asiya və Altay ərazisində çoxtayfalı etnomədəni birliyə malik əhalinin yaşadığını və bu mühitin məhz iskitlərin vətəni olduğunu bildirir (178, 88,43,). Hətta İ.Q. Əliyev iskit və sarmatların hamısının irandilli olmadığını da söyləyir (26,101). A.D. Qraç Tuvanın qədim Aldı-bel və Saqlın mədəniyyəti daşıyı-

cılarının iskitlərlə mədəni ümümiliyini qeyd etməklə yanaşı, iskitləri irandilli hesab edir (57,92). V.İ. Abayev uzun müddət ərzində geniş yayılan bu məsələyə diqqət yetirərək irandilli əhalinin vətənini Orta Asiyada axtarmağın lazım olduğunu yazır (15,122). Bəzi tədqiqatçılar isə iskit-sibir incəsənətinin mənşəyini 3 vilayət üzrə öyrənilməsini düzgün hesab edirlər: Şimali Qara dəniz sahili və Şimali Qafqaz; Orta Asiya və Sibirin qərb hissəsi; Minusinsk çökəkliyi, Baykalətrafı, Monqolustan və şimali Çin (32, 26). İskit mədəniyyətinin vahid mərkəzinin yox, bir neçə müstəqil mərkəzlərin olması fikrini M.P.Qryaznov da irəli sürmüşdür. Tədqiqatçı 10 rayon üzrə Avrasiya çölləri boyunca aşağıdakı qruplaşmanı təqdim etmişdir: Qara dənizin şimal sahilləri və Ön Qafqaz, Aralətrafı, Mərkəzi və qismən şimali Qazaxıstan, Minusinsk çökəkliyi, Tuva, Monqol-Ordos, Altay və Dağlıq Altay (123, 17). İskit mədəniyyətinin modelini verməyə çalışan D.S.Rayevskiy «monomərkəz hipotezi»ndən imtina edilməsini və Qara dəniz sahili, Cənubi Sibir, Orta Asiya, Qazaxıstan çöllərinin müstəqil mədəni mərkəz kimi qəbul olunmasını təklif etmişdir (162, 255). Təbii ki, müxtəlif ərazilərdə bu incəsənətin ilk addımlarının inkişafını izləmək nə qədər maraqlı olsa da, onun formalaşdıgı ilk ərazinin müəyyənləşməsi elm üçün daha əsaslı fakt ola bilər.

Qeyd edək ki, Sibir arxeologiyasının gec və zəif öyrənilməsi də bir sıra məsələlərin problem olaraq qalmasına gətirib çıxartmışdır. Sibirdə kurqan axtarışları barədə məlumatı elm aləminə çatdıran rus katolik din xadimi Yuriy Krijaniç (1618-1685) 1659-1674-cü illədə Tobolskda sürgündə olarkən, burada iskit qəbirlərini və onlardan tapılmış gümüş qabları gördüyünü bildirmişdi (70,34). Tədricən, XVII əsrin II yarısından başlayaraq, Sibirdə çoxsaylı kurqanlar, şəhərlər, yataqlar haqda təsəvvür (110,43-45) və onların əksəriyyətinin iskitlər tərəfindən yaradılması fikri formalaşırdı (70,36).



Herodotun «Tarix» əsərinin (alman dilindən) 1763-64-cü illərdə Andrey Nartov tərəfindən ilk dəfə tərcümə edilməsi, 1819-cu ildə isə Herodotun «Tarix» kitabının IV hissəsinin yunan dilindən A.Oqinski tərəfindən ruscaya çevrilməsi iskitlər haqqında olan məlumatı daha da genişləndirirdi. Həmin dövrlərdə Andrey Lızlov «İskit tarixi» ni yazaraq, tatar türklərin mənşəcə iskit olduğunu qeyd etmişdir (141, 6-9).

Rusiya dövlətinin maraqları daxilində I Pyotrun göstərişi ilə Sibir ərazisində qədim qəbirlərin özbaşına qazılmasına qadağa qoyulmuşdu. Bu, Sibirin arxeoloji abidələrinin qorunması barədə I dövlət sərəncamı olsa da, Sibir kurqanlarının qızılları ilə dünya elmini ilkin olaraq, holland alimi N.Vitzen tanış etmişdi (110, 6). Altay yaxınlığındakı kurqanlardan əldə olunmuş qızılların I qrupu Taqilsk zavodlarının sahibi A.N.Demidov tərəfindən əldə edilərək, Pyotr Petroviçin anadan olması münasibətilə 1715-ci ildə I Yekaterinaya bağışlamış, ondan sonra Sibir qubernatoru M.P.Qaqarin 1716 və 1717-ci illərdə 102 ədəd qızıl əşyanı saraya gətirmişdi (169, 11). I Pyotrun bununla əlaqədar (1718-ci ildə) imzaladığı I sərəncamda nadir əşyaların Moskva və Peterburqa gətirilməsi, II-də isə onların əvəzində müəyyənləşdirilmiş təltiflər əks olunurdu. Pyotr kunstkamerasının Sibir kolleksiyası əsasən, A. Demidov, M.Qaqarin və Çerkasskinin hədiyyələri əsasında təşkil olunmuşdu. Ümumi çəkisi 74 funt olan qızıl əşyalar 1726-cı ildə Kunstkameraya, 1859-cu ildə isə Dövlət Ermitajına verilmişdi (110, 47).

Pyotrun çağırışı ilə 1717-ci ildən Dansiqdən Peterburqa gələn 32 yaşlı doktor D. Q. Messerşmidt (1685-1735) 1720-1726-cı illərdə Sibirdə yaşadığı müddətdə 23 cildlik toplu tərtib edib, Rusiya Akademiyasına təqdim etmişdi (45, 8). Elmə Yenisey yazılarını məlum edən D.Messerşmidt həm də Sibirin iskit dövrünə aid Taqar mədəniyyətinin (e.ə. VII-III əsrlər) I kurqanını da qazmışdı. 1711-ci ildə Sibirə sürgün

edilmiş isveç zabiti F.İ. Stralenberq (F.İ. Tabbert) Sibir abidələrinin «qədim asiya iskitlərinə» məxsusluğunu sübut etmək üçün Avropa tarix elminin qədim ənənəsinə sadiq qalaraq, Herodota istinad etmişdi (37, 21). 1743-1783-cü illərdə təşkil olunmuş ekspediyasının tərkibinə Q.F.Miller, İ.Q.Qmelin, S.P.Kraşennikov, Y.Mindenau və Q.V.Steller daxil idi. Q.F.Miller müşahidələrinə istinadən Volqadan Baykalarxası qədərki ərazidə vahid etnik tərkibli xalqın yaşadığını bildirmişdi (37, 28). Yeniseydə iki dəfə: 1717-ci ilin payızı və 1772-ci ildə olan P.S.Pallas Asiyanın ucqar rayonlarını iskitlərin ulu vətəni kimi qəbul edirdi (37, 35).

XIX əsrin I yarısında Sibirin arxeoloji tədqiqində əvvəlki kimi, yenə də Minusinsk çökəkliyi mərkəz rolunu oynayırdı. Bu dövrdə Altayda mühəndis işləmiş P.K.Frolovun kolleksiyasında olan bədii-incəsənət nümunələrinin sonralar iskit-sibir incəsənətinə məxsusluğu aşkar olunmuşdu (37,43). Kazan universitetinin prof. F.Q.Mişenko «çar iskitlərini» türklərin Ural-Altay qrupuna aid edərək, Şimali Qara dənizyanı iskit kurqanları ilə Altayın və İrtış çayı hövzəsinin tapıntılarının müqayisəsini aparmışdır (141, 47). İskit tayfalarından olan Orta Asiyanın Ortokoribantilərini «şişpapak sakları» V.V. Qriqoryev də iskitlərlə eyniləşdirirdi (141,48). Slavyan arxeologiyası ilə məşğul olan V.M. Florinskiy Sibirə məxsus heyvani üslubun Avropanın bir çox rayonlarına yayıldığını, N.M.Yadrintsev qərb çöllərinin arxeoloji mədəniyyətlərinin Sibir mənşəli olması fikrini irəli sürmüşdülər (123,17). Onun davamçısı Q.İ.Borovka da Sibirin tayqa zonasını heyvani üslubun vətəni hesab edirdi (129,37). Uzun illər boyu qeyri-ixtiyari olaraq, Qara dənizin şimal çölləri iskit mədəniyyətinin mərkəzi, Asiya çölləri isə əyalət, ən yaxşı halda bu mədəniyyətin yayıldığı ikinci dərəcəli rayon hesab olunmuşdu. Bu baxımdan da tədqiqatçılar heyvani üslubun mənşəyi məsələsində müxtəlif fikirlər irəli sürmüşlər. M.İ.Artamonov və N.L.Çlenova öz tədqiqatlarında İoniya və ya Yaxın Şərqi heyvani üslubun formalaşma zonası hesab etmişlər. Onların fikrincə, iskitlər bu üslubu Ön Asiyaya əfsanəvi yürüş zamanı gətirmiş, e.ə VI əsrdən başlayaraq, Qara dəniz sahillərində yaymışdılar; şərqdə isə Taqar heyvani üslubunun bir qismi Karasuk, bir qismi qərb mənşəli olmuş və son nəticə etibarilə Yaxın Şərqdən gətirilmişdi (33, 219-236; 211,132; 210, 110-114). Ümumiyyətlə, erkən iskit və Sibir təsvirlərinin Yaxın Şərqlə oxşarlığını əsaslandırmığa çalışan cərəyanın banisi M.İ.Rostovtsev olmuşdur. Bu nəzəriyyə tərəfdarları Het incəsənəti, Luristan və Mazandaranın tunc möhürləri, Kerkuk tipli təsvirləri əsas gətirərək Mesopotomiya ətrafı rayonların heyvani üslubun vətəni olduğunu göstərməyə çalışmışdır(163). Lakin Luristan tunc möhürləri ilə oxşarlıq üslubi yox, ikonoqrafik xarakter daşımışdır, başqa sözlə, oxşarlıq mənada deyil, formadadır. Belə oxşarlıq isə incəsənətində zoomorf motivlər olan bütün mədəniyyətlərdə də rast gəlinir. Bundan əlavə, Ziviyə tapıntılarının da iskit tipli olması Yaxın Şərq cərəyanı üçün xeyirli fakt olmuşdu. Hətta Arjan qazıntılarına qədər onlar iskit-sibir üslubunun ən qədim tapıntısı hesab olunurdu (33, 219). Lakin indi müəyyənləşdirilmişdir ki, məşhur «Saqqız xəzinəsi»nin və ya « Ziviyə qəbirləri»nin arxeoloji tamlığı müqayisəlidir (213, 241; 214, 340). Elmdə bu fikrin tam qətiləşmədiyini göstərsək də, qarışılıqlı təsir amilini də yaddan çıxara bilmərik. Belə ki, heyvan bədənində əzələlərin qabarıq təsviri Yaxın Şərqin təsiri ilə bağlı olsa da, halqavari çevrilmiş heyvan fiquru Yaxın şərq ustalarına iskitlərdən keçmişdi.

XX əsrin 20-ci illərində Q.O.Borovka, 40-cı illərində D.N.Edinq və E.Minnz iskit heyvani üslubunun Şimal, Ural və Sibirin yerli neolit incəsənətindən meydana gəlməsi barədə nəzəriyyə irəli sürmüşdülər. Əsas mərkəzi Karasuk incəsənəti hesab edən E.Minnz, vətəni Sibir olan maral təsvirləri-

nin şərqdən qərbə keçdiyini də bildirmişdir (206, 208). M.İ.Rostovsev uzun müddət bir neçə istiqamətdə (Elam, Mesopotomiya, Luristan, Hett-Qafqaz, İran-Fars) axtarışlar aparsa da, sonda Ön Asiya konsepsiyasından əl çəkərək özünə məxsus orijinallığı olan iskit incəsənətinin heç bir mərkəzdə deyil, müstəqil yarandığını qəbul etmişdir(77,9-11). N.L.Çlenova bu üslubda hazırlanan əşyaların ilkin materialını analiz edərək, şimal-tayqa mənşəli fikri təkzib etmişdi (210, 217).

Ümumiyyətlə, son illərin tədqiqatları heyvani üslubun lokal variantlarının ilkin xüsusiyyətlərini müəyyənləşdirdiyindən, eyni motivlərin müxtəlif mədəniyyətlərdə yer alması iskit mədəniyyətinin prototipi kimi təqdim olunur. Doğrudan da «monomərkəz» hipotezindən imtina etsək, bu incəsənətin ayrı-ayrı ərazilərdə meydana gəlməsi ilə razılaşmaq mümkündür. Bu halda heyvani üslubun və eləcə də bütövlükdə iskit incəsənətinin Avrasiya çöllərinin bir tərəfindən digərinə aparılması deyil, mədəni nailiyyətlərin intensiv, qarşılıqlı mübadiləsi və bir-birinə təsiri əsas diqqət mərkəzinə çevrilərdi. Göstərilən fikrin tərəfdarlarından biri olan D.S.Rayevskiy iskitlərin irandilli mənsubiyyətini dönə-dönə qeyd etsə də, ilk impulsun müxtəlif ərazilərdə fərqli olmasını göstərirdi. «Qara dəniz sahili, Cənubi Sibir, Orta Asiya və Qazaxıstan çöllərində heyvani üslubun tarixi-mədəni kökləri və formalaşma mexanizmi fərqli olmuşdur» (162, 134). K.A. Akişev iskit mədəniyyətinin ümumi bərabərliyinin fonunda üç lokal region ayırır: Qazaxıstan, Altay, Orta Asiya (20; 21, 43-58, 65). Qara dəniz sahili, Povoljye-Priural, Orta Asiya, Altay - Tarbaqatay və Mərkəzi Asiya ərazilərini iskit-sak heyvani üslubunun mərkəzi kimi təqdim edən A.J.Şer, bu yönümdə 3 variantın (son Karasuk, arjan-mayemir və Saqlın-Pazırık) olduğunu da vurğulayır. O, qərbi Altay və Baykalətrafında son Karasuk, qərbə doğru yayılaraq Orta Asiya, Kubanətrafı, Dnepryanı zonalara keçən Arjan-mayemir; cənubi Uralətrafı, Volqanın aşağı axarları və Qara dəniz sahillərinə qədər gəlib çatan Saqlın-Pazırık variantlarının iskit incəsənətinin inkişafında xüsusi yer tutduğunu bildirmişdir (214, 346). Cənubi Sibirin Karasuk mədəniyyətinə məxsus üslubun Qara dənizin şimal sahillərində yayılmış heyvani üslubla genetik qohumluğu məsələsini E.Minnz irəli sürmüşdü. O, sonralar iskit mədəniyyətinin yaranmasının ümumi bir mərkəzi kimi, İ.Strijiqovski, D.İ.Edinqlə bərabər, Şərqi Asiyanın və ya bütövlükdə Asiyanın şimal vilayətlərini təqdim etmişdi (210, 111). Lakin onların bu konsepsiyası sonralar silah və at əsləhəsi nəzərə alınmadığı üçün müsbət rəy qazana bilməmişdi.

A.P.Smirnov İskit-Sibir incəsənətini 3 vilayət üzrə təqdim etmişdir: Qara dənizin şimal sahilləri və Şimali Qafqaz, Orta Asiya və Sibirin qərb hissəsi, iskit dünyasının şərq sərhədləri olan Minusinsk çökəkliyi, Baykalətrafı, Monqolustan və şimali Çin (178, 166-167). Eyni zamanda, o, Avrasiyanın cənub rayonları-Ukrayna çöllərindən Orta Asiyaya və Altay da daxil olmaqla cənubi Sibirə qədər olan əraziləri iskit heyvani üslubunun qəti yayıldığı areal hesab edir (178, 174). Görkəmli tədqiqatçı M.İ.Artamonov da iskit-sibir incəsənətinin heyvani üslubunun Orta Avropadan Şimali Çinə qədərki çöl və meşə-çöl ərazilərdə yayıldığını təsdiq edir (32, 24). Eyni areal üzrə həm də beş böyük rayon da tədqiqatçılar tərəfindən ayırd edilir: Şimali Qaradəniz sahili və ona yaxın ərazilər (iskit); Volqaboyu və cənubi Ural ətrafı (sarmat); Orta Asiya (sak); Altay və qərbi Sibirin meşə-çöl zonası (altay); Cənubi Sibirin mərkəzi rayonları (Taqar); Baykalarxası, Monqolustan, Ordos (Mərkəzi Asiya) (123, 89). Martınov A.İ. heyvani üslubun hər bir rayonda müstəqil başlamasını və bu müstəqillik çərçivəsində də qarşılıqlı əlaqələrin mövcudluğunu qəbul edir. O, iskit incəsənətinin formalaşması

prosesini xronoloji cəhətdən üç qrupa ayırır. Birinci mərhələdə heyvani üslubun daha erkən nümunələri Hett - assur və İran - əhəməni motivlərinin təsiri altında yaranmışdır. Sibir incəsənətində bu proses Karasuk dövründə baş vermişdir. İkinci mərhələ cənubi Sibirdə yayılmış qədim heyvani üslublu motivlərin yerli dini-dünya görüşü xüsusiyyətləri nəzərə alınmaqla təkmilləşməsi ilə əlaqədardır. Üçüncü mərhələdə Avrasiya rayonlarında heyvani üslubun inkişafı e.ə.V-III əsrləri əhatə edir və artıq bu proses yerli əsaslar üzərində, yerli mifologiya ilə əlaqədə həyata keçirilir (123, 90). Ayrı-ayrı mərhələlərə aid olan heyvani üslub məişət əşyaları, petroqliflər üzərində əks olunmuşdur.

1958-ci ildə keçmiş SSRİ EA-nın Sibir şöbəsinin yaradılmasından sonra bu ərazilərdə arxeoloji işlər epizodik deyil, ardıcıl məqsədyönlü istiqamətdə – Cənubi Sibirin meşə-çöl hissəsində iskit–sarmat dövrü probleminin həllinə istiqamətlən- miş formada aparılmağa başlandı. 60-cı illərdə Yaqunya, Şestakov, Serebryakov ərazilərinin Taqar və Taştık dövrünün kurqanlarının qazıntısı başa çatdı və Kemerovo vilayətinin şimal-şərq meşə-çöl zonası iskit dövrünün özünəməxsus rayonu kimi təsdiq olundu (106, 111-112).

Qeyd edək ki, sonralar B.N.Qrakov və A.İ.Melyukovanın tədqiqatlarında da iskit mədəniyyəti qəbir abidələri, yaşayış məskəni, keramika və bəzəklər aspektindən işıqlandırılmışdı ki, bu da iskit-sibir birliyini qəbul edən tədqiqatçılar tərəfindən tənqid olunmuşdu (55; 186,17; 150,5).

Sibir tarixinin öyrənilməsində görkəmli tədqiqatçı S.V.Kiselyovun çox böyük rolu olmuşdur. Sibirin qədim tarixini 1949, 1951-ci illərdə nəşr etdirən alim iskit dövrü mədəniyyətinə, abidələrinə geniş yer verərək, bu ümumiləşdirilmiş monoqrafiyası vasitəsilə sonrakı dövr tədqiqatçıları üçün istinad mənbəyi yaratmışdı (90).

Tuvada iskit dövrünə aid ilk elmi qazıntılar Uyuk çayının



ətrafında 1915-1916-cı illərdə A.V.Adrianov tərəfindən aparılmışdır. XX əsrin 20-ci illərində isə S.A.Teplouxovun burada qazdığı 160 abidənin 45-i Tuvanın iskit dövrünə aid Uyuk mədəniyyətinə xas olmuşdur. SSRİ EA-nın Sayan-Altay arxeoloji ekspedisiyası 1947-ci ildə S.V.Kiselyovun rəhbərliyi ilə fəaliyyətə başlamış, 1953-1955-ci illərdə S.Vaynşteynin, 60-cı illərdə A.R.Kızlasovun, M.X.Mannay-Oolun rəhbərliyi ilə elmi-tədqiqat işləri aparılmışdı (110; 111; 118). Buna baxmayaraq, 50-ci illərdə hələ də tədqiqatçılar Sibir ərazisində iskitlərlə bağlı abidələrin, müxtəlif tapıntıların qeydə alınmasını köçəri həyat tərzinin inkişafı və çöl əhalisinin arasında ticarət mübadiləsinin nəticəsi kimi ifadə edirdilər (55, 92-93). B.N.Qrakov, A.İ.Melyukovanın israrla müdafiə etdiyi fikir bir qədər keçmiş A.P.Smirnovun «İskitlər» adlı kitabında öz cavabını aldı. «Eyni bir obrazda realizmin, sxematikliyin, ornamentalizmin vəhdəti məhz Cənubi Sibirdə yaranmış və sonralar Avropa mühitində, burada məskunlaşmış tayfalarla birgə, fərqli inkişaf xətti qazanmışdı... Bütün bunlar iskit incəsənətini Cənubi Sibirin erkən dövr incəsənəti ilə qohum edir» (178, 46-47). Antik müəlliflərin məlumatlarına əsaslanan Kuklina İ.V. iskit tayfalarının tarixi ərazisinin Sibirin cənubu – Arjan kurqanı ətrafı ərazilər ola biləcəyini ehtimal edir (104, 190). Biz də bu fikirlə razılaşaraq, bütövlükdə Mərkəzi Asiya, daha dəqiq isə, Cənubi Sibir ərazisinin iskitlərin vətəni olduğunu hesab edirik.

### 1.2. İskitlər və Azərbaycan

Tarixi, arxeoloji ədəbiyyatlarda belə bir fikir formalaşıb ki, iskitlər Dərbənd keçidindən Azərbaycana gələrək, midiyalıları məğlub edib, 28 il Asiyada hökmranlıq etmiş, Kür-Araz çayları arasında, daha doğrusu Kürün orta axarından cənuba doğru ərazidə isə «İskit çarlığı» yaratmışdılar. Ar-

xeoloji tarixşünaslıqda bu problem kifayət qədər aktual olduğundan, tarixi mənbələrə və arxeoloji qazıntılara istinadən, iskitlərin Azərbaycanla bağlılığına nəzər sala bilərik. Antik müəlliflərdən Tatsit alban və genioxların yaxınlığında yaşayan «iskit çarları» haqda məlumat vermişdir. Assur hökmdarı Asarxaddonun (e.ə. 680-669) dövrünə aid kitabələrdə «mannalılar ölkəsində yaşayan iskitlər» haqda söhbət açılır (7, 40). Bundan başqa, Assurlara qarşı yürüşlərdə manna və midiyalılarla birgə iskitlərin çarı İşpakayın adıni çəkmisdir. Onun dövlətinin dəqiq sərhədləri bilinməsə də, Urmiya gölünün şimalı və Kür çayı ətrafında – Mil düzündə iskit çarlığının olduğunu M.İ.Artamonov da təsdiq edir (31,103). Görkəmli tədqiqatçı Martınov A.İ. e.ə. VII əsrin 70-ci illərində Assur mənbələrində Mil düzündə məskunlaşmış İskitlərin adının çəkildiyini bildirmişdir(226). E. ə. VII əsrdə Ön Asiyada iskitlərin dövlət quruluşu və xüsusi ərazisinin olduğunu M.N.Poqrebova bir sıra amillərlə təsdiq etməyin mümkünlüyünü bildirir: iskit birliyinin Assur mənbələrində ümumi adla adlandırılmasını, «iskit çarı» Partatuanın Assur çariçası ilə evlənməsinə ciddi yanaşılmasını, antik müəlliflərin Ön Asiyada «iskit ağalığı»nı təsdiq etməsini, Bibliya peyğəmbərləri tərəfindən Manna və Urartu ilə bərabər İskit ölkəsinin adının çəkilməsini və s. əsas götürür (153,15). Zənnimizcə, doğurdan da əgər o dövrun siyasi səhnəsində aparcı rol oynayan dövlətlərlə yanası iskitlərin də adının cəkilməsi onun ərazi bütövlüyünə və digər atributlara malik qüdrətli dövlət olmasından xəbər verir. 1978-ci ilin noyabrından 1983-cü ilin iyulunadək Kur cayının sol sahilində, Bakı-Tiflis yolu yaxınlığında Şəmkirin «Qara Musanın yataq yeri» adlanan təpəciyində tədqiq olan nekropoldan əldə edilən tapıntılar iskitlərlə sıx mədəni əlaqənin olduğunu göstərir (27,4). Ümumiyyətlə, Qafqazda, «iskit çarlığı» məsələsi ilə bağlı bir neçə nəzəriyyə formalaşmışdır. I. Bu ərazidə iskit dövləti olmamışdır; II. Tarixi və arxeoloji materiallara əsasən dövlət mövcud olmuşdur; III. İskitlərlə bağlı burada arxeoloji iz ümumiyyətlə yoxdur.



Əksər tədqiqatçılar Ön Asiyada iskitlərin yaratdığı dövlətin Cənub-Şərqi Qafqaz – Mil düzü rayonu və Kür-Araz çayları arasında yerləşdiyini təsdiq edirlər (67, 250-251; 26,266; 194, 219). Poqrebova M. isə erməni müəllifi ilə birgə Kiçik kurqandakı dəfn ənənəsinin yerli köklərə bağlı olduğunu əsas gətirməklə, kurqanı mənşəcə iskitlərələ bağlamağı lazım bilmirdi (155,23). İ.M. Dyakonov iskitlərin Dərbənd keçidi vasitəsilə Azərbaycana gəldiyini və Mingəçevirin torpaq qəbirlərinin iskit və yerli əhalinin qarışıq dəfni olduğunu və Mannanın şimal sərhəddində, Araz çayı rayonu və şimal istiqamətində iskit məskənlərini yerləşdirməyin düzgünlüyünü bildirmişdir (67, 281). Q.İsmayılzadə də bu fikirlə razılaşaraq, onların yerli əhali ilə qaynayıb qarışdığını yazmışdı (83,78). İ.Q.Əliyev iskit çarlığını Manna ərazisi ilə məhdudlaşdırmış və onları azlıqda qalan hakim təbəqə kimi xarakterizə etmişdir (26, 230, əlavə 5). Y.B. Yusifov kimmer-sak-iskitlərin Urartunun cənubu, Manna və Cənubi Qafqazda mövcud olduğunu göstərmiş və hbuşkiya ilə Manna skitlərinin kimmerilərlə ittifaqa girib «Kimmer-skit-sak» padşahlığı yaratdığını təsdiq etmişdir (216, 182). S.Qaşqay İskit çarlığını Mingəçevir ərazisinə və ya Urmiyanın şimalına aid edilmə fikrini daha düzgün variant hesab etmişdir(87,47).

«Azərbaycan tarixi» dərsliyinin 1996-cı il nəşrində iskitlərin Manna dövləti ərazisində şahlıq qura bilməsinin inandırıcı olmadığı söylənir. Burada qeyd olunur ki, o vaxt Mannanın güclü bir dövlətə çevrildiyi və hətta torpaqlarının Assuriyaya doğru genişləndiyi bir dövrdə «işquz ölkəsi»nin Manna ərazisində olması şübhə doğurur. Hətta Tövratda (İyermiyanın kitabı) e. ə. 593-cü ilin hadisələrindən bəhs edilərəkən «Aşkenaz» (işquz) ölkəsi Urartu və Manna ilə bir sırada xa-

tırladılır. Deməli, həmin ölkə Mannadan kənarda olmalı idi və bu baxımdan İskit çarlığının Midiya ərazisində yerləşdirilməsi daha düzgün olardı. Midiyanın müstəqillik qazanmasında iskitlərin köməyi (e.ə. 673), sonra Midiyanı ələ keçirib 28 il (652-624) ağalıq etmələri, hətta onların Midiyanı Lidiyaya qarşı savaşa təhrik etməsi (e.ə. 585-584) və s. bəllidir ki, bütün bunlar iskit çarlığının bilavasitə Midiya torpağında yerləşməsi ehtimalına üstünlük verməkdədir (1, 44).

S.Qaşqay aşşurlara qarşı mübarizədə mannalıların iskitlərin köməyindən faydalandıqlarını, onlarla birlikdə müttəfiq kimi çıxış etdiklərini yazmış, Aşşur mənbələrində onların Mannalılar ölkəsinin əyalətində yaşadıqlarının göstərildiyini qeyd etmişdir (7, 40,41). Bəzi müəlliflər çarlığı Sakasena adlandırılan Alban vilayəti ilə də eyniləşdirirlər. Bunun üçün İskitlərin Dərbənd keçidini aşaraq qədim Alban torpaqlarına daxil olması, Herodot və Strabonun «iranlılar iskitləri saka adlandırır» deməlləri əsas götürülür (1,44). Tədqiqatçılar orta əsr Azərbaycan miniatürlərində öz əksini tapan şişpapaqların demək olar ki, bu dövrdə əhali içərisində yayıldığını qeyd etməklə, onu Azərbaycanda – Balasaqun vilayətində (Mil-Muğan çölündə) yaşamış saklarla, təsvirlərdəki heyvani üslubu xatırladan maralların qaçış səhnəsini iskit «heyvani üslubu» daşıyıcıları ilə əlaqələndirməyə çalışmışlar (199,17). Araz çayının adının mənşəyini araşdırarkən M. Xəlilov antik mənbələrin məlumatlarına istinadən, onu iskit tayfalarından birinin adı ilə əlaqələndirmişdir. Tədqiqatçının yazdığına görə, buraya e.ə. VII əsrdə gəlmiş iskit pal və ya bal tayfaları orta Asiyadakı Araksın adını yerli Qalm çayının adına vermişdilər və Cənubi Qafqaza e.ə. VII əsrdə gələn ballar kutilər (cənubi Azərbaycan) ölkəsi də daxil olmaqla böyük ərazidə çarlıq qurmuşdular. Balasakan Bərdədən Xəzər dənizinə, Kürdən Bərzəndə qədərki ərazini əhatə etdiyindən çay balların çöl zonasını 2 hissəyə ayırmışdı. Bundan əlavə tədqiqatçı



onların əsasən, Mil – Qarabağda məskunlaşmalarının izi kimi Qarabağ və Muğan çöllərində mövcud olan etnotoponimləri (Ağdamda Ballar; Sabirabadda Balakən) də misal gətirmişdir (197,104-106). Qeyd edə bilərik ki, Mil düzündə e.ə. VII əsrə aid edilən Kiçik kurqan yuxarıdakı fikirlərin arxeoloji dəstəyi ola bilər.

Digər maraqlı yanasma İ.Nərimanova məxsusdur. Onun fikrincə, iskitlərin Midiyada ağalığı basa catdıqdan sonra, çox yəqin ki, onların bir hissəsi assimlyasiya olunaraq, yerli əhali ilə qaynayıb-qarışmışdır(138,69). Məlumdur ki, Azərbaycanda, o cümlədən Cənubi Qafqazda İskitlərin maddi-mədəniyyət izləri görünən abidələr XIX əsrin ikinci yarısından qeydə alınmışdır. A.A.İvanovski Gədəbəy və Qarabulaqda, Jak de Morqan yuxarı Talışdakı Musayeri qəbirstanlığından iskit mədəniyyəti ilə biavasitə və ya dolayı əlaqəsi olan əşyalar aşkar etmışdılər (83,77). Kimmeri və iskitlərin Qafqazdan keçərək yürüş etməsi şübhə doğurmasa da, XX əsrin əvvəllərində tədqiqatçılar bu axının dövrlərini aydınlaşdıra bilmirdilər. Hal-hazırda isə kimmeri və iskit tayfalarının Ön Asiyaya yürüşündə 3 mərhələ ayırd edilir:

I. E.ə. VIII əsrin sonlarında kimmerlilərin ilkin gəlişi,

II. E.ə. VII əsrin ortalarında iskitlərin şimaldan hərəkəti,

III. Orta Asiyadan iskit tayfalarının hərəkəti (e.ə. VI əsr) (108, 187).

İskitlərin Qafqazdan keçərək yürüş etmələrinə E.İ.Krupnov, V.B. Vinoqradov da toxunaraq, belə bir çarlığın Azərbaycan ərazisində olmadığını bildirsələr də, Kür-Araz və ya Urmiya gölünün şimalında yaşayan əhali ilə müəyyən ünsiyyətə girdiklərini də inkar etmirlər. Belə ki, onların fikrincə, iskit hökmdarlığını burada lokalizə etmək düzgün deyil və bura yalnız iskit ordusunun müvəqqəti düşərgə rayonu olduğundan, iskitlər oradan cənub yürüşlərini həyata keçirmişdilər (7,41; 108). Bu tədqiqatçılar iskitlərin Asiyaya gəlişinin

müvəqqəti- hərbi qarət xarakterli olduğunu təsdiq etməyə çalışmışdılar. T.Sulimirski iskitlərin müasir Azərbaycan rayonlarına e.ə. X-IX əsrlərdən gəlməsini bildirmiş və buna sübut üçün kərtmə mədəniyyətinə və Cənubi Qafqazın şərqinə xas ornamentlər arasında ümumiliyi əsas gətirmişdir (153, 23). Cənubi Qafqazda iskitlərin siyasi mərkəzlərindən birinin mövcudluğu (xüsusən, Sakasenanın tarixi ərazisində) faktını qəbul edən Q.A.Melikişvili bu lokalizasiyanın yeganə variant olmadığını da bildirmişdir (153,16). B.B.Piotrovski iskitlərin Kaspi dənizi sahili boyunca keçdiklərini, Urartulularla toqquşmadıqlarını və buna görə də həmin dövr Urartu mətnlərində adlarının çəkilmədiyini yazır (151,244). E.İ.Krupnov eyni zamanda bir neçə yolun mövcud ola bilməsi fikrini irəli sürmüşdür (108). Biz də əyanilik üçün kimmeri və iskitlərin Qafqazdan keçmə yollarını göstərən xəritəni monoqrafiyaya daxil etmişik (şək.1.2.).

Herodot «Tarix» inin iki yerində iskitlərin hərəkət istiqamətini, Qafqaz dağlarını sağda qoyaraq keçmələrini ilə göstərir (52, 103-104,190). İskitlərin hansı keçid vasitəsilə gəlmələri isə tədqiqatçılar arasında fikir ayrılığı yaratmışdır. E.İ.Krupnov onların – Meotida Kolxida sahilboyu yolu, Dərbənd keçidi ilə hərbi Gürcüstan yolu, Mamison keçidi ilə hərbi Osetin yolu və Dərbənd keçidindən istifadə edərək hərəkət etdiklərini bildirir (108, 186-194). İskitlərin Kaspi dənizinin ətrafından keçməsini əsassız sayan S.M.Qaşqay həmin ərazidə onların hər hansı izlərinin olmamasına istinad edir. O, e.ə. II-I minillikdən e.ə. IV-III əsrlərə qədərki dövrü əhatə edən Dağıstanın Zəndək mədəniyyətinin çoxsaylı abidələrinin heç birindən iskit tipli abidələrin tapılmamasını əsas gətirsə də, e.ə. VI-V əsrlərə aid Xabadin qəbristanlığının 2 və 7 saylı qəbirlərindən iskit tipli əşyalar tapıldığını da qeyd etmişdir (87, 42-43). Arkas çoxtəbəqəli yaşayış məskənində dəmirdən düzəldilmiş at əsləhə və bəzəklərini yerli sənətkarların iskitlərdən mənimsədiyi güman edilir. Amalo dəmir yol stansiyası, Qarabulaqkənd, Tarnair, Qayakənd, Bavtuqay qəsəbəsi və digər ərazilərdən iskit tipli ox ucluqları tapılmışdır (şək.1.3.). Bütün bunlara və qədim mənbələrə əsasən iskitlərin hərbi Gürcüstan yolu - Terek çayı, Araqvi çayı və Dəryal keçidi, habelə, hərbi Osetin – Ardon və Rioni sahilləri ilə keçmələri fikrini S.Qaşqay da qəbul etmişdir (87,47). İskitlərə xas tunc və dəmir silahlar, at əsləhəsi və heyvani üslublu digər tapıntılar Şimali Osetiyanın Kumbulta, Qaliat kəndlərindən, Diqor kanalından və Qərbi Gürcüstana gedən yoldan aşkar edildiyindən, Osetin yolunun keçid kimi istifadə olunduğunu güman etmək olar. Mərkəzi Gürcüstanın Tsisamuri kəndi, Mtsxet şəhəri yaxınlığında, Beştaşeni ərazisində iskitlərə məxsus əşyaların çoxsaylı qeydə alınması Dəryal keçidinin hərəkət yollarından biri olduğunu göstərir. Ancaq sözsüz ki, iskitlər Ön Asiyaya «Dərbənd keçidi vasitəsilə gəlmişlər» (108,191-194). İskitlərin Xəzər yolu ilə keçidini antik müəlliflər və arxeoloji materiallar dəfələrlə təsdiq etmişdir. Mahaçqala yaxınlığında tapılmış rombvari iki pərli, uzun oymaqlı ox ucluğu e.ə. VIII-VII əsrlərə, başqa sözlə, iskitlərin yürüşü vaxtına aid edilir (97,57). Cənubi Qafqazdan tapılmış ox ucluqları oval və üçkünc başlıqlı üçpərli olmaqla iskit tipini təkrarlamışdı (155, 65,71). Həmin dövrdə Şah-Səngər (e.ə. IX-VII əsrlər) şəhəri tənəzzül etsə də, sonralar burada inkişaf kifayət qədər gözə çarpan olmuşdur. İskit dövrünün mədəni təbəqəsindən qala divarlarının, yaşayış məntəqələrinin qalıqları tapılmış, Ursek, Tarqu və s. kimi şəhərlər üzə çıxarılmışdır (97,57).

Baş Qafqaz dağlarından cənuba doğru abidələr də iskit tipli silah və at əsləhələrlə zəngindir. Belə ki, Cənubi Osetiyanın Tli kəndi yaxınlığında Koban qəbrində və Abxaziyanın Kulanurxva və Kolxida kəndlərindəki qəbrində kəpənəkvari ayrıclı dəmir akinak, tunc 2 və 3 pərli ox ucluğu, dəmir

təbərzin, balta, tunc üzəngivari başlıqlı yüyən, sümük və dəmirdən 3 ilgəkli kəmərlər, bir sözlə, Qara dənizin şimal sahili arxaik iskit qəbirləri üçün xarakterik avadanlıqlar tapılmışdı (155,89). Şimali Qafqazın zoomorf fiqurlu tapıntıları monoqrafiyaya əlavə edilmiş şəkildə göstərilmişdir (şək.1.4.). Heyvani üslublu avadanlıqlar Karmir-Blur və Samtavr qəbristanlığı ərazisindən, eyni zamanda İran Kürdüstanından – Ziviyədəki iskit çar xəzinəsindən də qeydə alınmışdır (186, 23). Tədqiqatçılar, buranı tutmuş iskitlərin ona öz adlarını verdiyini, saqqız sözünün «saka» sözündən törəndiyini güman edirlər (7, 11). Dəfinədəki əşyalar e.ə. IX-VII əsrlərə aid edilsə də, Kuban boyu və Qara dəniz sahili iskit kurqanları ilə müqayisə edilən Ziviyə dəfinəsinin iskit üslublu qızıl əşyalarını B.B. Piotrovski e.ə. VII əsrin sonu - VI əsrin əvvəllərinə aid olduğunu bildirmişdir (151, 255). Cənubi Qafqazda «iskit elementli» abidələri xarakterizə edən Poqrebova M.N. onlardan 11-nin Azərbaycan, 36-nın Gürcüstan (Abxaziya və Osetiya torpaqları ilə birlikdə), 2-nin *Ermənistan* (Qərbi Azəbaycan) ərazisində olduğunu göstəmişdir (155,21-37). Təqiqatçı Azərbaycanda əsasən ox ucluqlarının qeydə alındığını, habelə, V.Belkin Qalkənd qazıntıları zamanı dəmir akinak tapdığını da qeyd etmişdir (155,22).

Qarabağda vaxtilə E.Reslerin tədqiq etdiyi kurqanların dəfn adətləri və üsullarının Herodotun təsvir etdiyi iskit kurqanları ilə üst-üstə düşdüyü də tədqiqatçılar tərəfindən qeyd olunmuşdur. Belə ki, M.Xəlilov Ballıqaya və Sırxavənd arasında örtüyü 9m, dərinliyi 5m olan kurqanda atla birgə dəfn və qəbrin quruluşunu iskit çar kurqanları ilə oxşarlığını göstərməyə çalışmışdır (198,15). At dəfnli və ağac konstruksiyalı kurqanlar Azərbaycanın bir çox yerlərində, o cümlədən Borsunlu kurqanında (e.ə. XII-XI əsrlər) qeydə alınmışdı. Qəbir kamerası 256 kv m olan kurqan hələ qədimdən qarət olunsa da, öz ölçü və avadanlığı ilə tayfa başçısı qəbrini xa-



tırladan kurqanın Taqar mədəniyyətinin iskit dövrü at dəfnli hökmdar kurqanları ilə müqayisə edən H.Cəfərov onlar arasında bənzərlik olduğunu bildirmişdir(64,4).

Göründüyü kimi, iskit probleminin öyrənilməsi zamanı Azərbaycanla bağlı materialların nəzərə alınması qaçılmazdır. Doğrudur, iskitlərin bölgədə olması, onların burada yaşama müddəti, gəlişlərinin məqsədi və bu kimi məsələlərdə müəyyən fikir ayrılıqları olsa da, iskitlərin bir qisminin Azərbaycanda yerli əhali ilə qaynayıb – qarışdığını demək olar ki, tarixçi-arxeoloqların əksəriyyəti qəbul edir. Fikrimizcə, bunun da başlıca səbəblərindən biri onların yerli əhali ilə eyni etnik kökə mənsubluğu ilə izah oluna bilər.

# II FƏSİL
# SKİFLƏRLƏ BAĞLI ARXEOLOJİ MƏDƏNİYYƏTLƏR

## 2.1. Minusinsk çökəkliyi, Tuva, Altay və Baykalarxasının sinxron mədəniyyətləri

Arxeoloji qazıntılar nəticəsində Minusinsk çökəkliyində Yenisey çayı ətrafında yerləşən şimal və qərb vilayətlərdə, Tuva ərazisində Qara dəniz sahili iskitlərinin həmdövrü olan tayfaların mədəniyyətinin izləri aşkar olunmuşdur. Sibirin bu dövr mədəniyyətləri və onların xronoloji yaşının öyrənilməsi bu ərazidə e.ə. I minillikdə baş verən tarixi proseslərin mahiyyətinin araşdırılması üçün xüsusi əhəmiyyət daşıyır. Müxtəlif ərazilərdə tarixşünaslıqda iskit dövrü adlandırılan bir vaxtda yaranmış mədəniyyətlərin obyektiv ümumiləşdirilməsi kimi dolğun hesab etdiyimiz təsnifatı təqdim edə bilərik. Beləliklə, bu dövrdə Minusinsk çökəkliyində Taqar, Altayda Mayəmir-Pazırık, Baykalarxasında yastı (plitə daş lövhə) qəbir mədəniyyəti, Tuvada Uyuk, Aldı-bel, Saqlın mədəniyyətləri mövcud olmuşdur.

Qeyd edək ki, Minusinsk çökəkliyində iskit tipli abidələrin, xüsusən də heyvani üslubun araşdırılması zamanı Karasuk mədəniyyəti ilə qarşılaşmaq qaçılmazdır. Adətən, Karasuk mədəniyyəti iskit dövrü mədəniyyətləri sırasına daxil edilməsə də, Taqar mədəniyyətinin formalaşmasında onun rolunu inkar etmək mümkün deyildir. XX əsrin 20-30-cu illərindən başlayaraq, müxtəlif tədqiqatçılar Karasuk mədəniyyətini heyvani üslubun yarandığı mühit kimi qəbul etmişdilər və 70-ci illərdə də bu yönümlü fikirlər qüvvədə qalmışdı (206,208; 214,346; 146). E.B.Vadetskaya Karasuk mədəniyyətinin yerli əsaslar üzərində yarandığını və yerli mədəniyyətin xronoloji davamı kimi tarix səhnəsinə çıxdığını bildirir (44, 61). Digər tədqiqatçılar, Karasuk dövrünün qəti müəyyənləşdirilməsinə nail olmaq üçün yerli arxeoloji tapıntılarla qonşu ərazilərin anoloji nümunələri arasında müqayisələr aparmışdılar. Belə ki, Seymin bıçaqları ilə müqayisədə Karasuk mədəniyyəti e.ə. XV-XIII əsrlərə, digər Çin tapıntılarına istinadən e.ə. XI-X və VIII-VII əsrlər arası dövrlərə aid edilmişdir (211,120). Keçmiş SSRİ-nin Arxeologiya İnstitutunun Leninqrad (Sankt - Peterburq) şöbəsinin laboratoriyasında Karasuk mədəniyyəti üçün iki radiokarbon tarix müəyyənləşdirilmişdir: 2930 ± 60 (e.ə.980 il) və 2710 ± 75 (e.ə.760 il) tarixləri IV Karasuk qəbrinə aid edilir (211,39). Bu mədəniyyətin dövrünü, xronoloji yaşını ilk dəfə araşdırmış S.A.Teplouxov e.ə. X-VIII əsrləri daha məqsədəuyğun tarix saymışdı (44, 64). Qərbi Sibir tapıntıları ilə müqayisələr nəticəsində də e.ə. XI-X əsrlərdən e.ə. VII əsrə qədərki dövr Karasuk dövrü hesab edilə bilər və bütün əldə olunan materialları toplayan M.P.Qryaznov Karasuk mədəniyyətinin daxili təsnifatını 2 mərhələ ilə vermişdir: e.ə. XIII - XI əsrləri əhatə edən sırf Karasuk abidələri və e.ə. X - VIII əsrləri əhatə edən kamennolojsk abidələri (44,65).

Yenə də Sibirin iskit dövrü mədəniyyətinə qayıdaraq, Taqar mədəniyyətinin mənşəyinin Karasuk mədəniyyəti ilə əlaqədə götürülə biləcəyini vurğulayırıq. Hələ Karasuk dövründə Taqarlılar üçün tipik olan silahlar hazırlanmış, incəsənətdə «heyvani üslub» yaranmışdı və hətta keçid dövrü abidələrində belə, bəzi Karasuk qəbirlərində Taqar gil qablarına oxşar nümunələr tapılmışdı. Karasuk və Taqar mədəniyyəti daşıyıcılarının antropoloji müqayisələri də son dövrlər diskussiyalara səbəb olmuşdur. Belə ki, Taqarlıların yerli luqav və andronov mədəniyyəti komponentləri əsasında yaranması fikrini müdafiə edənlərdən fərqli olaraq, N.L.Çlenova Kamennolojsklıları (luqav) Taqarlıların əcdadı hesab etmir və Taqar mədəniyyətinin müxtəlif lokal qrupların birləşməsi nə-

ticəsində yarandığını bildirir və belə hesab edir ki, e.ə. II min. ortalarında Minusinsk çökəkliyinə Afanasyev mədəniyyəti daşıyıcıları gəlmiş, yerli əhali ilə qaynayıb-qarışaraq şimal-qərbi Minusinsk ərazisində məskunlaşmışlar (210. 216). A.İ.Martınov da andronovla əlaqəni inkar etməsə də, Karasuklularla genetik əlaqənin olduğunu bildirir (124). Hələ 1929-cu ildə S.V.Kiselyov tərəfindən bu mədəniyyətin adı müəyyənləşdirilmiş, onu Taqar adlandıraraq, inkişafında 3 mərhələ ayırmışdı: e.ə. X-VII, e.ə. VII-IV, e.ə. III-I əsrlər. Tədqiqatçı qəbir abidələrini, dəfn adətini araşdırmış, bir sıra Taqar tapıntılarını Karasuk, erkən iskit və Ananyin tapıntıları ilə əlaqələndirməyə cəhd etmişdir (90,184). Lakin sonrakı tədqiqatlar nəticəsində o, yeni xronoloji dövrləşmə təklif etmişdir e.ə. VII-V, e.ə. V-I, e.ə. I əsrlər (90).

XX əsrin 60-70-ci illərində Cənubi Sibirin meşə-çöl zonasında Taqar mədəniyyətinin yeni materialları üzə çıxarıldı. Krasnoyarsk diyarının meşə-çöl zonasında Xakas-Minusinsk rayonunun şimal və şimal-qərbində və Kemerovo vilayətində iskit dövrü abidələri açıldı və görkəmli tədqiqatçı A.İ.Martınov Taqar mədəniyyətinin tarixini doktorluq monoqrafiyası kimi işləyərək bu dövrü 3 mərhələyə böldü: Piçuqinsk (e.ə. VI-V), Tisul (e.ə. V-IV) və Nazarov (e.ə. III əsr) (124,65-85). M.P.Qryaznov S.V.Kiselyovun verdiyi xronologiya üzərində işləyərək, Taqar mədəniyyəti üçün daha dəqiq və müasir tarixşünaslıqda qəbul olunan bir dövrləşmə yaratdı. O, özündən əvvəlki təsnifatlardan fərqli olaraq, bu mədəniyyəti 4 mərhələyə ayırmışdı: e.ə. VII-VI əsrləri əhatə edən Bainovsk, e.ə. VI-V əsrləri əhatə edən podqornovsk, e.ə. IV-III əsrləri əhatə edən saraqaşen və e.ə. II-I əsrləri əhatə edən tesin dövrü (44,101). N.L.Çlenova e.ə. VII-III əsrlərdə Krasnoyarsk diyarının cənub rayonlarında Taqar mədəniyyətinin yayıldığını qeyd etsə də, bu mədəniyyətə aid tapıntıları 3 mərhələdə: e.ə. VII-V, e.ə. V-I və e.ə. I əsrlər çərçivəsində



təqdim etmişdir (210, 13). Gördüyümüz kimi əslində bu, S.V.Kiselyovun yuxarıda göstərdiyimiz xronologiyasının təkrarı idi. Taqar tayfalarının iskitlərlə ümumiliyinin çox olduğunu bildirən E.B.Vadetskaya Orta Yenisey çöllərinin arxeoloji abidələrini tədqiq edərkən, Taqar mədəniyyətinin M.P.Qryaznov tərəfindən verilmiş təsnifatına əsaslanaraq, Minusinsk, Nazarov, Çulımo-Yenisey və Sıda-Erbin çökəkliklərində Taqar dövrü abidələrinin yerləşmə ardıcıllığını vermişdir (44,102; 45,81). Belə ki, Bainovsk dövründə: Nazarov - 1, Çulımo-Yenisey-18, Sıda-Erbin-27, Minusinsk-61; podqornovsk dövründə: Nazarov-4, Çulımo-Yenisey-32, Sıda-Erbin-21, Minusinsk-60; Saraqaşen dövründə: Nazarov-17, Sıda-Erbin-5, Minusinskdə-60; Tesin dövründə: Nazarov-3, Çulımo-Yenisey-9, Sıda-Erbin-5 abidə ilə təmsil olunur. Kurqanların ərazi üzrə sayına diqqət etsək, o dövrdə əhalinin ümumi sıxlığının daha çox Minusinsk çökəkliyində və Çulımo-Yenisey dərəsində olduğunu görə bilərik.

Taqar mədəniyyətinin bütün dövr kurqanlarının xarakterik xüsusiyyəti burada düzbücaqlı daş hasarın və dirəkvari daşların olmasıdır. Çöl zonasında onlar qrup halında yerləşmişdir. Adətən, torpaqda qazılan bu qəbirlərin yanları və üstü sal daşlarla örtülür, kurqanlar 10 və daha çox metr, divarların hündürlüyü 3-4m olurdu. Hasar və dirəkvari daşlar bir qayda olaraq cənub-qərbdən şimal-şərq istiqamətinə yönəldilirdi. Ümumiyyətlə, ayrı-ayrı mərhələlər üzrə qəbir abidələrinin qoyuluşu və dəfn prosesində çox da ciddi dəyişikliklər olmasa da, müəyyən fərqləri seçmək mümkündür. Karasuk dövründə olduğu kimi, Bainovsk dövründə kurqanın daş örtüyü 4-5m, bəzən 10m ölçüsündə, kvadrat formada olurdu. Qəbirlər daş qutudan ibarət olmaqla, ölülər Karasuk dövründən fərqli kürəyi üstə, düz uzadılmış, başı cənub-qərbə yönəlmiş vəziyyətdə dəfn olunurdu. Bu dövrün gil qabları varislik baxımından Karasuk qabları ilə bağlı idi, bu yumurta-

vari formalı qablarda özünü göstərirdi, lakin bəzi qəbirlərdə bankavari qablar da tapılırdı. Taqar mədəniyyətinin əsas xüsusiyyətləri podqornovsk (e.ə.VI-V əsrlər) dövründən etibarən daha aydın nəzərə çarpır. Yuxarıda da göründüyü kimi, bütün çöl boyunca Taqar kurqanlarının yayılması məhz bu dövrə aiddir. Kurqanlar daş və torpaq örtükdən ibarət, ensiz divarlı, 15-20 m hündürlüyündə olurdu. Daş hasarın mərkəzində bir qəbir yerləşdirilirdi. Qəbirdə bir nəfər, kürəyi üstə, baş və ayaq tərəfdə içərisində içki olmuş qab, ayaq tərəfdə dörd ədəd qurbanlıq ət parçası (qoyun, at və s.) qoyulmaqla dəfn olunurdu. Bütün əsas tapıntılar Bainovsk əşyalarından formasına görə fərqlənirdi. Eyni zamanda, artıq bu dövrdə varlı əsilzadə və ya tayfa başçısına məxsus olmuş qəbirlər də mövcud olmuşdur(84, 190). Abakan çölündə, yerdən 3m hündürlükdə olan monumental Qara kurqan və kurqan Uzunoba məhz belə kurqanlardandır.

Saraqaşen dövrü (e.ə. IV-III) abidələri çox deyildir. Kurqanlar bir qayda olaraq böyük ölçülü, 200-300 $m^2$ sahəni əhatə edən daş hasar 10 və ya 8 ədəd iri daşdan hörülürdü. Kurqanaltı qəbirlər dördkünc olmaqla iri daş və ya ağac tirlərdən düzəldilirdi. İri qəbirlərdə 20-yə qədər ölü dəfn olunması buranın müəyyən bir qəbiləyə və ya böyük ailəyə məxsusluğunu göstərir. Belə qəbirlərdə avadanlıq çoxsaylı, həm də zəngin olurdu. Konusvari ayaqlı qazan və ya vazalar bu dövrdə geniş yayılmışdı. Saraqaşen dövrü qəbirlərində qaçış vəziyyətində olan maral fiqurlu lövhələr və heyvan başlıqlı başqa tunc predmetlər tapılmışdı. Bu dövrə aid varlı tayfa əyanlarına məxsus Salbık kurqanı 2 m hündürlüyündə siklopik daş hasarlı və 11 m hündürlükdə torpaq təpəciyi ilə seçilir(123, 121). Möhtəşəm abidənin 30-40 ton ağırlığında sal daş lövhələri yanlarda yerləşdirilmişdi. Təbii ki, belə bir qəbir hələ lap qədimdən oğurluğa məruz qalmışdı. Taqar mədəniyyətinin son mərhələsi olan Tesin (e.ə. II-I) iki növ abidə ilə seçilir. Bunlardan biri iri kurqanlar, digəri isə kiçik bir ərazidə çox yaxın yerləşmiş qəbir qruplarıdır (10-dan 100-dək). Artıq bu dövrdə tunc əşyalar yoxdur. Ölünün yanında dəmir bıçaqlar, xəncərlər və s. qoyulmuş, İskit tunc qazanlarını xatırladan qablar, mərhumun mumiyalanması, üzün gips maska ilə örtülməsi kimi mərasimlər geniş yayılmışdı (84, 194).



Göründüyü kimi, bu mədəniyyətin hər 4 dövrü bir-biri ilə bağlı olduğundan burada mədəniyyətin inkişaf prosesini izləmək mümkündür. Yenisey çölünün sakinləri hər tərəfdən keçilməz dağlarla və ya ucsuz-bucaqsız Sibir tayqası ilə əhatə olunsa da, onlar yenə də digər çol tayfaları ilə mədəni əlaqələr yarada bilmişdilər. Belə ki, onların silahları təkcə qonşu Tuva və Altay tayfalarının silahları ilə deyil, həm də uzaq Şərqi Avropanın iskit və ananyin silahları ilə də bənzərdir. Həmçinin at qoşqu ləvazimatı və «iskit - sibir heyvani üslubu» adlandırılan incəsənət yaradıcılığında da bənzərliyin aydın ifadəsi bu analogiyanın möhkəm əsaslara dayandığını söyləməyə imkan verir. Təbii ki, tədqiqatçılar Taqar mədəniyyətinə aid məmulatların iskit tapıntıları ilə oxşarlığını dəfələrlə vurğulamışlar (210,13; 86,42; 45,81).

Erkən iskit dövrünə aid olan mədəniyyət izləri eyni zamanda Tuvanın Aldı-bel, Saqlın mədəniyyətləri ilə də nəzəri cəlb edir. Ümumiyyətlə, Aldı-bel mədəniyyəti Mərkəzi Asiyanın erkən iskit abidələrinin özünəməxsus və parlaq qrupunu təşkil edir. Aldı-bel mədəniyyətinin ilkin kompleksi Xemçik və Yenisey çaylarının töküldüyü yerdə, III Xemçik - Bom qəbristanlığında qazılmışdır. Aldı-bel kurqanları, adətən planda dairəvi olur, ölülər tək, dördkünc formalı daş qutuda və bəzən də ağac çapma qəbirlərdə dəfn edilirdi. Mərkəzdə ən iri daş qutu, onun ətrafında isə aşağı kateqoriyalı şəxslərin qəbirləri yerləşirdi (59, 247). Ölü sol böyrü üstə, bükülü vəziyyətdə, başı qərb, şimal-qərb və bəzən şimal

istiqamətdə dəfn edilirdi. Aldı-bel mədəniyyətinin xarakterik cəhəti qəbirə at əsləhəsinin qoyulması olsa da, heç bir qəbirdə at dəfni qeydə alınmamışdır. Qəbir avadanlıqları içərisində böyrəkvari başlıqlı xəncərlər, yüyənlər, məhəng daşı, firuzə və hind serdolik daşlı bəzəklər, ilanvari başılıqlı dörd üzlü biz, habelə heyvani üslubda işləməli digər maddi-mədəniyyət nümunələri seçilirdi. Qeyd edək ki, erkən iskit və bütövlükdə iskit dövründə 3 tip yüyən yayılmışdı: iki halqalı, bir halqalı və üzəngivari qurtaracaqlı(57, 26). Maraqlı burasıdır ki, məhz sonuncu növ Mərkəzi Asiyada arxeoloji qazıntılar nəticəsində elə bir dövr və kəmiyyətdə qeydə alınmışdır ki, onun mənşəyinin Avrasiyanın böyük çöllərinin şərq vilayətinə aid olması şübhə doğurmur. Aldı-bel mədəniyyətinə aid kurqanlar Zubovka, Poş-Daq, Kuyluqt-Xem I, I Aldı-Bel, III, V Xemçik-Bom, I, II, III Orta Xem, I və II Çingə, I, II Temir-Suq, I Ust-Xadınnıq adlı yerlərdə aşkar edilmişdir (57, 25). Aldı-bel mədəniyyətinin çar kurqanı Arjan hesab olunur. 29 arxeoloji abidədən ibarət olan Arjan, M.P.Qraznovun fikrincə müstəqil mədəni dövr olub, Tuvanın erkən köçərilərinə xas olan mədəniyyətlərin heç birinə aid deyildir və tipoloji cəhətdən aldı-bel və ya Uyuk mədəniyyətinin birinci dövründən, eyni zamanda bu mədəniyyətlərə sinxron Mayəmir (Altay) və Tasmolin (Qazaxıstan) mədəniyyətlərindən əvvəl gəlmişdir. Tədqiqatçı bu ideyasını tapıntılara istinadən əsaslandırmağa çalışaraq, sadalanan mədəniyyətlərin e.ə. VII-VI, Arjan dövrünün e.ə. VIII-VII əsrlərə aid olduğunu bildirmişdir (60, 54). Məzmun etibarilə Arjan mürəkkəb, çoxtərəfli abidə kimi, çar, çariça, 15 əyan, 7 minik atlarının (asılı tayfaların hədiyyəsi) və qonşu, xaricdən göndərilmiş 6 atın dəfn olunduğu qəbirdən ibarət qapalı arxeoloji kompleksdir. M.P.Qryaznovun Arjan mədəniyyəti adlandırdığı kompleks Tuva və Turan-Uyuk çökəkliyi ərazilərində mövcud olmuşdur və o vahid bir ictimai kollektivin yox, böyük etnomədəni birliyi



olan müxtəlif tayfaların abidəsidir (60, 52). A.D.Qraçın fikrincə Arjan müstəqil mədəniyyət olmayıb, Aldı-bel mədəniyyətinin kurqanıdır və e.ə. VIII-VII əsrlərə aiddir (59, 247). Qeyd edək ki, istər nisbi, istərsə də mütləq xronoloji araşdırmalar Arjanı erkən iskit dövrü abidəsi hesab etməyə imkan verir. Belə ki, Arjanın dəqiq, qəti tarixinin müəyyənləşdirilməsi (e.ə. VIII-VII əsrlər) Avrasiyanın geniş çöllərinin erkən iskit dövrü abidələrinin zəncirvari əlaqəsi nəticəsində mümkün olmuşdur. Maraqlı burasıdır ki, Asiya çöllərindən çox, Qara dəniz sahili çöllərdə Arjan tapıntılarının analogiyasını görmək olar. Minusinsk çökəkliyində belə avadanlıqlar e.ə. VI-V əsr abidələrində rast gəlinirsə, tunc təbərzin, novşəkilli asma lövhəciklər və s. Qara dəniz sahili çöllərində e.ə.VIII-VII əsrlərə aid abidələrdə qeydə alınmışdır (213, 248). Arjan tipli ox ucluqları Zaporojyenin Vısokaya Moqila kurqanından və e.ə. VIII-VII əsrin digər abidələrindən tapılan ucluqlarla analogiya təşkil edir və ya əyri, üçgözlü, göbələkvari papaqlı, konusvari iti uclu at əsləhləri Şimali Qara dəniz sahilinin e.ə.VIII-VII əsr abidələrində də vardır (60, 55). Tədqiqatçılar, təbii ki, tapıntıların müqayisəli analizi ilə kifayətlənməmiş, dendroxronoloji və radiokarbon metodlara da müraciət etmişlər. Lakin hətta, bu da Arjanın xronoloji yaşını azaltmamış, hətta bir-iki əsr də artırmışdır. Güman edilir ki, Arjanın tikintisində istifadə olunmuş ağaclar Tuekta kurqanının ağaclarından 136 il yaşlıdır. Dendroxronoloji araşdırmalar nəticəsində alınmış Tuektanın tarixinə (2450 ± 120) 136 il əlavə etsək, onda 2590 ± 120, başqa sözlə e.ə.760 ± 520-ci il alınar (213, 248). Altay kurqanlarının tarixi SSRİ EA-nın Arxeologiya İnstitutunun laboratoriyasında radiokarbon üsulla da müəyyən olunmuşdur (Yaddan çıxarmayaq ki, radiokarbon tarix, adətən birdəfəlik standart 2 çatışmazlıqla seçilir). Bu tarixin dəqiqliyi cəmi 68%-dir. Əgər standart əskikliyi 2 dəfə artırsaq (95% dəqiqlik almaq

üçün), onda Tuekta kurqanının tarixi e.ə.740-260-cı illər, Pazırık e.ə.690-490 illər arası olacaq. Tuekta Pazırıkdan 178 il, Arjan isə Tuektadan 136 il böyükdürsə, o zaman Arjan e.ə.990-790-cı illəri əhatə etməlidir (213,248-249). Y.A.Şe-rin ardınca, Arxeologiya İnstitutunun Leninqrad (Sankt-Peterburq) şöbəsinin laboratoriyasında N.Markov tərəfindən radiokarbon metodu vasitəsilə, Arjandan götürülmüş 3 nümunə əsasında analiz aparılmışdır. O, digər tədqiqatçıların dendroxronoloji tədqiqatlarının nəticələrini qəbul etməyərək, illik halqaların sayılmasında səhvlərin olduğunu bildirmiş və yeni rəqəmlər təqdim etmişdi: e.ə.800±50 (2750±50); e.ə..850±50 (280±50); e.ə.820±50 (2770±50 il əvvəl) (60, 54). Beləliklə, kurqan e.ə.800-cü ilə və ya e.ə.IX əsrin sonu - e.ə.VIII əsrin başlanğıcına aid edilmişdir. Əgər Şimali Qara dəniz sahili çöllərində erkən iskit dövrü e.ə. VIII-VII əsrləri əhatə edirdisə, Asiya çöllərində – Arjan kurqanı misalında bütün «iskit üçlüyü» artıq bu dövrdə formalaşmış vəziyyətdə idi. Beləliklə, Aldı-bel mədəniyyətinin açılması Mərkəzi Asiyanı iskit mədəniyyətinin vacib elementlərinin formalaşdığı region kimi qəbul olunmasına imkan yaratdı.

E.ə. V-III əsrlərdə Tuvanın bütün dağlıq-çöl rayonlarında Aldı-bel mədəniyyətindən fərqlənən Saqlın mədəniyyəti mövcud olmuşdur. Bu mədəniyyətin Saqlı vadisində yerləşmiş II, IV, VI Saqlı-Bajı, Ducerlik-Xovuzu I, Daqan Teli, Ulanqomsk qəbir abidələri qeydə alınmışdır. XX əsrin 60-cı illərində Qızıl Tey qəsəbəsi yaxınlığında tədqiq olunmuş Saqlı-Bajı nekropolunda kurqan və taxta qutu qəbirlər açılarkən heyvani üslubda işlənmiş tətbiqi incəsənət nümunələri daha çox diqqəti cəlb etmişdir (59, 248). Qəbirlərdə ölünün kollektiv, sol böyrü üstə, başın şimal-qərb və qərb istiqamətdə dəfni qeydə alınmışdı. Saqlın mədəniyyətini iki mərhələyə ayırırlar: Saqlın (e.ə. V-IV) və Ozen ala-beliq (e.ə. IV-III) (57, 32-35). Tapıntılar içərisində iskit dəmir akinakları, tunc



təbərzinlər, iskit tipli, ətirli maddələr yandırmaq üçün tunc qazan, güzgü, ox ucluğu, at əsləhəsi, bıçaq, sümük həmayil, düymə və s. xüsusi yer tuturdu.

Avroasiya çöllərində iskit dövrünün sinxron çöl mədəniyyətlərinin öyrənilməsində Tuvanın Uyuk (e.ə.VII-III) mədəniyyətinin abidələrinin tədqiqi mühüm yer tutur. Tuvanın iskit dövrü kurqanlarının ilkin elmi araşdırılması 1915-1916-cı illərdə məşhur Sibir arxeoloqu A.V.Adrianova aiddir. Əslində bu dövr abidələrinin mövcudluğu S.A.Teplouxov, Q.P.Sosnovski kimi alimlərin əlyazma halında olan materiallarında dəfələrlə təsdiq olunmuşdu (118,6). İlkin qazıntıların aparıldığı Piy-Xemsk rayonundakı Uyuk çayının adını bütövlükdə mədəniyyətə verən L.R.Kızlasov, Uyuk mədəniyyətini 2 ardıcıl xronoloji mərhələyə ayırmışdır: erkən e.ə. VII-VI əsrlər və son e.ə. V-III əsrlər (111). Qızılqan dağı ətəklərində xüsusi arxeoloji mədəniyyətin olduğunu bildirən S.İ.Vaynşteyn, onu 4 dövrə bölmüş, lakin nədənsə yalnız üçünə ad vermişdir: 1) e.ə. VII-VI; 2) e.ə. VI-V Kokəl dövrü; 3) e.ə. V-VI Qızılqan; 4) e.ə. IV-III Ozen ala-beliq (118,77). M.X.Mannay-Ool özündən əvvəlki xronoloji sərhəddin yuxarı və aşağı hədlərinə toxunmasa da, Uyuk mədəniyyəti daxilində 3 mərhələli dövrləşmə müəyyənləşdirmişdir: E.ə. VII-VI, e.ə. V-VI, e.ə. IV-III əsrlər (118, 78). Mannay-Oolun təsnifatının əsasında qəbir avadanlıq kompleksi, sinxron mədəniyyətlərin mühüm tapıntıları ilə müqayisəli analiz durduğundan, biz də onun bölgüsü ilə razılaşırıq. Qeyd edək ki, Uyuk mədəniyyəti təkcə qəbir abidələri ilə deyil, ritual abidələrlə, maral daşları və petroqliflərlə, mədən və metaləritmə sahələri ilə təmsil olunmaqla yanaşı, tapıntılarında iskit mədəniyyətini, iskit incəsənətini qabarıq nəzərə çapdıran elementləri ilə də seçilirdi. İskit dövrü Avrasiya çöllərində olduğu kimi, burada da heyvanlar aləmi iki qrupda təmsil olunurdu: I – real heyvanların; II – fantastik hey-

vanların təsviri. Uyuk mədəniyyətinin I dövrü Tuva əhalisinin dəmirlə tanışlıq mərhələsidir. Bu dövrdə qəbir abidələrinin torpaq kurqanı, sistli daş kurqan, halqa və sistli daş kurqan, dördkünc hasarlı daş kurqanları, çatma kurqanlar, quyu dəfnli daş kurqan kimi növü yayılmışdı. Bu dövr tapıntıları Mərkəzi Qazaxıstan və Minusinsk çökəkliyinin iskit dövrü tapıntıları ilə oxşardır (118, 79). E.ə. V-IV əsrlərə aid kurqanlar daha çox tədqiqata cəlb olunduğundan, bu mərhələni həm də Uyuk tayfalarının çiçəklənməsi kimi qiymətləndirmək olar. Bu dövrdə yeni qəbir tikililəri, keramika, silahlar, əmək alətləri, at əsləhəsi, güzgü və bəzəklər formalaşır, kollektiv dəfn yaranırdı. III mərhələyə aid materiallar az öyrənilmişdir. Əgər əvvəlki dövrə aid 90 kurqan açılsa da, son mərhələ 22 daş qutu dəfni ilə xarakterizə olunur. Bu, Uyuk tayfalarının yarımköçərilikdən tam köçəri maldarlığa keçidilə izah edilir. Qəbirüstü tikililər üçün hazır daş lövhələrdən istifadə olunsa da, çatma-kəsmə dəfni hələ də qalmaqda idi (118, 87). İskit mədəniyyətinin yayılmasını «marr avtoxtonluğu» ruhunda qəbul edən M.İ.Artomonov, Şimali Qara dəniz sahilində, Altayda və başqa yerlərdə iskit tipli mədəniyyətlərin müstəqil yarandığını, onların sadəcə oxşar tarixi şəraitin inkişafının nəticəsi olduğunu bildirmişdir (29, 40). Təbii ki, bütün bu sadalananlar Sibirin iskit dünyasına aid olmasını bir daha təsdiqləyir.

Məlumdur ki, Altay ərazisində də iskit dövrünə xas mədəniyyət abidələri qeydə alınmışdır. Altayın görkəmli tədqiqatçılarından olan S.İ.Rudenko öz tədqiqatlarında bildirmişdir ki, «Altay mədəniyyətinin daşıyıcıları iskitlərdir» (166, 3). Altayın iskit dövrü Mayəmir-Pazırık mədəniyyəti ilə xarakterizə olunur. S.İ.Rudenko Altayın iskit dövrünün e.ə. VII-V əsrləri əhatə etdiyini, M.P.Qryaznov bu dövrdə 3 mərhələ olduğunu: Mayəmir (e.ə.VII-VI), Pazırık (e.ə.V-III) və Şibin (e.ə.II-I) bildirmişdir (168, 162). Son dövr tədqiqatçıları



Dağlıq Altayın iskit dövrünün xronologiyasını e.ə. I min. hüdudunda: e.ə. IX əsrin sonu–VIII əsrin əvvələrindən e.ə. III-II əsrlərə qədər müəyyənləşdirmişlər (222). A.V.Adrianov və S.V.Kiselyov tərəfindən qazılmış kurqanlar əsas götürülərək, onlar tərəfindən 2 mərhələ təqdim olunmuşdur: erkən (e.ə.VII-VI) və son (e.ə.V-IV). E.ə. III-I əsrləri əhatə edən dövr isə «Pazırık» dövrü adlandırılmışdı (90).

XX əsrin 80-ci illərinin birinci yarısında A.S.Surazkov Dağlıq Altayda erkən dəmir dövrünün Qara-kobin adlı yeni mədəniyyətini ayırmışdı. Avadanlıqların sistemləşdirilməsi nəticəsində o, bu mədəniyyəti e.ə. VI-II əsrlər daxilinə yerləşdirərək üç mərhələ üzrə inkişafı izləmişdir: e.ə. VI-V əsrlər, e.ə. V-IV əsrlər və e.ə. III-II əsrlər (222). Bundan əlavə, tədqiqatçı bu dövr Tuva, Şimal- Qərbi Monqolustan, Dağlıq Altay və Şərqi Qazaxıstan abidələrinin vahid Sayan-Dağlıq Altay mədəni-tarixi birliyi çərçivəsində öyrənilməsini təklif etmişdi (222). Lakin Qara-kobin mədəniyyətini ayrıca bir mədəniyyət kimi qəbul etməyən əksər tədqiqatçılar, onu Pazırık mədəniyyəti içərisində bir tip hesab etməyi düzgün saymışdılar. L.A.Yevtyuxova, L.R.Kızlasov, K.F.Smirnov Pazırık kurqanlarını hun-sarmat dövrünə aid edirlər (168, 163).

Bütövlükdə Pazırık kurqanlarının hun-sarmat dövrünə aid olunmasına etirazını bildirən S.İ.Rudenko, iskit dövrünün e.ə. VII-IV, hun-sarmat dövrünün e.ə. III-I əsrləri əhatə etdiyini təsdiqləmək üçün Dağlıq Altay kurqanlarının avadanlıqları Şimali Qaradəniz sahilinin çöl iskitlərinə məxsus tapıntılarla müqayisə etmişdir (168). Belə ki, Dağlıq Altayın silah tapıntılarının sarmatlara deyil, iskitlərə məxsus olduğunu Pazırık kurqanının xalçası üzərindəki təsvirlə göstərmək olar (Burada kiçik iskit qılıncı, gödək, əyri ox-yay kompleksini görmək mümkündür). Soloxa kurqanının qızıl darağı üzərindəki təsvirdə gördüyümüz qalxan Dağlıq Altay kurqanlarının

qalxanları ilə oxşardır (168, 171). Biz, S.İ.Rudenkonun analoji sadalamasını təkrar etməyərək, Mayəmir-Pazırık mədəniyyətinə aid kurqanlar qrupuna nəzər salaq: Qeyd edək ki, monoqrafiyada qəbir abidələri ayrıca fəsildə verildiyindən, onların quruluşu, ölçüləri və ya tapıntılarına müraciət etmədən, bu kurqanların arxeoloji yaşına diqqət edək. II Başadar və I Tuekta kurqanlarının radiokarbon üsulla alınan yaşı 2480, Böyük Katandin kurqanının 2420, II Pazırık kurqanının 2350±130 il olmuşdur. Onların bu yaşını iskit dövrü aralığını (e.ə. 520-340) təsdiq edir. Dağlıq Altayın ən qədim kurqanı Mayəmir çölündə və Soloneçnı belok ətrafında olan kurqanlardır ki, onlar e.ə. VII əsrə aiddir. II Başadar və Tuekta kurqanları e.ə. VI əsrə, I və II, IV və III Pazırık kurqanları e.ə. V əsrə, V Pazırık kurqanı e.ə. V-IV əsrlərə, I Başadar e.ə. IV-III əsrlərə aiddir (168, 335-336). 1985-ci ildə L.S.Marsadalov arxeoloji tapıntılar, dendroxronoloji və radiokarbon analizlər əsasında Dağlıq Altay abidələrini iki mədəni-xronoloji mərhələdə qruplaşdırmağı təklif etmişdir: Mayəmir (e.ə. VIII-VII əsrlər) və Pazırık (e.ə. VI-IV əsrlər) mədəniyyətləri (222).

Pazırık mədəniyyətinin izləri Çinin şimal hissəsində də qeydə alınmışdır. Belə ki, Şimali Tsinszyanın Keermutsi qəbristanlığının kurqanlarından birinin diametri 9 m, hündürlüyü 0,9 m, yaxınlığındakı daş - balbal 1,6 m hündürlüyündədir. Qəbir quyusu planda düz bucaqlı, kənarları dairəvi olub, ölçüləri 2,9 X 1,9 m. və dərinliyi 1,4 m-dir. Şimal divarında at sketi ilə yanaşı iki nəfər böyrü üstə, ayaqları bükülmüş, başları şərqə, üzləri şimala doğru vəziyyətdə dəfn olunmuşdu. Qəbir avadanlıqları içərisində iskit tipli tunc güzgülər, iki saxsı qab, iki kiçik dəmir bıçaq, tunc mismar və bir neçə qızıl yarpaqlar xüsusilə seçilir. Sadalanan əlamətlərin hamısı buranın Pazırık mədəniyyəti ilə uyğunluğunu göstərir (221). Qeyd edək ki, Keermutsi kompleksi də e.ə. VII-V əsrlərə aid edilir. XX əsrin daha bir tədqiqatçısı N.A.Bokovenko Sayan-Altay köçərilərinin mədəniyyətlərinin e.ə. VIII-VII və ya e.ə. IX-VII əsrlərdən başlayaraq öyrənilməsini düzgün saymış, tapılmış at əsləhələrini iskit formasının məhz e.ə. IX əsrdən əks etdirdiyini əsaslandırmağa çalışmışdır (80). Ümumiyyətlə, e.ə. IX əsr tarixi XX əsrin 60-70-ci illərindən etibarən II Kurtu qəbristanlığının materiallarının aşkar edilməsindən sonra yayılmışdır (222). Sibirin iskit dövrünün sinxron mədəniyyətlərinin kurqanlarının ayrı-ayrılıqda tarixini verməklə, onların e.ə. VIII-III əsrlər arasında mövcudluğunu bir daha göz önünə gətirmirik. Sadəcə olaraq, Asiya çöllərində də Avrasiyanın qərb çöllərində olduğu kimi, müvafiq əsrlər ərzində iskit tipli mədəniyyətin ardıcıl inkişaf tarixini göstərməyə çalışırıq.

Öz tədqiqatlarında iskit dövrünün ayrı-ayrı bölgələrdə sinxron mədəniyyətləri sadalayan M.X.Mannay-Ool, Şimali Qara dəniz sahili iskitlərinin müasiri olan Taqarlıların Minusinsk çökəkliyində, sakların Orta Asiya və Qazaxıstanda, Mayəmir-Pazırıklıların Altayda, plitə qəbir mədəniyyəti daşıyıcılarının Baykalarxası və Monqolustanda mövcud olduqlarını yazmışdı (118,3). Mərkəzi, Cənubi, Şərqi Monqolustanda və Baykalarxasında erkən dəmir dövründə plitə qəbir mədəniyyəti geniş yayılmışdı. Əsasən, qəbirlər, maral daşları və petroqliflərdən ibarət abidələr hələ XVIII əsrdə D.Messerşmidt və Q.Millerin ekspedisiyaları zamanı Uda və Onon çayları hövzəsində aşkar olunmuşdu. A.D.Qraç Q.P.Sosnovskinin plitə qəbirləri 3 tipə ayırması ilə razılaşaraq, onları künclərdə iri daşları olan dördkünc hasarlı; yastı daşlardan ibarət yerüstü tikili ilə əhatələnmiş alçaq dördkünc hasarlı; çox da hündür olmayan lövhələrlə çərçivəyə alınmış və çökük tərəfləri olan yastılanmış daşlardan ibarət tikililər eimi təqdim etmişdir (59, 246).

Baykalarxasının döşəmə - plitə qəbirləri öz ölçü və xarici görünüşünə görə fərqlənirlər. Belə ki, burada 1,5x1,5m və ya 7x4 m ölçülərdə qəbirlərə rast gəlmək mümkündür, onlar şərqdən qərbə yönəlmiş vəziyyətdə yerləşdirilirdi. Ölü kürəyi üstə düz, çox az hallarda bükülmüş vəziyyətdə dəfn olunurdu. Mədəniyyət tunc məmulatların və heyvandarlığın geniş yayılması ilə seçilirdi. Onon çayı yaxınlığında Budulan kəndində, Ust-İlaya kəndində, Xara-Busun ulusu və Beklemişovo kəndi yaxınlığında və s. ərazilərdə tunc bıçaqlar, xəncərlər, baltalar, iynələr, bizlər, qadın saç sancaqları və s. tapılmışdı. Günəş kultu ilə əlaqədar tunc güzgülər, hündür konusvari altlıqlı qazan, habelə silahlardakı, at əsləhəsindəki və bəzəklərdəki oxşarlıq bu mədəniyyətin iskit tipli olduğuna bir işarədir. Tətbiqi incəsənətdə iskit mədəniyyətinin simvolu olan «heyvani üslub» Baykalarxasının xəncər başlıqlarında, maral daşları üzərindəki təsvirlərdə təqdim olunmuşdur. İvolqin maral daşı üzərində budaqlı, şaxəli buynuzları geriyə-kürəyi uzunu atılmış, qaçış vəziyyətində olan marallar Şimali Qara dəniz və Orta Asiyanın iskit ustalarının üslubunu xatırladır (84, 212-218).

Göründüyü kimi, Şimali Qara dəniz sahili çöllərinin iskitləri ilə həmdövr tayfaların şərq mədəniyyətlərinə qısa ekskurs edərək, onların ümumi mənzərəsini yaratmağa çalışdıq. Avrasiyanın şərqdən qərbə uzanan böyük çöllərinin sakinlərinin yaratdığı abidələr, qoyduqları iz bir-biri ilə uzlaşaraq zəncirvari böyük və zəngin irsin mövcud olduğunu göstərir. Əslində bu irsin konkret yaradıcısını axtarmağa ehtiyac olmamalıdır, çünki bir-iki əsr fərqi ilə də olsa, iskit mədəniyyəti elə bir səviyyədə dünya tarixinə çıxmışdı ki, hətta bu mədəniyyəti sonradan qazananlar belə, onun təsirindən ilhamlanıb ən möhtəşəm abidələr, əsərlər yarada bilmişdilər.



## 2.2. Azərbaycanda iskit mədəniyyətinin izləri

İskit mədəniyyəti öz dövrü üçün kifayət qədər təkmil və aparıcı olduğundan, demək olar ki, bütün Avrasiya çölləri boyunca müəyyən iz buraxmışdır. İskitlərin Azərbaycanla əlaqəsi şübhəsiz olduğundan, onların bu və ya digər maddi-mədəniyyət qalıqlarının ölkəmizin ərazisində qeydə alınması təəccüb doğurmur. Arxeoloji qazıntılar nəticəsində son dövrlərədək iskit üçlüyünə xas nümunələr üzə çıxarılmışdır. Qeyd edək ki, elmi dövriyyədə Şimali Azərbaycanda iskit mədəniyyəti haqqında danışılarkən, ilkin olaraq, Mingəcevir tapıntıları əsas gətirilmişdir. Bundan əlavə, Abşeron yarımadası, Şəmkir, Gədəbəy, Beyləqan, Qazax rayonları ərazisindən qeydə alınmış müxtəlif saylı avadanlıqlar bu qəbildən hesab olunmuşdur. Arxeoloji qazıntılar nəticəsində Ağsu rayonunun Gəgəli kəndində aparılmış qazıntılar nəticəsində də iskit izlərini əks etdirən nümunələr olduğu bildirilmişdir. Görkəmli arxeoloq İ.Nərimanov iskitlərin Xəzər dənizindən Naxcıvana qədərki geniş ərazidə yayıldıqlarını təsdiq edir (138,69). Qeyd edək ki, onlarla bağlı mədəniyyət izləri konkret abidələrdə toplu halında və tək-tək nəzərə çarpır. Mingəcevir kurqanları, Kiçik Kurqan, Şəmkir nekropolu kimi qəbir abidələrindən başqa, bu xalqın sırf məişət-təsərrüfatını xarakterizə edə biləcək konkret bir abidəsi respublikamızın ərazisində hələ ki, qeydə alınmamışdır. Lakin iskit yaşayış tərzini əks etdirən silahlar, bəzəklər, heyvani üslublu təsvirlərin mövcudluğu davam etməkdə olan arxeoloji qazıntılar nəticəsində belə bir abidənin də qeydə alınacağı şübhə doğurmur.

Qafqazda və Yaxın Şərqdə iskitlərin meydana çıxması ilə yayılmış ox ucluqlarını əsas götürərək, İ.Nərimanov Azərbaycanda iskitlərlə bağlı abidələrin qruplaşmasını təqdim etmişdir. Onun fikrincə, Abşeron, Muğan, Talış dağları ərazi-

sində belə ucluqların tapıldığı abidələr iskitlərin yerli əhali ilə toqquşmasını, Mil düzündəki Kiçik Kurqan, Şəmkir nekropolu, Gədəbəyin 48 №-li qəbrindən əldə olunanlar qarşılıqlı əlaqələri, Mingəçevir kompleksi isə onların Azərbaycanda yaşamasını göstərir. Eyni zamanda, tədqiqatçı ox ucluqlarının tapıldığı abidələrin e.ə. VII-VI əsrlərə aid edilməsini mümkün hesab edir (138,69). Əslində Azərbaycan ərazisində doğurdan da, ən çoxsaylı iskit tipli tapıntı elə ox ucluqlarıdır. Bunula yanaşı tədqiqatçılar mahiyyətcə bir-birini tamamlayan müxtəlif sadə qruplaşmalar da təqdim etmişlər. C.Xəlilov Azərbaycan ərazisindən aşkar edilmiş iskit tipli tapıntıları belə qruplaşdırmşdır: 1. Təqribən e.ə. V-IV əsrlərə aid olan, Kül-oba kurqanından, Amu-dərya dəfinəsindən, Voronejdən tapılmış təsvirlərlə oxşarlıq təşkil edən, Gəncə ətrafından tapılan qırmızı gil antropomorf heykəlcik. 2. 1896-cı ildə Gədəbəy və Qalakənd qazıntılarında daş qutu qəbirdən tapılan iskit tipli 8 ədəd ox ucluğu. 3. 1941-ci ildə İ.Cəfərzadənin Abşeronun daş qutu qəbirlərindən qeydə aldığı iskit tipli ox ucluğu. 4. 1957-ci ildə Qazax rayon Sarıtəpə yaşayış yerindən torpaq qəbirdən tapılan tunc ox uculuğu və əyri, oraqvari bıçaq. 5. Minəçevirin çoxsaylı tapıntıları (196, 185).

M. N.Poqrebova Azərbaycan ərazisində aşağıdakı iskit tipli tapıntıların rast gəlindiyi bölgələrin adını çəkir: Beyləqanda (ox), Abşeron yarımadasında (ox), Mingəçevir, Gədəbəy, Qalakənd və s.(153, 35 xəritə 1).

E.ə. V əsrin I yarısının bizans müəlliflərindən olan Paniyli Pirskin məlumatlarına əsaslanan S.Aşurbəyli, Meotida (Azov) dənizi, Qafqaz dağları vasitəsilə iskitlərin Midiyaya gəlmələrini, onların Bakı ətrafında olmalarını təsdiq edir (34,32). O, bu fikrini arxeoloji qazıntı materalları ilə əsaslandırmaq üçün bir neçə misal gətirmişdir:

1. 1941-ci ilin avqustunda Pir-Allahı adasını Abşeron yarımadası ilə birləşdirən torpaqda -Abşeron mayakı yaxınlığında qəbirlər aşkar olunarkən burada boz, qırmızı gil qablar, muncuqlar, dağ keçisinin kontur təsviri olan daş plitə, «iskit» tipli tunc ox ucluqlu və s. qeydə alınmışdır. Onlar e.ə.VII-VI əsrlərə aid edilir.

2. Əmircanda tapılmış «iskiti» xatırladan kişi heykəli. Anoloji heykəl Gəncə şəhəri yaxınlığında tapılmışdır. Bu təsvir Kül-oba, bürünc Voronej qabları üzərində, Amu-Dərya dəfinəsindəki qızıl lövhə üzərindəki təsvirlə çox oxşardır. Bu tapıntı e.ə. V-IV əsrlərə aid edilir (34, 27).

Şimali Qafqazda Çervlen stansiyasının ətrafında təsadüfi torpaq işləri zamanı gil fiqurlar tapılmışdır. Başında şişuclu dəbilqəsi olan kişinin üzü saqqallı, uzun burunlu və iri dodaqlıdır. Ümumi geyim elementlərinə görə onu iskit adlandırmaq olar. Üslubi cəhətinə görə Azərbaycandan tapılmış heykəl kimi o da Kül-Oba təsvirinə oxşardır. Hətta kurqandan e.ə. VI-V əsrlərə aid tunc ox ucluğunun tapılması da bu fikri təsdiqləməyə imkan verir (46,298). 1962-ci ildə kənd müəllimi P.A.Popov Yalxoy-Moxk kəndində aşkar etdiyi daş qutu qəbirdə e.ə. VI-IV əsrlərə aid at əsləhəsi və ox ucluğu ilə yanaşı daşdan insan fiquru da olmuşdur. Oxşar tapıntılar Beti-Moxk, Zamni-Yurt, Mesketi, Qanaytı kəndlərindən əldə edilmişdir (138, 299). Ölkəmizin ərazisində XX əsrin 90-cı illərində aparılan arxeoloji qazıntılar zamanı heykəl və ya daş bütlər əldə edilmişdir. Ağsunun Gəgəli kəndində Nərgizava adlı antik və ilk orta əsr dövrünə aid qədim yaşayış yerinə məxsus nekropolun bir hissəsi üzə çıxarılmışdır. 4 ha sahəsi olan nekropolun sadə torpaq, daş qutu, küp və təknə tipli qəbir abidələrində daş büt, keramika və müxtəlif metal məmulatlar əldə edilmişdir. Gəgəlidən tapılan daş büt boz rəngli əhəngdaşı süxurundan hazırlanmış, baş hissəsi qırılmış, sağ əli ürəyi, sol əli kəmər yerindədir. Azərbaycanın Xınıslı, Çıraqlı, Mollaisaqlı və başqa yaşayış yerindən, ibadət-

gah və qəbristanlıqlarından tapılan belə heykəlciklərin yayılma arealı iskit dövründən başlayaraq Şərqi Avropanın çöl hissəsi və Cənubi Qafqazı da əhatə etmişdir (2, 24,26).

Azərbaycan Abşeron, Şirvan, Mil-Qarabağ, Muğan, Şərur və digər düzləri, geniş qış otlaqları, su ehtiyatları və isti iqlimi ilə qədim köçəri tayfaların, o cümlədən iskitlərin buraya gəlməsi üçün əlverişli mühit idi. Bu fikri arxeoloji qazıntılar da təsdiq edir. 1959-1960-cı illərdə Mil düzündə 0,5m hündürlüyündə, 15m diametrli, qəbir quyusunun dərinliyi 3m-dən artıq olan Kiçik kurqan açılmışdır. Qəbirdə bükülü vəziyyətdə, başı qərbə yönəlmiş kişi skeleti ilə yanaşı yerli istehsala aid qara rəngli qab, atın kəllə skleti, daş və sümük muncuqlar qeydə alınmışdı. At əsləhəsi içərisində jabotin tipli tunc yəhər, 5 ədəd tunc lövhəcik, üzərində heyvan fiquru çəkilmiş koban tipli at alınlığının aşağı hissəsinin bir parçası da vardı. Tədqiqatçılar bu tapıntını e.ə.VII əsrin II yarısına aid edirlər (76, 25-26).

1978-ci ilin noyabrından 1983-cü ilin iyulunadək, 5 ha sahəni əhatə edən Şəmkir nekropolunda aparılan arxeoloji qazıntılar nəticəsində 44 torpaq qəbir açılmışdır. 13 və 25 saylı qəbirlərdə insanın atla bərabər dəfni, at əsləhə və bəzəkləri xüsusilə diqqəti cəlb edir. Eyni zamanda buradan iskit tipli ox ucluqları və sırğalar tapılmışdır. E.ə. VII-IV əsrlərə aid edilən abidədəki dəfn mərasimi Q.Aslanov tərəfindən iskit tayfalarında müşahidə olunduğu bildirilmişdir (27.4.8). İskitlərin Azərbaycanda olduğunu təsdiq edən Q.İsmayılzadə belə hesab edir ki, iskitlərin atlı ordası adətən, qışı Azərbaycanın çöl vilayətlərində, yay mövsümünü cənubda, əsas etibarilə Aladağ və Qaradağda-Urmiyaətrafı rayonlarda keçirirdilər (81, 66-67; 82, 98, 99). Odur ki, Kiçik kurqana yaxın dövrə və mədəni mənsubiyyətə malik qəbir kompleksləri Azərbaycanın digər rayonlarında da: Yuxarı Talış və Qarabağ, Muğan və Şirvan düzlərində, Mingəçevirdə və başqa ərazilərdə qeydə alınmışdır (82, 99).

Mingəçevir ərazisində iskit dövrünə bir neçə kurqan aid edilir. Buradakı qəbirlərdə bükülü vəziyyətdə, insan və heyvan sümükləri ilə yanaşı çoxsaylı avadanlıqlı dəfnlər müşahidə olunmuşdur(186, 71). Ümumilikdə qəbirlərdə 30-a qədər at və əsləhələr qeydə alınmışdır ki, analoji müqayisələr nəticəsində onlar e.ə.VII əsrə aid edilmişdir. Bütövlükdə Mingəçevir kurqanları e.ə.XI-IX,e.ə.IX-VIII, e.ə.VII-VI əsrləri əhatə edir (153, 44-45). Burada ölülər kürəyi üstə, düz uzadılmış vəziyyətdə, başları şimal-qərb istiqamətdə dəfn olunmuşdur. Kurqanlardan 40-a qədər iskit tipli ox ucluğu tapılmışdı: 3 pərli tıxaclı, 2 pərli və s. Metalloqrafik tədqiqatlar tunc ucluqların tökmə və ya döymə üsulu ilə hazırlandığını göstərir. Mingəçevirin iskit mənşəli tunc güzgüləri qulplu – heyvan başlıqlı olurdu (3, 186). Qəbirlərdə məişət əşyaları və əmək alətləri yoxdur, silah və bəzəklər isə çoxsaylıdır. Antropoloq R.M Qasımova 21 kəllə (15 kişi və 6 qadın) sümüyünü öyrənərək, Mingəçevir, aşağı Dnepryanı və Şərqi Pamirin iskit kəllə sümüklərinin müqayisəli analizindən belə bir nəticəyə gəlmişdir ki, onlar arasında ciddi fərqlər mövcud olduğundan bu kəllələr Ön Asiya mənşəli kəllələrlə yaxınlıq təşkil edirlər (196, 187).

S.M. Qazıyev Mingəçevirin e.ə. VII-V əsrlərə aid qəbirlərində ox ucluğu, zoomorf qablar – qoyun formalı 2 qulplu, boz rəngli, qulpu və qapağı quş başı formasında düzəldilən qablar olduğunu bildirmişdir (85, 27, şək.18, şək.35, şək.28,şək.42, şək.38). Adları sadalanan məşhur tapıntıların bəzilərinin təsvirlərini monoqrafiyaya əlavə etmişik (şək. 2.1.). Həm qəbir abidələrində, həm də yaşayış yerlərində maral, at, keçi və müxtəlif quşların taxtadan, metaldan hazırlanmış fiqurlarına rast gəlinmişdir. İskit incəsənətinin ən yaxşı ənənələrinə görə hazırlanmış, ölənin sakral baş örtüyünü əvəz edən heyvan fiqurlu kişi baş örtüklərindən əlavə, qadın

qəbirlərindən zoomorf başlıqlı sancaqlar da tapılmışdır ki, bunlar baş örtüyünü saça bərkitmək, bəzək kimi üst paltara sancmaq üçün istifadə olunmuşdur (99,84). Mənşəyinə görə bu tip sancaqlar çox qədimdir, onların meydana çıxması tunc dövrü abidələri üçün xarakterikdir. Altay, Sibir, Orta Asiya və Azərbaycanın qeyd olunan dövrə aid qəbir abidələrinin qazıntılarında heyvan fiqurlu başlı sancaqlar aşkar olunmuşdur. Öz ölçü və hazırlanma üsuluna görə sancaqlar arasında maraqdoğurucu oxşarlıqlar vardır (şək. 2.2.).

Altay ərazisindəki Ulandrık kurqanlarından tunc və ağacdan düzəldilmiş, üzərinə qızıl təbəqəsi çəkilmiş dörd ədəd belə sancaq aşkar edilmişdir. İkinci kurqandan tapılmış sancaq daha maraqlıdır. Sancaq tunc iynəli, başlığı at formasında olub, ağacdan hazırlanmış və kürəvari oturacağın üzərində yerləşdirilmişdir. Oturacaq və atın üzərindəki qalıqlardan məlum olur ki, başlıq bütövlükdə qızılla örtülü olmuşdu. Sancağın uzunluğu başlığı ilə birlikdə 12 sm-dir (101,169). Çox yəqin ki, qadınların təbii saçları ilə süni hörükləri məhz elə bu sancaqlar birləşdirirmiş. Pazırık kurqanlarından tapılmış bəzək də eyni mahiyyətli olub, uc hissədə haçalanmışdır. S. İ. Rudenkonun «baş sancaqları» adlandırdığı ikinci sancaq da haçalanmış formadadır. Sarkofaqın şərq hissəsindən tapılmış qoşa maral fiqurları onun başlığını təşkil etmişdir (167, 130). Budaqlı buynuzları olan maral fiqurları bir çox əlamətlərinə görə (hündürlüyü 12 sm, nəzərəçarpan buynuz və qulaq, kürəvari oturacaq, qızıl örtük və s.) Ulandrık tapıntıları ilə yaxınlıq təşkil edirlər. Saç sancaqlarının əsas ümumləşdirici cəhəti zoomorf motiv ilə əlaqədardır. Şabran şəhər yerində (XIII əsr) əldə olunmuş belə sancağın başlığı dırnaqları üzərində dayanmış maral formasındadır. Onun iki ədəd uzun şaxəli buynuzlarının ucu yüngülcə içəriyə doğru əyilmişdir. Oxşar təsvir 1988-ci ildə Qırx Çıraq yaşayış yerində aşkar olunmuşdur. Burada maral dinamizm və enerji dolu qaçış fiqurundadır (16,124). Qeyd edək ki, iskit – sibir dünyası üçün xarakterik olan maralların dinamik təsviriI Azərbaycanda kifayət qədər anologiya tapa bilər. Ağsu rayonu ərazisindəki Gəgəli yaşayış yerindən tökmə üsulu ilə hazırlanmış tunc kəmər toqqası maral fiqurludur. Oval formalı yastı lentvari lövhə çərçivə içərisində yerləşən iri şaxəli buynuzlu maral sağ istiqamətdə qaçış vəziyyətində təsvir olunmuşdur. Hər buynuzunda üç çıxıntısı olan, göz, ağız, burun deşikləri aydın görsənən maralın ayaqları sıçrayışa hazır vəziyyətdədir. O, boynunu geriyə çevirərək, arxada oturan qartala baxır (2,35). Bəndovan möhürü, İsmayıllının Mollaisaqlı gil təknə qəbirlərindən əldə olunmuş toqqa və Qəbələ tapıntıları üzrəində də şaxələnmiş qapnadları olan boynunu arxaya çevirmiş maral təsvir olunmuşdur (16,125).

İskit dövrünün belə qadın bəzəklərinin geniş yayılmasını nəinki Altay kurqanlarının yeni materialları, həm də qonşu ərazilərdən olan tapıntılar təsdiq edir. Altayda sancaq başlıqları maral, at, keçi və quş fiqurları ilə bəzədilmişdir. Dağ keçisi və vəhşi quş başı formasında olan anoloji sancaqlar Tuva ərazisindəki qəbir abidələrindən də qeydə alınmışdır (118,130). Tunc, dəmir və sümükdən hazırlanmış zoomorf başlı sancaqlar Taqar və taştık kurqanlarının Yeniseyin sol sahilində yerləşən abidələrinin materialları içərisində xüsusilə seçilirlər. Bəzək əşyalarının əksər hissəsi tunc və dəmirdən hazırlansa da, iskit incəsənəti üçün (sözün geniş mənasında) tətbiqi qeyri-xarakterik olan sümük və ağacdan ibarət bu tip avadanlıqlar yenə də özünəməxsus yer tuta bilirlər. Bütövlükdə isə heyvani üslubda sümük və ağacın material kimi işlənməsi iki rayonda: Dağlıq Altay və meşə-çöl Ukraynasında əhəmiyyətli yer tutumuşdur (206, 211). Ancaq Dağlıq Altayda onlar e.ə. V-IV əsrlərə aid olduqlarından, təbii ki, qədim-ilkin material kimi ifadə olunduğunu söyləmək düzgün olmazdı. Ukraynada isə hətta e.ə. VII-VI əsrlərdə be-

lə, aparıcı yeri sümük və buynuz tuturdu (74, 2, 10).

Antik müəlliflərin məlumatlarının təsiri ilə bir çox tədqiqatçılar Azərbaycanın arxeoloji abidələrinin böyük qrupunu iskitlərə aid edirlər. İskit tipli ən çoxsaylı tapıntılar Mingəçevir qazıntılarında muşahidə olunmuşdur (196,185). Ümumiyyətlə, Mingəçevirin e.ə. IV-II əsr torpaq qəbirlərindən başqa, Yaloylutəpə və Küp qəbirlərində də qeyd olunan başlı sancaqlara rast gəlinmişdir. Buradan tapılmış bütöv sancaqlar baş hissələrinin quruluşuna görə iki qrupa bölünür: baş hissəsi həndəsi və nəbati – zoomorf fiqurla bəzədilmiş sancaqlar. Sonuncu qrupdan olan iki tunc sancağın başlığı quş fiqurlu və heyvan buynuzludur (12,62). Digər növ sancaqlar isə yaylı formada üst paltarı düymələmək, baş örtüyünü saça bərkitmək və bəzək kimi üst paltara sancılan başlı sancaqlardır (12, 59).

Beyləqanın orta əsr abidələrində aparılan arxeoloji qazıntılar nəticəsində metaldan hazırlanmış müxtəlif heyvan və quş fiqurları tapılmışdır. 1959-cu ildə Beyləqanın XII-XIII əsrin əvvəllərinə aid mədəni təbəqəsindən 3 ədəd mis və tuncdan tökülmüş quş fiqurlu sancaq aşkar edilmişdir (217,145). I fiqur nazik mis təbəqədən hazırlanmış, lakin ayaq hissəsi qırılmışdır. II fiqur tuncdan düzəldilmiş, en kəsiyi dairəvi olan metal çubuğun üzərinə yerləşdirilmişdir (4,120). Əgər əvvəlki sancaq başlıqları sağsağan və şanapipiyi xatırladırdısa, digər fiqurun baş hissəsi isə göyərçinə daha çox bənzəyir. Fiqurun sancaq hissəsi saxlanılmasa da, onun bir tərəfi hamar olduğundan üzərində yapışdırma əlamətləri aydın bilinir.

Mingəçevir tapıntısının yuxarı hissəsi qırılsa da, dairəvi oturacağı ilə birgə sancağın uzunluğu 11 sm, qalınlığı 2-3 mm-dir. Başlığın arxa tərəfində qırılmış rəzə izlərindən aydın olur ki, o sancağın iynə hissəsinə bərkidilirmiş (134, 91). Təəssüf ki, baş hissənin hansı heyvan fiqurunu xatırlatmasını



dəqiqləşdirmək mümkün deyil. Lakin anoloji müqayisəyə görə, bu sancağın da yuxarı hissəsində quş fiquru olmasını ehtimal etmək mümkündür. Maraqlı anoloji cəhət bir də iskit incəsənətində bu sancaq nümunələrinin şarvari oturacağın üzərində yerləşdirilməsidir. Tökmə üsulu ilə hazırlanmış belə sancaq fiqurlara Şimali Qafqazın hələ tunc dövrü abidələrində təsadüf olunmuşdur (107,31).

Sibir iskitləri üçün müxtəlif bəzək əşyalarının heyvan fiquru ilə tamamlanması xarakterik hal olmuşdur. Bilərzik və boyunbağılar bu baxımdan daha qabarıq nəzərə çarpmaqdadır. XX əsrin 80-90-cı illərində Azərbaycanın müxtəlif rayonlarından anoloji tapıntılar diqqəti cəlb etmişdir. 1985-ci ilə Naxçıvanın Babatəpə ərazisində əldə olunmuş tunc bilərziyin ucları ilan başı formasındadır (35, 27). Maraqlı cəhət tədqiqatçının buranı varlı əyana, əsilzadəyə məxsus qəbir kimi qiymətləndirilməsi və onu e.ə. VIII – VII əsrlərdə aid etməsindədir. Ağsu rayonun məşhur Nüydü kompleksindən də e.ə. IV-III əsrlərə aid, diametri 5,5sm 2 ədəd oxşar bilərzik tapılmışdır. Ovalvari formalı bilərziyin ucları ilan başı fiquru ilə tamamlanır (2,35). Məlumdur ki, Avrasiyada ilan kultu əsasən qadını simvolizə edir. O, eyni zamanda pis gözdən qoruyan, müdrik, mehriban başlanğıc, yeraltı sərvətin mühafizəçisi kimi qiymətləndirilir. Odur ki, bu obrazın geniş arealda yayılması təəccüb doğurmur. Özbəkistanın Canlik – Qala şəhər yerindən diametri 3-4 mm, əyri formalı, yeniyetmə qıza məxsus sonluğu ilan başı olan bilərzik tapılmışdır. Daşkəndin Sıcaq qışlağında isə gümüşdən hazırlanmış belə qolbağı qeydə alınmışdır (188, 92-93).

İ.H.Nərimanov və İ.A. Babayevin Keçilidə (Şəmkir) apardıqları arxeoloji qazıntıları içərisində son tunc-erkən dəmir dövrü qəbirlərindən 2 ədəd tunc, yarpaqşəkilli 2 pərli ox ucluğu tapılmışdı. Boru formalı saplağında geriyə qatlanan bir çıxıntsı olan Keçilinin bu ox ucluqları dövr etibarilə e.ə. VII-

V əsrlər üçün səciyyəvi hesab olunub, arxaik tiplidir (11, 61). S.M.Qaşqay Cəlilabad yaxınlığında, Mişarçay təpəsində 3 ədəd tunc üçpərli ox ucluğunu, Naxçıvanda Şahtaxtı və Təzəkənd kəndləri arasında təsadüfən 3,5 sm uzunluğunda, rombvari formada üçpərli ox ucluğu, ilan başlıqlı tunc bilərzik tapıldığını və bunların e.ə. VIII-VII əsrlərə aid edildiyini göstərmişdir (87, 45).

Mingəçevirin iskit qəbirlərindən tapılmış qədim məhmizli ox ucluqlarına görə bu növ qəbirlərin başlanğıcı e.ə. VII əsrə aid edilir (6, 16). Öz xarici görünüşünə görə Mingəçevir ox ucluqları Dneprdə Aleksandropol, Poltava vilayətindəki Aksyutinsk, Krasnoyarsk diyarında Karaqodeuaşx, həmçinin, məşhur Kelermes və Karxemış kurqanlarından tapılmış ucluqlarla oxşardır (78,85). İskit tipli əşyaların Dnepr ətrafı emalatxanalarda hazırlanaraq, hərbi yürüşlər zamanı digər ərazilərə gətirilməsi barədə mövcud fikirlər əsassızdır. Ən böyük emalatxana da əslində belə bir tələbatı ödəyə bilməzdi. Eyni zamanda müxtəlif ərazilərdə bu tip silahın uzun müddət ərzində (təqribən e. ə. VII əsrdən e.ə. IV əsrə qədər) istifadəsi onun yerli istehsalın məmulatı olmasını təsdiqləyə bilər. Mingəçevirin tunc ox ucluqları qanadlarının formasına görə 5 qrupa bölünür: 1) sulcuqlu gödək, qanadları açıq olmayan, 2) sulcuqlu gödək, qanadları açıq, 3) sulcuqlu uzun, qanadları açıq olmayan, 4) sulcuqlu uzun, qanadları açıq, 5) sulcuqlu uzun, qanadları açıq, enli. Bütövlükdə isə iskit tipli ox ucluqları əsasən 3 formadadır: yastı məhmizli, üç tilli məhmizsiz və sümükdən (6, 20). Mingəçevirin iskit tipli silahları içərisində xəncərlər də qeydə alınmışdır. Sulcuqlu xəncərlər 3 formada: deşiksiz, tək deşikli, 2 və ya 3 deşikli olurdu (6, 12).

Azərbaycanın müxtəlif bölgələrində iskit mədəniyyətinin izlərinə rast gəlinmişdir. Hətta son dövr qazıntıları zamanı da iskit üçlüyünə aid ola biləcək nümunələr üzə çıxarılmışdır. Ümumi materiallardan aydın olduğu kimi, bizim ən çox rast gəldiyimiz məmulat ox ucluqları, bəzək əşyaları, heyvani üslublu avadanlıqlar olmuşdur. Eyni zamanda iskit mədəniyyətinin izləri əsasən qəbir abidələrindən üzə çıxarılsa da, Kiçik kurqan vasitəsilə iskitlərin yaşayış yerləri barədə təsəvvür yaratmaq mümkündür.



### 2.3. İskit üçlüyünün Sibir variantları

İskitlərin əsas mədəni göstəricisi sayılan məşhur «üçlük» - heyvani üslub, ox ucluğu (silahlar) və at əsləhəsi Sibir və Azəbaycan ərazisində özünəməxsus iz qoymuşdur. İskit üçlüyünün hər bir göstəricisi ayrı-ayrılıqda yerli təbii – mədəni şəraitə uyğun formalaşmış, inkişaf edərək yayılmışdır. Odur ki, erkən dəmir dövrü Sibir arxeologiyası və tarixinin tədqiqində bu məsələ xüsusi əhəmiyyət daşıyır. İskit dövrü avadanlıqları, o cümlədən məişət əşyaları, bəzəklər, qayaüstü təsvirlər bir qayda olaraq, heyvani üslübda işlənmişdir. Bu üslubun əsas cəhətinə görə otyeyən heyvanların, yırtıcı heyvan və quşların, həmçinin əfsanəvi varlıqların (qrifon və s.) təsviri müəyyən şərtiliklə uyğunlaşdırılır, çox vaxt əşya müəyyən heyvan formasında düzəldilirdi. Əksərən, heyvan hərəkətdə, güclü əzələlərinin qabarıq təsviri ilə verilirdi. Bəzən rəssam fiquru bütövlükdə ornament süjeti ilə verdikdə, bu zaman yalnız konturlardan heyvan və ya onun bir hissəsini tanımaq olurdu. Ayrı-ayrı heyvanların, onların bədəninin təsviri, eləcə də bir neçə heyvan təsvirindən ibarət mürəkkəb kompozisiyalar heyvani üslubun fərqləndirici cəhətidir. Qeyd edək ki, təbii vəziyyətlərdə heyvanların mübarizəsi səhnəsi bu üslubun nəzərə çarpan təsvirlərindəndir. Bütün bunlarla yanaşı, nəzərə almaq lazımdır ki, iskit mədəniyyət və incəsənətinin yayıldığı geniş arealda tarixi inkişafın konkret şərtləri daxilində özünəməxsusluqlar, kiçik üslub fərqləri

və ya oxşarlıqlar daim müşahidə olunmuşdur.

Avrasiya çöllərinin İskit-Sibir incəsənətinin öyrənilməsində heyvanların sadə üslublu təsvirindən çox, mübarizə səhnələri bizim üçün maraq doğurmuşdur (şək. 2.3.). Elə məhz bu səhnələrdəki dinamiklik incəsənətdə «heyvani üslub»un qərarlaşmasına gətirib çıxarmışdır. Əgər qərb iskitləri üçün mübarizə gözəçarpan dərəcədə yer tutmurdusa, Sibir və Altay əhalisinin yaratdığı sənət nümunələri belə səhnələrlə zəngindir (32, 29). Adətən təsvirlərdə yırtıcılardan şir, qrifon, bəbir, onların qurbanı isə – öküz, maral, keçi və ya qoyun olurdu (şək. 2.4. ). İskitiyada bu süjet arxaik dövrdən (Kelermes qızıl kasası və On Asiya mənşəli gümüş güzgü) məlum olmuşdur. Sonralar Semitbratnıx kurqan tapıntılarında, Aleksandropol lövhələrində, Soloxanın qızıl ox qabında, Çertomlık vazasında, qızıl qılınc qınında, Kül-Obanın güzgü və bilərziklərində, Karaqodeuaxş ritonunda, Tolstaya Moqila sinəbəndində mübarizə səhnələri təsvir olunmuşdu (95, cəd. XXIII a). Katandin, Sibir-Altay kurqanlarında qeydə alınmış bəbirin sığın üzərinə hücum səhnəsi Ermitajda saxlanır (164, 179). Avrasiya çölləri incəsənətində yırtıcı və dırnaqlıların mübarizəsi süjetini E.E.Kuzmina araşdırarkən, Amu-Dərya dəfinəsi məmulatlarına əsaslanaraq, Altay əhalisinin bu mübarizə səhnəsini Ön Asiyadan aldığını bildirir (103, 8). Dırnaqlı heyvanın şir və ya yırtıcı quş tərəfindən parçalanması Çiliktin qızıl kəmərlərində, Sibir kolleksiyalarında, Pazırık çar qəbirlərində, Monqolustan və Ordosdan tapılan əşyalarda aydın görsənir (şək. 2.5.). I Pyotrun Sibir kolleksiyasında ikihürclü dəvə təsviri vardır. Burada o pələnglə döyüş zamanı təsvir olunmuşdur. Dəvə pələngin ön ayaqlarını dişi ilə tutmuş, pələng isə onun hürgücündən yapışmışdır. Eyni kolleksiyanın digər bir təsvirində pələng və şir başlı qrifonun ata hücumu səhnəsi vardır. Burada atın başı torpağa toxunulmuş vəziyyətdə təsvir olunmuşdur (169, 29, cəd. XIX. 4-6).



Sibir heyvanlarının dinamik xarakteri e.ə. V əsrdən başlayaraq, təkcə heyvanlar arasında mübarizə ilə yox, həm də halqavari çevrilmiş, bükülü və ya əyri formada təsvirlərlə də nəzərə çarpırdı (32, 29). E.ə. VII-VI əsrlərdə Orta Volqaboyu, Orta və aşağı Kamaətrafında heyvanların halqavari çevrilmiş vəziyyəti diqqəti cəlb edir. Yırtıcının başı o dövr üçün ənənəvi tərzdə: göz və qulaq bir xətt üzrə verilirdi. Qafqaz və Ön Asiya elementlərinə uyğun olaraq, qulaqlar oval, gözlər iki konsentrik dairədə verilmiş, pəncə isə halqavari, spiralvari burulmuşdu (95, 65). İncəsənt aləminə bu motivin məhz iskitlərin gətirmiş olduğu hesab olunur. Doğrudur, o Ziviyə komplekslərində qeydə alınsa da, Çilikti, Uyqarak, Arjan kimi komplekslərdən aşkar olunan nümunələr bu arealda heyvanların halqavari çevrilmiş formada işlənməsinin daha erkən meydana gəldiyini göstərir (162,116). Odur ki, Altay və Sibir ərazinin heyvanları dairəvi çevrilmiş tərzdə təsvir və fiqurlarına görə Qərbi İskit dünyasından geridə qalmır. Ümumiyyətlə isə, Dağlıq Altay üçün heyvanların dincəlmə və ya yatmış vəziyyəti (başını arxaya çevirmiş və ya çiyninə qoymuş halda) daha xarakterik olmuşdur.

İskit incəsənətində həndəsi və bitki motivli naxışlar heyvani üslubu tamamlayır. Tuvada belə kompozisiyalar həndəsi-ziqzaq, xaç, spiral, əyri zolaqlı naxışlardan ibarət olurdu. Kızılqan tapıntılarından daraq üzərində ziqzaq, Kaa-Xemin tunc bıçağın dəstəyində, Çaa-Xol sümük muncuğu, Suy-Xol tunc bıçağın üzərində spiralvari təsvirlər vardı(118, 100). İskit incəsənəti üçün qıvrımşəkilli naxışlar xüsusi yer tutmuşdur. Bitki motivləri-gül, qıvrım yarpaq və s. formalarda istifadə edilirdi. Altay incəsənətində heyvanların bəzi hissəsi müasir durğu işarələrinə oxşar işarələrlə- nöqtə və ya dairə, vergül, mötərizə vasitəsilə verilirdi.

Zoomorf predmetlərin hazırlanma texnikası və ilkin materialı da diqqəti cəlb edən cəhətlərdəndir. XX əsrin əvvəllə-

rində bir sıra tədqiqatçılar heyvani üslubun ilkin materiallarının sümük və ağacdan hazırlanmasını şimal, Ural və Sibir ərazilərinin mədəniyyətlərinə aid təsvirlərlə, konkret olaraq, Bazaxiyadan sığın, Uralın Qorbunov və Şiqirsk torf bataqlığından sığın və ördək başları, Finlandiyadan sığın, ayı başlarının fiqurları ilə təsdiq etməyə çalışmışdılar (206, 208). Sümük və ağac materialdan hazırlanmış məmulatlar Dağlıq Altay və Ukraynanın meşə-çöl zonası üçün də xarakterik olmuşdur. Dağlıq Altayda onlar e.ə. V-IV əsrlərə (Pazırık, Başadar) aid abidələrdə rast gəlinir (71, cəd. VI-2, IX-1,2). Ukraynanın meşə-çöl zonası isə iskit dünyasının yeganə vilayətidir ki, burada buynuz və sümük aparıcı yer tutur (74, ş. 1, 2, 10, 13 ). Bütövlükdə, iskit incəsənəti üçün sümük və ağacdan istifadə olunması çox da xarakterik olmamışdır. Ağac məmulatlar ya daimi donuşluqlarda, ya da torf qalıqları arasında gəlib çatmışdı (200, 25). Qızıl işləməli predmetlər də müəyyən miqdarda rast gəlinsə də, əsasən, tunc məmulatların geniş yayıldığını arxeoloji qazıntı materialları da təsdiq edir. Müsir dövrə qədər gəlib çatmış Taqar mədəniyyətinin heyvani üslublu məmulatlarının 817-dən 801-i tuncdan, 5-ı dəmirdən və 11-i sümükdən hazırlanmışdı. Burada ağac nümunələr tapılmayıb. Sümükdən hazırlanan predmetlərdən cəmi ikisi e.ə. VII-VI əsrlərə, digərləri isə e.ə. VI-V əsrlərə aid olduğu halda, tunc zoomorf əşyaların əksəriyyəti e.ə VII-VI əsrləri əhatə etmişdir (206, 209). Qeyd edək ki, Karasuk dövrünün heyvani üslublu təsvirləri də tuncdan düzəldilmişdir (44, 88). Bu onu göstərir ki, Minusink çökəkliyində heyvani üslubda ilkin material sümükdən yox, tuncdan ibarət olmuşdu. E.ə. VII-VI əsrlərdə Ananyin tayfaları heyvani üslubda olan predmetlərinin əksəriyyətini tuncdan hazırlamış, e.ə. V-III əsrlərdən etibarən sümüyə də müraciət etmişdilər (96, 42). İskit cəmiyyətində e.ə. IV-III əsrlərdə məişət avadanlıqlarında dəyişikliklər baş verməsi ilə, sümüyün sıradan



çıxması, tuncun isə öz yerini qızıla verməsi müşahidə olunmuşdur (195,48).

Heyvani üslubda eyni zamanda paralel inkişaf yolunu keçmiş realist və üslubi istiqamətlər olmuşdur. Belə ki, erkən dövrlərdə heyvanların aydın, dəqiq, həyati təsvirləri üstünlük təşkil etmiş, təqribən e.ə. III əsrdən bu təsvirlər sxematikləşməyə başlamışdır. Eyni zamanda heyvani üslubun öyrənilməsində 2 qrup süjet və simvollar əsas götürülür: bütün iskit-sibir dünyası üçün və ayrı-ayrı rayonlar üçün səciyyəvi olan süjet və simvollar. Bu ümumilik və fərqlər xüsusilə obraz seçimində: otyeyən, yırtıcı, əfsanəvi heyvan təsvirlərində, onların realist və ya naxışlı işləmələrində nəzərə çarpırdı.

E.ə. VII-VI əsrdən Minusinsk çöllərinin iskit-Taqar incəsənətində ciddi dəyişikliklər baş vermişdir. Burada Altay tipli heyvanların təsviri, Altay motivləri yayılmağa başlamışdır. Əvvəlki kiçik burunlu, donqar sifətli qoyun əvəzinə, düz sifətli, iri buynuzlu vəhşi Altay dağ qoyunu-arqali Taqar incəsənətində özünə yer tuturdu. Bununla əlaqədar olaraq, N.L.Çlenova e.ə. V əsrdən etibarən yeni qrup kimi Altay üslubunu təqdim edir (210, 135). Altay incəsənətində müşahidə olunan heyvan fiqurları yerli faunaya uyğunlaşdırılmışdır. Burada heyvanların fantastik təsviri və realist üslubu, həndəsi formalı və bitki motivli ornamentlər geniş yayılmışdır. Heyvanlar sakit duruşlu, ardıcıl gedən, hücum, parçalama vəziyyətlərində, heraldik quruluşda verilmişdir. Heyvan başlarının öndən, yanlardan təsviri də bu üslub üçün xarakterik olmuşdur (165,31).

Ayrı-ayrı ərazilərdə, lakin oxşar sosial-iqtisadi şəraitdə yaranmış heyvani üslubda regionlardan asılı olaraq, bu və ya digər motiv üstünlük təşkil etmişdir. Məsələn, Taqar mədəniyyəti üçün qrifon və vəhşi quş başı, qaban və ya keçinin bütöv, qoyun başı, at, şir, pələng, maral, canavar, uzunqulaq, tetra quşları, qırqovul təsvirləri daha xarakterik olsa da, sı-

ğın, sayqak (antilop qrupundan ceyranabənzər heyvan), dəvə və təqribən 15-ə qədər heyvan təsvirləri bir qədər az rast gəlinir. Maraqlıdır ki, Taqar incəsənətində buğa, ayı, şimal maralı, dovşan təsvirləri yoxdur. Bundan əlavə, bütün heyvanlar tək, dəvə və at təsvirləri isə bəzən insanla birgə, yəhərlənmiş vəziyyətdə qeydə alınmışdır (210, 113). Bütövlükdə, Karasuk incəsənətinin davamı sayılan Taqar üslubu daha realist təsvirlərlə yadda qalmışdır. Onların içərisində əsas yeri, dağ keçisinin bəzəklər, silahlar, məişət əşyaları üzərindəki təsvirləri tutur. E.ə.VII əsrə aid qəbir komplekslərindən cüt qaban fiqurlu baltalar, e.ə. VI əsrə aid keçi fiqurlu bıçaqlar və s. tapılması zoomorf predmetlərin arxeoloji qazıntı materialları içərisində seçilməsinə səbəb olmuşdu (210, 131).

Tədqiqatçılar iskit heyvani üslubunun öyrənilməsi gedişində müxtəlif təsnifatlardan istifadə etmişdilər. Belə ki, K.F.Smirnov heyvanları yırtıcı quş, yırtıcı heyvan və dırnaqlılar (181, 216-242), A.İ.Martınov, V.P.Alekseyev otyeyən və yırtıcı (123, 96), N.L.Çlenova motiv və üslubların ümumiliyinə görə əsrlər üzrə (210, 116-136), K.İ.Korepanov xarici görünüş və konfiqurasiyaya görə(96, 42) qruplar tərtib etmişdilər. Bu baxımdan hətta maraqlı rəqəmlər də göstərilmişdir. Qeyd edək ki, meşə-çöl zonasında qruplaşdırılmış təsvirlərdən 537-sində dırnaqlılar (maral, dağkeçisi, qoyun, at), 103-də yırtıcılar (əsasən vəhşi pişik cinsi) və 162-sində quşlar (əksərən, yırtıcı) əks olunmuşdu (215, 9, 17).

Avrasiya çölləri boyunca maral təsvirləri geniş yayılmışdır. Maralın iskit-sibir üslubu üçün xarakterik pozası: ayaqları uzadılmış vəziyyətdə təsvir olmasıdır (178, 171). Onlar bir qayda olaraq ön ayaqları bükülmüş, başı arxaya uzadaraq, buynuzunu bədən uzunu boyunca kürəyə toxunduran vəziyyətlərdə müşahidə olunmuşdur (142, 241, ş.1,9). İskit maralının klassik təsviri Kubanda və Kelermes kurqanında maral fiqurlu qızıl lövhə şəklində tapılmışdı. Belə fiqurlar Kül-



Oba, Aksütin, Böyük Ulsk, Krımın Ağ Məscid kurqanlarında, Orta Asiya çayarasında, Qərbi Sibirdə də üzə çıxarılmışdı (168, 268). Korkinsk kurqanlarından (Krasnoyarsk vil.) iskit-sibir heyvani üslubu üçün tipik halda – ayaqları sıçrayışa hazır vəziyyətdə bükülmüş maralın tunc fiquru qeydə alınmışdır. Burada onun üzü azacıq aşağı əyilmiş, üzərində aşağıya doğru istiqamətlənmiş kiçik çıxıntılar olan buynuzları yarımdairəvi əyilərək yay formasında verilmişdir. Açinsk-Marin rayonunda isə maral düz boyunlu, irəli yönəlmiş sifətə malik olub, daha sxematikləşmiş, Xakass-Minusinskdə buynuzda hörmələrlə müşayət olunmuşdu (142, 240, 242).

I Pyotrun Sibir kolleksiyasında da maral təsvirli fiqurlar diqqəti cəlb edir. Bir sıra maralların bədən təsvirində mütənasiblik gözlənilir və şərtilik nəzərə çarpmırdı (169, cəd. XXII). Oxşar üslublu maral təsviri II Pazırık kurqanında da qeydə alınmışdı (167, cəd. LXXIX, 1). Sibir kolleksiyası içərisində sifət və dırnaqları qızıl suyuna çəkilmiş xallı maral fiqurunun yuxarıya doğru bel istiqamətində genişlənən, azacıq irəli əyilən buynuzları və ləkəli bədəni xüsusi maraq doğururdu (169, cəd.XII, 1). Belə xallı marallar Kiçik Asiya yunanları, o cümlədən On və Orta Asiya üçün xarakterik olmuşdu (169, 30). Analoji təsvirlər Qara dənizin şimal sahillərində – Novoye Seroqoza kəndi qəbirlərində, Çertomlık kurqanından olan qılıncın dəstəyi üzərində, V Pazırık kurqanından tapılan xovlu xalça üzərində də rast gəlinmişdir (164, 79-81).

Çox yəqin ki, maral təsvirlərindəki üslub fərqləri onların bu və ya digər coğrafi rayonla: Qaradəniz sahili, Kuban, Qazaxıstan, Minusinsk çökəkliyi, Cənubi Sibirin meşə-çöl zonası ilə bağlılığından irəli gəlmişdir. İskit dövründə şimal marallarından çox, nəcib maral təsvirləri geniş yayılmışdı. Maralın qulaqları uzun, quyruğu yarımdairəvi formada qısa

çıxıntılı idi (79, 92). Ox qablarını bəzəyən maral fiqurlu belə lövhələr Kelermes, Aksyutin, Vitova Moqila, Arjan kurqanlarında (205, 44 - 46, ş. 27, 1,2; 60, şək. 29, 2) da qeydə alınmışdı.

Dağ keçisi və qoyun təsvirləri də Sibir-Altay incəsənəti üçün xarakterik obrazlardandır. Sibirin Karasuk abidələrində, Altayın qayaüstü təsvirlərində, Baykalarxası, Orta Asiya və Cənubi Qafqazda bu obrazlar geniş yayılmışdı. Süjetinə görə qoyunlar saqqallı verilirdi. Burada dağ keçiləri də müəyyən qədər üslublaşdırılmışdır (123, 91). Dağlıq Altay ustalarının həvəslə düzəltdiyi fiqurlar içərisində dağ qoyunu və ya arxar təsvirləri xüsusilə seçilirdi. Kelermes kurqanından tapılan kərkinin qızıl işləməli dəstəyində, Böyük Ulsk kurqanından tapılan gümüş at əsləhəsinin üzərində də oxşar qoyun təsvirləri vardı (168, 275). Boyunbağı və bilərziklər üzərində dağ qoyununun canavarla döyüş səhnəsi qorunub saxlanmışdı (169, 28). İskit-sibir dünyasında yayılmış maraqlı tapıntılardan biri qoyun və quş başlarının birləşməsindən düzəldilmiş fiqurların olmasıdır (32, 28).

Uyuk mədəniyyətinə aid 32 №-li kurqandan qızıl suyuna çəkilmiş sancaq üzərində, Qırğızıstan, Qazaxıstan, Ordos qəbirlərindən tapılan məmulatlar işərisində dayanmış keçi fiqurlarə öz aralarında analogiya təşkil etmişdir (118,74). Taqar mədəniyyətinin saraqaşen və podqornovsk dövrlərinə aid ayaq üstə dayanmış 1 və 4 keçi fiqurlu asma bəzəklər də tapılmışdı (44, 93). Ümumiyyətlə, bu obrazın yayılması yuxarıda adlarını çəkdiyimiz ərazilərin kiçik buynuzlu heyvanların əhliləşdirilməsinin qədim mərkəzlərindən olduğundan xəbər verir.

İskit incəsənətində xüsusi yer tutan obrazlardan biri atdır. I Pyotrun kolleksiyasında ev heyvanlarından at təsvirləri müxtəlif variantlarda verilmişdir. Yəhər-yüyənli minik atları ov səhnələrində, döyüşdən qayıtma səhnəsində, ağac altında



dincələrkən təsvir olunmuşdur (169, cəd.XVII 5, IV -5, cəd.XXII, 18). Yəhər bəzəyində, asma üzərində, bilərzikdə tək at təsvirləri işlənilmişdir. Yeniseyin Oqlaxtı qayaüstü təsvirlərində bir-birindən aralı dayanmış at təsvirləri də erkən iskit-sibir üslubuna aiddir (214, 344). Bu atlar «qəflətən dayanmış», ayaqlarını qarnı altında bükmüş, almacıq sümüyü seçilən donqarburun sifətli, iri boyunlu, arıq baldırlı, ilgək və ya kəndir formalı quyruqlu vəziyyətlərdədir. Onların bədəni damalı, dalğalı, enli və uzun xətlərlə naxışlanmışdır (182, 140). Təqribən 500-ə qədər oxşar təsvirlər müxtəlif ərazilərdən, o cümlədən Altayın I və V Pazırık kurqanlarından, II Başadar kurqanından tapılmışdır (61,32). Qərbi Sibirdə gildən hazırlanmış at heykəlciklərinin hündürlüyü 4 sm, uzunluğu 4-5 sm olub, ayaqları əvəzinə kiçik çubuqvari çıxıntılar düzəldilmişdir (71, 163). Dəvə təsvirlərinə gəlincə, o İskitiyada və Orenburqdan qərbdə yerləşən rayonlarda məlum olmamış, cənubi Sibir və Qazaxıstanda isə üslubca dəvəni xatırladan bir neçə təsvirlər qeydə alınmışdır. Minusinsk çöllərində Taqar mədəniyyətinə aid düymə üzərində dəvə və insan təsviri vardı (181, 238). I Pyotrun Sibir kolleksiyasında da ikihürgüclü, pələnglə döyüşən dəvə təsviri olmuşdu (169, cəd.V, 1-3). Altay faunası üçün səciyyəvi olan ayı təsvirlərdə yoxdursa da, Ermitajda qızıl pilək üzərində ayı təsviri saxlanmışdır (164, 156).

Heyvani üslubda işlənmiş bir sıra heyvanların adı çəkilsə də, incəsənətin formalaşmasında ev heyvanlarının yeri məsələsi açıq qalmışdır. Ev heyvanlarının incəsənətin formalaşması gedişində geniş yayılmaması, iskit-sibir tayfalarının məşğuliyyətində ovçuluğun əsas məşğuliyyət növü olduğunu güman etməyə imkan verir.

Yuxarıda qeyd etmişdik ki, otyeyən heyvanlarla yanaşı yırtıcılar da iskit incəsənətində özünə yer almışdır. Yırtıcı quş təsvirləri Avrasiya çöllərində bütöv fiqur kimi olmasa

da, əksərən baş hissələri ilə təsvir olunmuşdur. Müstəqil motiv kimi, quşun gözləri, caynaq və pəncəsi də işlənmişdir. E.ə. VI əsrdən başlayaraq, savromatlarda qızıl tikmə pilək-lərdə və ya tunc yəhər dəstinin hazırlanması zamanı belə motivlər müstəqil süjet kimi işlənmişdir (181, 217). İncəsənətdə yırtıcı heyvanların təsviri 2 variantda verilirdi: heyvan ya irəliyə doğru gedərkən, ya da başını geriyə çevirmiş vəziyyətlərdə olurdu. Təsvirdəki şərtilik, əsasən pəncədən nəzərə çarpırdı; heyvan sanki barmaqlarının ucunda dayanırdı. Sibir təsvirlərində yırtıcılardan pişikkimilər ailəsi nümayəndələri (pişik, bəbir, pələng, şir), canavar xüsusi yer tutur. Sibir kolleksiyasında canavarların realist təsviri yoxdur. Bu heyvanın ən çox yayılmış təsviri – burnunun ucu yuxarıya doğru əyilmiş, qrifon başlı, boynu arxasında qrifon başlı olmuşdur. Bilərziklərin birində canavarın sadə təsviri də var idi (169, 28). V Pazırık kurqanından yüyən qayışını bəzəyən canavar başı və geriyə baxan bütöv bir fiqur da tapılmışdı (167, cəd. LXII–2; LXIX-1,5). Analoji heykəlciklər Katandin və Başadar kimi digər Altay kurqanlarında da rast gəlinmişdir (168, cəd. L–1,3; 167, cəd.LXXXII, ş.15). Sibir canavarları dırnaqlı- pəncəli təsvir olunurdu. Dağlıq Altayın iskit dövrü Pazırık kurqanlarında qeydə alınmış qanadlı canavar Sibir təsvirləri içərisində də rast gəlinmişdir (167, 205,310).

Sibir bəbirləri üçün xətli bığ və ləkəli (xallı) dəri; pələng üçün-zolaqlı dəri, şir üçün quyruğunun ucunda qotazlı yal olması səciyyəvidir. I Pyotrun Sibir kolleksiyası içərisində pişik və balaları, sığın üzərinə hücum edən bəbir, sinəbənd və bilərziklərdə şirin bütöv və baş hissəsi xüsusilə seçilməkdədir (180, 28). Bəbirlərin Mərkəzi Asiya ərazisində ən qədim təsviri SUyuk-Debe petroqliflərinə aiddir (223, 128). Dağlıq Altay ərazisində də bəbir təsvirləri geniş yayılmışdır (154, 280,282,şək.144). Bəbirlər Cənubi Sibir iskitlərinin incəsənətində mübarizə və parçalama səhnələrində aparıcı hey-



van sayılır.

İskit mədəniyyətinin aparıcı üçlüyü silahlarla da xarakterizə olunur. Cənubi Sibirin Minusinsk çökəkliyi ərazisində baxılan dövrdə 6 növ silah məlumdur: xəncərlər, nizə ucluqları, təbərzin, balta (nancaq), döyüş çəkici, ox ucluğu (201,136-142). O dövr Sibir ordusunun, Şimali Qaradəniz sahili, Volqa və Ural ətrafından tapılmış silah kompleksləri əsasında iskit və savromat ordusunun yüngül silahlı qoşunu ilə oxşarlığı nəzərə çarpır(203,36; 169,31). Belə ki, Sibir və Qaradəniz sahilində yaşayan əhali məsafəli (ox, yay) və yaxın (təbərzin) döyüş dəstinə və əlbəyaxa döyüşdə istifadə olunan – xəncərə malik idi. Təbii ki, həm coğrafi mövqe, həm hazırlıq texnikasındakı bəzi yerli özünəməxsusluqlar müəyyən fərqlərin olmasına gətirib çıxarmışdır. Bununla yanaşı, Taqar mədəniyyətinin yayıldığı ərazidəki silahların, əsasən, tuncdan olduğunu bildirən N.L.Çlenova onları iskit mədəniyyətini Sibirlə bağlayan mühüm elementlərdən biri hesab edir (210,13).

Herodota görə, iskit allahları içərinsində Ares allahının şərəfinə düzəldilmiş ibadət yerlərində qılınc xüsusi yer tuturdu (52, 202; IV,62). İskitlərin xəncərə-qılınca sitayişi haqqında bir sıra antik müəlliflər – Lukian, Pomponi Mela, Arnobiy, Qay Yuli Salin və başqaları da məlumat vermişlər (112, 281, 300,308). İskit xəncərləri, adətən 45-50 sm uzunluqda və bəzən 30-45 sm ölçüdə olurdu. Belə qısa xəncər «akinak» adlandırılırdı. Klassik iskit xəncərləri ürəkvari və kəpənəkvari başlığa malik olmuşdur. Xronoloji cəhətdən kəpənəkvari ayrıclı xəncərlər daha erkən dövrə aid hesab olunur (79,86). Daha sonralar tiyə ilə dəstək arasındakı ayrıc böyrəkşəkilli forma alırdı. Xəncərlər çoxvariantlı silah hesab olunduğundan ayrıcların əsas formaları ilə aralıq forması da iskit dünyasının bütün ərazilərində rast gəlinmişdir (şək.2.6.). E.ə. VI-V əsrlərdə akinak paralel tərəfli, iki ağızlı,

iti tiyəli, dəstəyi bütöv dəmirdən olurdu. E.ə. V-III əsrlərdə tiyə dar, bərabəryanlı üçbucaq forması alır, qızıl örtüklü dəstək və ayrıc müxtəlif heyvan təsvirli relyefik fiqur ilə bəzədilirdi. Bu silah növü – aristokratlar, çar və ya hərbi başçı üçün xarakterik sayılırdı (56,92-93). A.P.Smirnov iskitlərin 30-50 sm uzunluqda «akinak»dan istifadə etdiyini və onların dəstə, başlıq və ayrıcında müxtəlifliklərin olduğunu bildirir. Onun fikrincə, batıcı-kəsici silah sayılan akinakdan fərqli olaraq, uzun qılınclar doğrayıcı çapıcı olub, iskitlər içərisində o qədər də çox yayılmamışdı. Uzun qılınclar Qara dəniz sahilində sarmatların hökmranlığı dövründə hakim olmuşdu (178,152) və bunların ölçüləri arasındakı fərq də nəzərə çarpacaq dərəcədədir. Belə ki, xəncərin uzunluğu 17-40 sm, qılıncların 50-84 sm arasındadır (150,242). Minusinsk çökəkliyi ərazisində xəncərlər daxilində romblu paz kəsikli; yanları çıxıntılı oxlu; paz kəsiyində linzavari çıxıntısı, düz ayrıclı, çıxıntıları aşağı sallanan qruplar, həmçinin halqavari, yarım dairəvi, haçalı, fiqurlu torvari başlıqlı variantlar daha geniş yayılmışdı (201,136-142). Tuvanın iskit dövrü qəbir komplekslərindən tapılan xəncərlərin əksəriyyəti əsasən tuncdan düzəldilib, akinak ölçülüdür (şək.2.7.). Xəncərləri dəri futlyar və ya dəri örtüklü ağac qında, kəmər üzərində gəzdirirdilər. Tuva xəncərlərinin daxilində də tədqiqatçılar 7 növ variant ayırırlar: hamar, qanadvari tunc xəncər; qabarıq dəstəli və xaç başlıqlı; qabarıq dəstəkli; qıvrım başlıqlı; buynuzvari başlıqlı böyrək dəstəkli, yuxarıya doğru genişlənən qabarıq qanadvari dəstəkli; böyrəkvari başlıqlı, qanadvari dəstəkli; kəpənəkvari başlıqlı dəmir xaçlı xəncərlər (118, 47).

I, II, III tip xəncərlərin arealı genişdir. Bu tip xəncərlər e.ə. VI-III əsrlərə aid olub, Qara dəniz sahili iskitlərdə, Uraləfrafı savromatlarda, Qərbi Sibir və Minusinsk ərazisinin Taqar kurqanlarında, Altay, Qazaxıstan və Ordos ərazisindən tapılmış və e.ə. VI-III əsrlərə aid edilir. Böyrək başlı xəncərlər savromatların e.ə. V-IV əsrə aid, dəmir xəncərlər Altay və Pamir –Altayın e.ə. V-III əsrlərə aid sak qəbirlərində analogiyalar tapır (118, 49).

Düz ayrıclı və halqavari başlıqlı xəncərlər Altayın son dövr iskit komplekslərində: Katon-Karaçay, I Ulandrık kurqanlarında, Tuvada I Ducerlik – Xovuzu abidəsinin ikinci kurqanında, I Dalqan – Pelinin I kurqanında; Monqolustanda: Ulanqomsk qəbristanının I kurqanında qeydə alınıb; orta sarmat (e.ə. III əsr) və Taqarın (e.ə.III - I əsr) son dövr xəncərlərilə analogiya təşkil edir. Halqavari başlıqlı ən erkən akinak-xəncər Şimal-qərbi Çində – Çüntsyu (e.ə. VIII-VI əsrlərdə) dövrü kompleksində tapılmışdı. Koreya Xalq Respublikasının Çanpiş rayonu ətrafından – Bayfu ərazisindən «Karasuk» tipli xəncər (6 ədəd) tapılmışdı. Monqolustanda, Ulanqomsk qəbirstanlığının 2 qəbrindən Taqar mədəniyyətinin e.ə. VII-V əsrlərinə aid 2 ədəd xəncər tapılmışdı (93,94-95). Ümumiyyətlə, Dağlıq Altayda uzun xəncərlər, demək olar ki, qeydə alınmayıb. E.ə. VI-V əsrlərə aid olan Tuektin kurqanından da iki ədəd qısa akinak qalığı tapılmışdı (168,20). Tuvada, Minusinsk çökəkliyində, Monqolustanda olduğu kimi, yaxın məsafəli döyüşdə əsas silahları təbərzinin uzun dəstəyinə bərkidirdilər. Qərb və sak mədəniyyəti ilə əlaqədə olanlar isə bir qədər uzun qılınclara üstünlük verirdilər (135,192). Şimali Qazaxıstan ərazisində 1977-ci ildə tapılan tunc xəncərlər zoomorf başlığa və dişli ayrıca malik olub, uzunluğu 32 sm, o cümlədən tiyəsinin uzunluğu 18 sm, eni 3,2 sm, dəstəyinin eni 25 sm olmuşdur (192,299).

Minusinsk çökəkliyi üçün xarakterik olan xəncərlər, əsasən, tuncdan tökmə üsulu ilə hazırlanmışdı. Onların ümumi əlamətləri qanadvari və ya kəpənəkvari formalı dəstəyə (qəbzəyə) malik olmalarıdır. Altayda (II Başadar tapıntılarında) (147, 41), Tuvada (115, 46-49) olduğu kimi, burada da xəncərlər kəmərdə, xüsusi ağac və dəri örtüklü qında gəz-

dirilirdi (84, 230). Bəzən iskit akinakında olduğu kimi, Taqar xəncərləri ürəkvari formada da olurdu. Düz ayrıclı xəncərlər Minusinsk çökəkliyində daha qədim vaxtlarda (Karasuk dövrü) müşahidə olunmuşdur. Ürəkli və ya kəpənəkvari ayrıclı xəncərlərin dəstəyi çapıq, novçalı, kəsik, bəzən də hamar və bütöv olurdu. Başlıqları yarımdairəvi yastı və ya qalın kənarlı, bir sıra hallarda cüt qrifon başı formasında olurdu. Şimali Qaradəniz sahili iskit kurqanlarından tapılmış kəpənəkvari ayrıclı və çapıq (kəsik) dəstəkli xəncərlər e.ə. VI əsrə, Tuva ərazisindən olan eyin formalı xəncərlər e.ə. V-IV əsrlərə aid edilir. Minusnisk çökəkliyində ürəkvari ayrıclı xəncərlər düz xəncərdərdən sonra, təqribən e.ə. VI-V əsrlərdə yayılmışdı. Analoji olaraq, şimali Qaradəniz sahilində bu tipli tapıntılar e.ə. VI əsrə aid kurqanlarda qeydə alınmışdır. Ürəkvari xəncərlər Ukraynadan, Şimali Qafqazın Foskau qəbirlərindən də tapılmışdır. N.L.Çlenova düz, ürəkvari formalı xəncərlərin Avrasiyanın çöllərində eyni vaxtda yayıldığını təsdiq edir (210, 14-16, 21). Maraqlıdır ki, tiyəsi üçbucaq formalı xəncərlər Şərqi iskit dünyası üçün o qədər də xarakterik olmayıb, əsasən e.ə. IV əsrdən etibarən qərb iskitlərində yayılmağa başlayıb. Tolstaya Moqila kurqanından tapılan, üçbucaq formalı, şəbəkəli xəncər, anoloji olaraq Çertomlıkda, Soloxada, Mərkəzi Krımın 2 saylı Baboviç kurqanında, Perevolsk rayonundan, Pyatibran kurqanında, Dneprepetrovsk vilayətinin Nikopol rayonun Kapulovka kəndindəki kurqandan tapılmışdır (204,163). Şəbəkə işləməli qılınclar təkcə tuncdan olmurdu, belə ki, e.ə. IV əsrə aid belə tapıntıların 11-dən 7-si qızıl lövhə dəstəklidir (204,164). Dəmir xəncərlər isə iskit-sibir dünyasının geniş arealında eyni qayda üzrə müşahidə olunur. Ob çayının sağ sahilində Ukladoçnaya stansiyasından tapılan, e.ə. V-IV əsrlərə aid, başlığı heyvan fiqurlu xəncər (cüt qoyun başı) Taqar tapıntısı ilə anologiya təşkil edərək, tədqiqatçılar tərəfindən e.ə. V-IV əs-



rə aid edilmişdir (210, cəd.2). XX əsrin 80-ci illərində Novosibirsk vilayətində aparılan arxeoloji qazıntılar nəticəsində iskit dövrünə aid xəncər qalıqları aşkar edilmişdir. Ümumi uzunluğu 160 mm olan xəncərin, çox yəqin ki, 25x90 mm ölçülü, qanadvari formalı ayrıcı olmuşdu. Dəstəyində əks tərəflərə çevrilmiş iki heyvan başı olan bu xəncər, üslub və süjetinə görə iskit-sibir incəsənətinin Orta Asiya-Qərbi Sibir vilayəti üçün xarakterikdir (183, 133-135). Zoomorf başlığı olmayan dəmir qılınclar 8 saylı Bıstryansk kurqanından (e.ə. V əsr), I Razdumye qəbristanlığından (e.ə. V-IV), Novo-Troitskoye kəndindən (e.ə. IV əsr), I Biysk qəbirlərindən (e.ə. III-I əsr) kəpənəkvari və düz ayrıclı formada qeydə alınmışdır (145, 192). İskit tapıntıları üçün xarakterik hallardan biri dövrün sonuna yaxın bəzi maddi mədəniyyət nümunələrinin minaturləşdirilməsidir. Qəbir avadanlıqları içərisində müxtəlif silahların kiçildilmiş, simvolik formada qeydə alınması Taqar mədəniyyəti daşıyıcılarından da yan keçməmişdir. E.ə. IV-III əsrlərə aid Taqar qəbirlərində xəncərlərin *miniatür işlənməsi diqqəti cəlb edir.* İskit qəbirlərində müşa*hidə olunan miniatürləşməni* şəxsi mülkiyyətin yaranması ilə, əlmlakın irsən keçmə hüququnun yaranması və s. ilə əlaqədar izah etmək mümkündür.

Xəncər və qılıncların mənşəyi məsələsinə baxış təbii ki, müxtəlifdir. Görkəmli tədqiqatçı M.İ. Poqrebovanın fikrincə, Yaxın Şərq və Ön Asiyanın son tunc-erkən dəmir dövrü qılınc və xəncərlərinin iskitlərə heç bir aidiyyəti yoxdur (154, 33, cəd I-x). Ürəkvari ayrıclı iskit xəncərlərinin Mərkəzi Asiya-Sibir mənşəli olması fikrinin tərəfdarı olan A.İ.Terenojkin onun prototipini Minusinsk çökəkliyinin son tunc-erkən dəmir dövrü silahları içərisində axtarır (184, 3-32; 185). Xəncərlərin Şərqi Avropa mənşəli olduğunu bildirən R.B.İsmayılov Şimali Qafqaz və Sibir (xüsusən Karasuk) xəncərləri arasında ümumi oxşarlığın olduğunu təsdiq etmişdi (80,

88-92). N.A. Onayko erkən dövrdə iskitlərin qızıl örtüklü xəncərlərinin Bospor ustaları tərəfindən hazırlandığını bildirirdi (204, 165). E.ə VII-V əsrlərə aid Taqar xəncərlərini bəzi tədqiqatçılar Karasuk mənşəli hesab edirlər (146,109).

Sibirin iskit tipli tapıntıları içərisində ox ucluğu xüsusi yer tutur. «İskit triada»sının əsas komponentlərindən biri olan ox-qədim iskitlərin milli simvolu hesab edilə bilər (54,112). İskitlərin mənşəyi haqqında Herodotun təsvir etdiyi əfsanələrdən birində igid Herakl öz yayını İskit ölkəsinə gətirmiş və vəsiyyətinə əsasən yarı qadın-yarı ilan Borisfen çayının qızından olan kiçik oğlu İskitə yay və bununla birgə hakimiyyət də çatmışdı (52,188; IV,5). Digər bir əfsanəyə görə iskitlərə ox atmağı igid Herakl öyrətmişdir. Müasir tədqiqatçılar da iskitləri atlı oxatan – qippotoks hesab edərək, onların əsas silahının ox-yay olduğunu bildirirlər (54, 90). Ox ucluğu iskit cəmiyyətinin bütün üzvlərinin çar qəbirlərindən uşaq qəbirlərinədək çox rast gəlinən avadanlıqdır. Qədim müəlliflər bu barədə də məlumat vermişlər. «İliada»da iskit yayının at tükündən hazırlandığı göstərilir (29, 283). Böyük Plini ox və kamanın Yupiterin oğlu İskit tərəfindən icad olunduğunu təsdiq edirdi (176,103).

Klassik iskit oxu 3 hissədən ibarət olurdu – ucluq, sap və lələk (şək.2.8.). Adətən bu gunumuzə ən pis gəlib çatan oxun sapı olmuşdur. Vitovat qəbir kompleksində 71,28 sm, Nikopol kurqanlar qrupundan 82 sm ölçüdə ox sapı aşkar edilmiş (205,22), III Pazırık kurqanından isə 80 sm uzunluğunda sap tapılmışdı. Saxlanılmış saplar hamar olub, yaxşı cilalanmışdır ki, döyüş zamanı atıcı zədələnməsin. Oxun sapı sonluğa doğru bir qədər genişlənmiş formada üzəldilirdi ki, ip üçün yarıq (oyuq) əmələ gətirsin. Belə yarıqların en və dərinliyi Üç qardaş kurqan tapıntılarında olduğu kimi 0,25 –0,35 sm olurdu. Pazırık və Altay ərazisinin ox saplarının diametri 6-7 mm təşkil edirdi (167, 261). E.ə. VII əsrdə iskit mədəniyyətinin bütün əsas cəhətləri formalaşan dövrdə ox ucluqlarının dəsti meydana çıxır. E.ə. V əsrin ortalarınadək oxlar yastı, rombvari, dəfnəyarpağı, sadə yarpaqlı, bir qanadlı olmuşdu. Eyni zamanda ox uclarının kənarları bir və ya iki çıxıntılı üçkünc başlıqlı və ya 3 üzlü; əyri 3 pərli olurdu. Oxun saplağı adətən şam ağacı budağından düzəldilirdi. Ox ucluqları tuncdan, bəzən dəmirdən, bəzən də sümük və ya ağacdan hazırlanırdı (56, 91). Ox ucluğunun ağac gövdə ilə birləşməsi özlüyündə bir neçə qrup yaradırdı. Tıxacla birləşən bu hissələr görünən çıxıntılı və görünməyən (daxili) olur, ox sapı isə uzun, orta və qısa olurdu. Ucluğun formasına görə: a) köndələn – enli, 3 üzlü, 3 pərli quraşdırılmış; b) konturunun uzunluğuna görə – taclı, 3 künc, rombvari, trapesvari; v) əsasının formalaşmasına görə – pərin ağac gövdəyə doğru düz, ya iti, küt kəsilmiş olması q) ucluğu xarakterizə edən ölçüyə görə: qısa, orta, uzun olmaqla seçilirdi (177,67-68). Cənubi Sibirdə ox ucluqları tuncdan tökülür və 3 pərli olurdu, bu oxun uçuş trayektoriyasını sabit saxlayır və saplağa vətər və ya yapışqanla birləşdirilirdi (84, 230). İskitlərdə oxun tökmə üsulla hazırlanması e.ə. IV əsrə aiddir. Halqavari tökmə zamanı tıxac əmələ gəlir, bir cüt yan və dirək laylar oturacaq halqasına və yuxarıda yarımdairəvi halqa çəmbərlə birləşir, hazır ox ucluğu çox sadə çıxarılırdı. Yuxarı çəmbər açılır, laylar yünülcə oturacağa girir və ox ucluğunu azad edirdi. Belə formada 3 ox ucluğunu hazırlamaq olardı: iki üçüzlü və bir ədəd ikiyarpaqlı tökmək olardı (205, 96). Qeyd edək ki, bu yeganə silah növü idi ki, dəmir tuncu əvəz edə bilməmişdi, çox nadir hallarda rast gəlinən dəmir ucluqlar isə formaca özündən əvvəlkilərin təkrarıdır. K.F.Simirnova görə, tiyəli üçüzlü ox ucluqlarını e.ə. VI əsrdən gec olmayaraq Qazaxıstan, Cənubi Sibir və Orta Asiya xalqlarından əldə etmiş savromatlar, e.ə. IV əsrdən başayaraq dəmirdən oxşar ucluqlar hazırlamışlar (181).

Uyuk mədəniyyətinə aid qəbirlərdən tapılan üçpərli tiyəpazvari ox ucluqları e.ə. VII-VI əsrlərə aid olub, Şimali Qaradənizsahili və Qazaxıstanın, Taqar mədəniyyətinin I mərhələsinə aid qəbirlərində, ümumiyyətlə, Minusinsk çökəkliyinin müxtəlif yerlərində qeydə alınmışdı. Belə ox ucluqları Qazaxıstan və Altayın e.ə. V əsrə, eyni zamanda, Yenisey, Qazaxıstan, Kerç və s. ərazilərdə tapılmış e.ə. VI-III əsrlərə aid abıdələrdə tapılmışdır (118,54, 78,cəd. 26, ş.10).

Azərbaycan ərazisində «iskit» tipli çoxsaylı tapıntılar içərisində qırxa yaxın ox ucluğu tapılmışdır (196,186). Mingəçevir tapıntılarından olan ox ucluqları tuncdan düzəldilmiş, e.ə. VII-V əsrlərə aid qəbirlərdən tapılmış (85, 27, 43, şək 18) və müxtəlif formadadır: 3 üzlü tıxaclı, 2 üzlü tikanvari tıxaclı olub, əsasən döymə və tökmə üsulu ilə hazırlanmışdır (78,81-98). Üç pərli, ucluğu 45mm olan ox ucluğu Cənubi Tacikistanın Vaxş və Pənc çaylarının qovşağındakı Təxti-Sanqindən də tapılmış, onun eni 12 mm təşkil etmişdir. Orta Asiyanın digər yerlərindən; Kayrakkumı, Marqina, Xarəzmdən; Ərəbistanın e.ə. V-IV əsrlərə aid Nadi – Ali qazıntılarından, İranın Suz qazıntılarının I təbəqəsindən (e.ə.VII-VI əsrlər) oxşar ucluqların tapılması bu tipin iskit-sibir dünyası və qonşu xalqlarda məlum olduğunu göstərir (114, 153).

Altayın Çin hissəsindən olan Şimali Tsinsizyanın Keermutsi qəbir kompleksindən dörd ədəd tunc iskit tipli ox ucluğu tapılmışdır. Üç üzlü, rombvari formalı birinci ox ucluğu Çin üçün o qədər qeyri adi olmuşdu ki, yerli arxeoloqlar tapıntıların ox olub-olmamasına şübhə ilə yanaşmışdılar (221). Məlumdur ki, bu tip ox ucluqları e.ə. VII-VI əsrlərə aid edilərək Cənubi Sibir ərazisində, meşə-çöl Altayda, Şərqi Qazaxıstanda yayılmışdı. Digər üç tunc ox ucluqları saplaqlı, həm üç pərli, həm də üç üzlü olub, analogiyaları e.ə. VII-IV əsrlər tapıntılarında rast gəlinmişdir (221). 20 nəfərin dəfn olunduğu qəbir öz avadanlıqları ilə çox güman ki, iskitlərəqədərki



dövrü özündə ehtiva edir. Ox Taqar mədəniyyətində özünəməxsus yer tutsa da, xəncər və təbərzin kimi geniş yayılmamışdı. Nəzərə alsaq ki, Minusinsk çökəkliyində xəncərlər 506, ox ucluğu – 146 halda, həm də təsadüfən tapılmışdır, yuxarıdakı fikrimizi bir daha təsdiq edərik. Taqarlılara aid dəmir ox ucluqları üçkünc, dəfnəyarpaqlı, rombvari, güllələvari lələkli olmuşdur. Belə qarışıq forma e.ə. VI-V əsrlərə aiddir. Taqar dövrünün başlanğıcında 2 müstəqil tip geniş istifadə olunmuşdur: 3 künc lələkli və yarpaqlı. Sonrakı inkişaf prosesində aralıq formalar yaranmşdır: lələk qanadlarının sayına görə, 2-3 üzlü, 3 qanadlı, tıxacına görə iki yarımtipə - görsənən və gizli olmaqla seçilirdi (44,89,64). Bununla əlaqədar olaraq, təkcə Xudyakov O.S. Minusinsk çökəkliyi ərazisindən tapılan ox ucluqlarını 2 bölmə, 10 qrup, 11 tip və 13 variantda təqdim edilirdi (201,138-142). Qəbir avadanlıqlarının sayına nəzər yetirsək, e.ə. VII-V əsrlərə aid 60 Taqar kurqanından cəmi 27-də ox tapılmışdı. Qərb iskitlərinin eyni dövrə aid qəbirlərində isə, əksinə bəzən bir qəbirdə 100-200 ədəd ox ucluğu olduğu halda bütövlükdə, Minusinsk çökəkliyindən cəmi 219 ox tapılmışdır (210,39-40). Erkən dəmir dövründə Ural ətrafı oturaq əhali ilə köçəri çöl tayfalarının mədəni əlaqələrinə toxunan V.A.İvanov Dnepr və Qaradəniz sahili kimmer-iskit qəbirlərindən 89%-də, Volqa-Uralın savromat kurqanlaırndan 5,9%-də, Cənubi Sibirin erkən Taqar komplekslərindən 5,2%-də tunc ox ucluğu qeydə alındığını bildirmişdir (72,75-77).

İskitlərdə ox qabının olması haqqında məlumat azdır. Hələ XX əsrin əvvəllərində M.İ.Rostovsev təəssüflə yazmışdır ki, «hərbçi atlı oxçular üçün tipik olan, ox və yay yerləşən ox qabı - sadaxın formasını müəyyənləşdirmək mümkün olmayıb» (163, 334). Bu barədə ilk dolğun məlumat A.İ. Melyukovaya aiddir (130,32,34). Lakin sonradan Posul ətrafından əldə olunmuş belə bir tapıntı V.A.İlyinskaya tərəfindən

açıqlanmışdır (75,96-98). İskit döyüş əsləhəsində əsas yer tutan ox qabı dəridən düzəldirdi. Çox güman ki, elə buna görə də yaxşı saxlanmamışdır. Sıravi iskit qəbirlərindən 1 və bəzən 2 ox qabı dəsti tapılmışdı. E.V.Çernenko onları quruluşuna görə ayıraraq sıravi döyüşçülər üçün sadə, ali məmurlar üçün dəbdəbəli olduğunu bildirirdi (205, 30-39). Ox qabında kaman üçün gözlük olurdu. Gözlük dəmir və ya sümük düymələrlə bağlanırdı. V.A.İlyinskaya Dneprin sol sahillərindən 10 ədəd belə düymə tapmışdır (75, 97). 8,6 sm uzunluğunda heyvan (qoyun) ucluqlu belə düymələr IV Kelermes kuqanından da tapılmışdır (135, 104,cəd-52-53). Qərb İskitlərinin möhtəşəm abidəsi olan Tolstaya Moqilanın mərkəzi qəbrindən 4 ox qabı dəsti tapılmışdı. I və II ox qabının içərisində eyni ölçülü 70 ucluq vardır. III ox qabında 11, IV - də isə 36 tunc və sümükdən ox ucluğu qalmışdır. Maraqlıdır ki, qəbirdə ox qabı ölünün sol tərəfinə qoyulmuşdur (204,153-154). E.ə. V əsrdən etibarən ox qabı döyüş kəmərinin sol tərəfinə bərkidilirdi. E.ə. IV əsrdə isə dəbdəbəli ox qabından istifadə olunurdu. Belə ki o, qızıl və gümüş işləmələrlə bəzədilirdi (205, 92). Oxluq kəmərə tunc qarmaq vasitəsi ilə bərkidilirdi. Minusinsk çökəkliyi komplekslərindən tapılmış tunc qarmaq dağ keçisi başı formasındadır. Belə ilgəklərə analoji olaraq, Altay və Tuvada e.ə.V əsrdən tez olmayaraq, rast gəlinib. Tuvanın kök–el tapıntılarında dağ keçisi formalı halqavari ilgək tapılmışdır. Savromatlara aid Novo-kumaq qəbristanlığında və Ordosda, Arçekasskda ilgəkli 2 dəmir qarmaq qeydə alınmışdır (105,90).Ümumiyyətlə ox qabının qarmağı şərqi iskit dünyası üçün xarakterik olub, Tuva, Altay, Uralboyu, Kamaboyu, Orta Asiya ərazisinə qədər yayılmışdır.

Kamandan ox atarkən yayın ipinin baş barmağı yaralamaması üçün xüsusi üsgükdən istifadə edilirdi. Minusinsk çökəkliyindən tuncdan hazırlanmış belə 10 ədəd üskük tapılmışdır. Onlar adi formada çökük hissədə buğumu olan kiçik qaşığı xatırladırdı. Tesinsk kəndindən tapılan üskükdə oxu yaxşı saxlamaq üçün dişciklər də vardı. Monqol üsuluna görə üskük sağ ələ geyinilir, ox yaydan sağda yerləşdirilirdi. Bəzən ox atılandan sonra gərilmiş ipin boşalıb geriyə itələndiyi vaxt, oxçunun sol əlini yaralanmadan qorumaq üçün xüsusi bilərzikdən də istifadə olunurdu (210,64).



Yay və oxla bərabər iskitlərdə biri olan nizə və cida döyüşdə mühüm rol oynamışdır. İndiyədək iskit tipli 600-dən çox qəbirdən nizə ucluğu tapılmışdır. Nizələrin sapı əsasən ağacdan hazırlandığından, təbii ki, qazıntılarda aşkar edilməmiş və buna görə də onun ümumi uzunluğunu dəqiqləşdirmək çətin olsa da, tədqiqatçılar iskitlərin təqribən 1,75 - 2,2 m ölçülü nizədən istifadə etdiklərini bildirirdilər (130, 43). S.V.Çernenko Verx nekotorisk, Novo-Rozanovka kəndindəki iskit hərbçi qəbrindən, Şevçenko kurqanının VI qəbrindən, Juravka yaxınlığındakı qəbirlərdən və s. yerlərdən tapılmış nizə qalıqlarını analiz edərək, o, iskitlərdə hətta 1m uzunluğunda da nizələrin işləndiyini göstərmişdir (202,233). Maraqlı bir cəhət məşhur Soloxa darağı üzərində təsvir olunan atlının əlindəki nizənin də qısa olmasıdır. Digər maraqlı bir məqam isə kiçik ölçülü qəbirlərdə nizənin ya yarıya bölünməsi, ya da qəbrin divarında oyuq açılaraq yerləşdirilməsidir. Bu fikir arxeoloji qazıntılarla da təsdiqlənir. Xersonişanın Kolenkova kəndindən, Yelizavetov qəbirstanlığında, Orjonokidze şəhəri ətrafındankı Straşnaya Moqila kurqanında nizənin sapını qırmaq istəmədikləri üçün, uzunluğu 2,95; 2,1;3,1 m olan nizələri divarda oyuq açaraq, diaqonal boyunca yerləşdirmişlər (202,234). Çox yəqin ki, uzun nizələr orta məsafəli, qısa nizələr yaxın məsafəli döyüşlərdə istifadə edilmişdi (203,36). 1,80-2,10 m ölçülü nizələrin atıcı, vurucu zərbələr, uzun nizənin ov, süvari – piyada döyüşü üçün də yararlı olduğunu da güman etmək olar. Bəzən də də-

mirdən olan ucluqlar 24 sm təşkil edərək, ləlәkli, dəfnəyarpağı, konusvari formada olurdu (65, 92). Qərb iskitləri üçün xarakterik olan belə tapıntılardan fərqli olaraq, şərqdə – Sibir ərazisində bu silahlar az qeydə alınmışdır. Bu da yuxarıda qeyd etdiyimiz kimi, onların ağacdan düzəldilməsilə əlaqədar ola bilərdi.

Nizədən fərqli olaraq, döyüşdə istifadə olunan təbərzin Minusinsk çöllərində geniş yayılmışdı, xüsusilə Taqar mədəniyyətinin mövcud olduğu dövrdə soyuq silah kimi ona üstunlük verilirdi. Eyni zamanda o Altay, Qərbi Sibir, Qazaxıstan ərazilərində də rast gəlinən bu növ silahlar Şimali Qaradəniz sahili iskit kurqanlarında az - cəmi bir neçə ədəd tapılmışdır (210,25). Buna baxmayaraq, qeyd etmək lazımdır ki, bu döyüş baltası müəyyən mənada iskitlər üçün müqəddəs silah sayılırdı. Belə ki, iskitlərin mənşəyi haqda olan əfsanələrin birində «göydən düşmə»- kotan, kasa və boyunduruqla yanaşı təbərzinin də adı çəkilirdi. Sadəcə güman ki, bu silah Qara dəniz sahillərində iskit dünyasının digər yerlərinə nisbətən daha tez istifadədən çıxmışdı. Sibir ərazisində yayılmış təbərzinlər, adətən tuncdan hazırlanır, deşikli yastıkülünglü, dairəvi və ya yastı kəsikli, dairəvi külünglü və ya ovalkülünglü formada olurdu (şək. 2.9.). Sibir ərazisində təbərzinlər ilkin olaraq Karasuk dövründə meydana çıxmışdır (146,118), Uyuk qəbirlərində isə bu silah bıçaq və ox ucluğuna nisbətən daha az təsadüf olunur. M. X.Mannay Ool onları 7 növə ayırır və göstərir ki, təbərzinlərin 6-sı tunc, 1-i dəmirdən düzəldilmişdir(118, 49). Burada əsasən deşikli, yastı və ya dairəvi külünglü təbərzinlərlə yanaşı, tıxaclı, yastı küplü, iti kəsikli formalara da rast gəlinmişdir. İki tərəfi tıxaclı belə döyüş çəkici Orta Asiyanın Uyqarak abidələrində anologiyasını tapır və təqribən e.ə. VII-VI əsrlərə aid edilir.

Ümumi ölçüsü 70sm olan Sibir təbərzinlərinin dəstəyi ağacdan hazırlanırdı. Dəstəyin aşağı hissəsi tunc tıxacdan



düzəldilir və silah dəri futlyarda saxlanılırdı (84, 231). Taqar təbərzinlərinin Karasuk dövrü üçün xarakterik formada tapılmasına baxmayaraq, bir sıra tədqiqatçılar Sibir döyüş çəkici və baltalarının Çinin İn dövrünə aid olduğunu yazırdılar (60; 78). Deşikli Taqar baltarı erkən Taqar və ya son Karasuk dövründən yayılmış və hərbi tələbatın yüksək olması ilə əlaqədar Minusinsk çöllərinin cənub hissəsində Abakan hövzəsi və Yeniseydən Tuvaya qədər geniş ərazidə (Ulansk, Biysk, Monok, Taştın, Norilov ulusu, Somoxval, Abakan dairəsi və s.) rast gəlinmişdir (210, 31). Daha sonralar, təqribən e.ə. V əsrdən başlayaraq, bu silahın miniatür formaları istifadə olunmuşdur.

Adlarını çəkdiyimiz hücum silahları ilə yanaşı iskit döyüşçüsünə müdafiədə istifadə edə biləcəyi silahlar da lazım idi. Təbii ki, müdafiə əsləhəsi olaraq zireh, dəbilqə, ayaq sipəri, döyüş kəməri və qalxan bu baxımdan ən münasib hesab olunurdu. E.ə. VI-III əsrlərə aid Şimali Qara dəniz sahilləri, Şimali Qafqaz, Volqaboyu və Orta Asiya əraziləri üçün tapıntıların sayını müqayisə edən E.V.Çernenko, müdafiə əsləhəsinin Şimali Qara dəniz sahillərində daha çox yayıldığını göstərməyə çalışırdı (203, 36).

Məlumdur ki, iskit ordusunun əsas zərbə qüvvəsini ağır silahlı atlılar təşkil edir və onlar, əsasən, aristokratiya və əsilzadə nümayəndələrindən ibarət olurdu. Onların müdafiə silah kompleksi - panopliya həm yığma (metal lövhəcik, pulcuq, yarpaq və ya zolaqdan), həm də tam, bütöv metaldan olurdu. Gətirilmə yunan əsləhə-yaraqlarından ancaq əsilzadələr istifadə edirdi və təbii ki, onların silahları, həmçinin at əsləhələri qızıl işləməli idi. Sıravi iskit isə yüngül silahlı hərbçilər hesab olunurdu. Belə döyüşçülər dəri və keçədən tikilən əsləhədən istifadə edirdi. Dəri bükümlü ağac onların kiçik qalxanını əvəzləyirdi (149,48-49). Sıravi döyüşçülərdə müdafiə silahlarının olmaması fikri, təbii ki, yanlışdır, hətta

Kül oba və Voronej vazaları üzərindəki təsvirlərdə zirehli geyim rolunu oynayan dəridən qolsuz sırıqlı və dəbilqə də bunu təsdiq edir. Ümumiyyətlə, Kubandan, Don və Dneprboyunun kurqanlarından, Volqa sarmatlarının, Sibir və Orta Asiyanın iskit tipli kurqanlarından dəbilqələr tapılmışdı. Dəbiləqlərin kənar və arxadan olan çıxıntıları müdafiəyə uyğunlaşdırılmışdır (56, 89). Çoxsaylı silahları ilə məlum olan Tolstoya Moqila kurqanındakı kəllə sümüyü xarab olduğundan, tunc dəbilqənin oksidləşmiş qalıqları təəssüf ki, onun dəqiq hansı formada olduğunu söyləməyə imkan vermir (204, 170).

İskit qalxanları dairəvi və yuxarı hissəsi kiçik oyuqlu olurdu (178,153). Zirehli geyimin döyüşçünün bədənini qoruması üçün onlar dəmir və ya mis lövhədən düzbucaqlı formasında düzəldilirdi. Qəbir komplekslərindən tapılan zirehli geyim çiyinli və yanlardan kəsik olurdu (204,166-167). E.ə. VI əsrə aid Şimali Qara dəniz sahillərindən - 18, Şimali Qafqazdan - 5, anoloji olaraq e.ə. V əsrə aid 39 və 7; IV-III əsrlərə aid 59; 10; Volqaboyundan 5, Orta Asiyadan 2 belə zirehli geyim tapılmışdır (203, 36).

İskit-Sibir h□rbzisinin □sas □sl□h□l□rind□n biri b□z□kli düyğ□ k□m□rl□ri olmu□dur. Onlar□n □ks□riyy□ti dar a□□rmal□ olub, heyvani ğslublu metal lüvh□ v□ ya pil□kl□rl□ b□z□dilirdi. E.Zernenkonun fikrinc□, Tolstoya Mogiladan tap□lan 4 □d□d düyğ□ k□m□ri qüvs□□klind□ □yri formada dğz□ldilmi□, eni 0,5sm, uzunlu□u 3 sm olmu□dur (204,166, 165). A□□r sğvarinin mğdafi□ □sl□h□sin□ daxil olan k□m□rl□r, m□rasim k□m□rl□rind□n formas□na, ülzğl□rin□, xğsus□n enin□ gür□ f□rql□nirdi (120, 19, 25). Tuvan□n Ald□-bel q□birl□rind□n tap□lan k□m□rin ğz□rin□ tuncdan 2 da□kezisi v□ 2 y□rt□c□ qu□ ba□□ h□kk olunub. Bu k□m□r da e.□. VII □sr□ aid edilir. Tuvan□n düyğ□ k□m□rl□ri h□m pi□ikkimil□r f□sil□sin□ aid heyvan fiqurlu pil□k□rl□, h□m d□ at t□sviri buynuzvari i□l□m□l□rl□ b□z□dilirdi. □n zox yay□lan is□, tunc pil□kl□rl□ b□z□dil□n qrifon ba□l□ k□m□rl□r olmu□du (140,23). Avrasiya züll□ri boyunca e.□. I min. II yar□s□ndan bel□ pil□kl□r m□lum idi. Monqolustandan, Altay□n II Paz□r□k kurqan□ndan anoloji tap□nt□ □ld□ edilmi□dir.

Sibirin iskit dövrü qəbirlərindən tapılan avadanlıqlar içərisində məhşur triadanın III komponenti hesab edilən at ələhəsi xüsusi yer tutur. Qədim mənbələrdən adları atlı xalq kimi çəkilən iskitlər minik və ya yükləmə məqsədilə yəhər, üzəngi, yüyəndən istifadə etmişdir. Yəhərin iskitlərdə e.ə. IX əsrdən gec yayılmadığını e.ə. VIII əsr Nimrud saray barelyefindəki təsvirlər də təsdiq edir. E.ə. I minillikdə istifadə olunan yəhərlər kiçik çul və onun altına qoyulan keçə tərlikdən (təkəlti) ibarət idi. Qoltuqlı-ağac əsaslı yəhərlərin istifadəsi isə, sonralar üzəngili yəhərlərin yaranmasına səbəb olmuşdu. Qərb və Şərq iskitləri içərisində maral tükü və ya otdan ibarət dəri yastıqca və ona birləşmiş sinə-quyruqaltı qayışlardan ibarət yəhərlər yayılmışdı (167, 150-171). Dağlıq zona yəhərləri üçün hər iki qayış vacib sayılırdı. Ona görə də çöl zonası iskitlərinin qəbir komplekslərində nadir rast gəlinən belə yəhərlər, bütün Dağlıq Altay ərazisində geniş yayılmışdı. I Pyotrun Sibir kolleksiyasında da oxşar formalı yəhərlər vardı (169, 113). Tədricən, sonrakı dövrlərdə yəhərlərdə yeniliklər yaranır, ağac əsası və bir cüt ön-arxa yəhər yayı qoşa yəhər yayını əvəz edirdi. Qəbirlərə isə bəzən əsl əsləhə deyil, onların kiçik dekorasiyası qoyulduğundan qazıntılar zamanı qızıl, tunc lövhəli bəzəkli yox, ağacdan düzəldilmiş miniatür yəhər-yüyən dəsti aşkar olunurdu (168, 230). Altaylılar kimi, Şimali Qara dəniz sahili əhalisi at bəzəklərindən çox istifadə etsələr də, qızıldan hazırlanan bəzəklər Avrasiya çöllərinin qərb hissəsində çox da geniş yayılmamışdı.

İskit, sak və Altay tayfalarının at əsləhəsi ilə oxşar olan

Taqar əsləhələri Karasuk mənşəli hesab olunur (208,28). E.ə. VIII-VII əsrlərdə formalaşan yüyən ağızlığından birinin uc hissəsi ardıcıl 2 halqa ilə, digərininki isə, üzəngi halqası ilə tamamlanır, yəhər ya yüyən ağızlığının həlqəsinə, ya da başlığına bərkidilirdi. I tipdə onlar irəlidən aşağıya doğru əyrilmiş və əks istiqamətdə 3 ilgəkli, II tipdə əyri və ya yarımdairəvi formalı, orta və uc hissəsində dəlikləri vardı (56,94-96). Qədim altaylıların yüyənlərindəki bir sıra kiçik detalları çıxmaq şərtilə, indikilərdən elə də fərqlənmirdi. Çumbur ilgəklə yüyənin sol cilovuna (yerdəyinə) bərkidilirdi ki, at atlını yerə atmasın. Dağlıq Altayın e.ə. VII-V əsrlərə aid qəbirlərindən tapılan yəhərlər, Kuban və Dnepryanı ərazilərinin e.ə. VI-V əsr qəbir kompleksləri üçün xarakterik olmuşdu. Soloneçnıy belok və Uy-Kuyun yaxınlığındakı kurqanlardan da belə yəhərlər tapılmışdı (167,224). Yəhər yüyənlərinin quruluşu da iskit-sibir mədəniyyəti daşıyıcılarında oxşar olmuşdu (şək. 2.10). Demək olar ki, altaylıların buynuz, tunc və ağacdan olan bütün yəhərlərinin iskitlərdə anoloqu vardı. Belə ki, heyvan fiqurları ilə işlənmiş yəhər yüyənləri Semibratnıx kurqanında da tapılmışdı (168,224-225). Bununla yanaşı, onlar arasında bəzi fərqlər də olurdu. Yəhər yayının alçaq və ya hündürlüyü belə müqayisələr etməyə imkan verir. Çox yəqin ki, alçaq yaylar çöl, hündürlər isə dağlıq şəraitdə istifadə olunmuşdu. Çertomlık kurqanından gümüş vaza üzərindəki təsvirdə alçaq, Mərcanə gümüş ritonunda isə hündür yəhər yüyəni vardı. Maraqlıdır ki, I və II Pazırık kurqanlarından tapılan yüyənlər çöl tipli olmuşdu (168, 228).

Minusinsk çökəkliyində Taqar dövrünə aid qəbirlərdə at əsləhəsi azlıq təşkil edirdi. Onlar üçün xarakterik olan yüyən ağızlığı cüt tərkibli olub, 2 halqalı, üzəngivari ucluqlu və dairəvi ucluqludur. Üzəngivari yüyən ağızlıqları Altay, İrtış ətrafı, Omsk, Qazaxıstan, Orta Asiya və Macarıstana qədərki ərazidə yayılmışdı və bu tip e.ə. VIII-VII və ya VII-V əsrlərə



aid edilir (216, 66-68). Tuncdan hazırlanmış bir gözlü yüyən ağızlığı iskit dövründə geniş yayılmışdır. E.ə. VI - V əsrlərə aid Sır-Dərya, e.ə. VIII-VII əsrlərə aid Şimali Qafqaz, e.ə. V əsrə aid Altay, Tuva, Qazaxıstan, İran və Yaxın Şərqin iskit tipli qəbirlərindən çoxsaylı belə tapıntılar qeydə alınmışdı (210, 71). Taqarlıların qövsvari, düz və S-vari yüyənləri ilə yanaşı, canavar və ya quş dimdiyi fiqurlu yüyən ağızlar da vardı. Oxu S - vari əyilmiş 2 gözlü yəhərlər bütün iskit dünyasında geniş yayılmışdı (210, 74). Araltərafı Uyqarakın e.ə. V əsr (48,202) kurqanları belə tapıntılarla zəngindir. Arjan kurqanından tapılan yüyən dəsti demək olar ki, bir-biri ilə oxşar olsa da, bəzi etnoqrafik fərqləri də vardı. Yüyənlər əsasən qövsvari, 3 gözlü formada olmuşdu. Burada yüyənlər sayca yəhərlərdən çox idi (60, 47, ş. 30).

Şimali Qafqazda üzəngili yəhərlər Kelermes kurqanlarında, Kamenşina, Kiyevşina ərazilərində, Ananyin mədəniyyətinin yayıldığı rayonlarda məlum olub, Altay və Orta Sibir tapıntıları ilə anologiya təşkil edir. E.ə. VI əsrdən Qafqaz yəhər və yüyənləri dəmirdən hazırlansa da, Sibirdə dəmir əsləhələr qeydə alınmamışdı.

Məlumdur ki, iskit mədəniyyəti məşhur üçlüyü ilə təmsil olunur. Heyvani üslub təsvirlərindəki lokal fərqlilikləri, hazırlanma texnikası və materialı ilə özünəməxsusluqlar daşımışdır. Eyni zamanda hansı süjet və heyvan təsvirinə daha çox yer verilməsi də iskit mədəniyyətinin, incəsənətinin, inanc sisteminin öyrənilməsi üçün əhəmiyyətli məsələlərdəndir. Üçlüyün əsas komponentlərindən olan silahlar təbii ki, daha çoxsaylı tapıntılardandır. Sibir iskitlərinə məxsus qəbir abidələrindən ox ucluqları ilə yanaşı akinak tipli xəncərlər, döyüş baltaları, habelə, müdafiə silahları da tapılmışdır. Atlı-atıcı olan iskitlərin at əsləhələri, onların yəhər-yüyənlərinin özünəməxsusluğu da bu mədəniyyət daşıyıcılarının daim fərqlənməsinə, seçilməsinə səbəb olmuşdur.

# III FƏSİL
# SKİF DÖVRÜ ABİDƏLƏRİ VƏ ONLARIN XARAKTERİSTİKASI

## 3.1. Qəbir abidələri və onların tipləri

Sibirin iskit dövrü arxeoloji abidələri içərisində qəbir abidələri öz çoxsaylılığı ilə digər abidələrdən fərqlənir. İctimai təbəqələşmə prosesini, mənəvi və maddi mədəniyyəti, iqtisadiyyatı tədqiq etmək üçün mühüm mənbə sayılan qəbir abidələri, əsasən, zəngin avadanlığa, quruluşunda özünəməxsusluğa malikdir. Maraqlıdır ki, qəbir abidələrinə daha çox çay sahili ərazilərdə, çöl və dağ çökəkliklərində rast gəlinmiş, qəbir tiplərində isə o qədər də fərqlilik müşahidə olunmamışdır. Sibir iskitlərinin qəbir abidələri müxtəlif forma və ölçülü torpaq qəbirləri və kurqanlardan ibarət olmuşdur. Mustye dövründə meydana çıxaraq tunc dövründə geniş yayılmış torpaq qəbirlərinin üzəri ağac, torpaq və qumla qurulduğundan, müasir dövrümüzə bunlar təbii ki, gəlib çatmamışdır. Sibir ərazisində göstərilən dövr üçün daha xarakterik olan kurqanlar torpaq, daş və bunların qarışığından tökülür, kurqanaltı qəbirlər isə ya torpaqda qazılır, ya da iri daşdan, ağac tirdən düzəldilirdi. Şimali Qaradəniz sahilləri iskitləri üçün kurqanı əsas qəbir abidəsi hesab edən V.Y.Murzin bütövlükdə 7 tip qəbir növü ayırsa da, onlardan 5-nin torpaq, digərlərinin daş qəbir olduğunu göstərmişdir (136, 48).

Ümumiyyətlə, nəzərdən keçirdiyimiz dövrdə qəbir tipləri içərisində sadə torpaq qəbirləri xüsusilə seçilir. Torpaq qəbirləri qazıldığı yerin relyefindən asılı olaraq, müxtəlif ölçülərdə, təqribən 1-6m dərinlikdə olurdu. Qəbir çuxuru adətən, dördkünc formada qazılırdı. Uyuk çayı ətrafının torpaq qəbirlərində rast gəlinən bu hal Taqar mədəniyyətinin Tesin dövrü qəbirlərilə oxşarlıq təşkil edir (118,12). Altayın sinxron abidələri içərisindəki torpaq qəbirlərin quyusu qazılarkən, çıxarılan torpaq vasitəsi ilə kiçik təpəcik şəklində üstü doldurulmuşdu. Belə abidələrə Minsinsk çökəkliyində, Tuva ərazisində, Altayda, İrtışın yuxarı axarlarında, hətta Qazaxıstan, Qırğızıstan və Pamirdə də rast gəlmişdir (38,186-294). Torpaq qəbirlərin əksəriyyəti Nikolayevski və Odessa vilayətlərində, Krımda, Xersonesin solsahil hissəsində, katakombalar Poddneprovye, Dnepropetrovsk və Xersones vilayətlərində açılmışdır (175, 347).

Yuxarıda qeyd etdiyimiz kimi, Sibirdə kurqanlar qəbir tipi kimi üstünlük təşkil edir(şək.3.1.). Ümumiyyətlə, iskitlər üçün kurqan elə bir elmi terminə çevrilmişdir ki, bu və ya digər abidələrin tədqiqi gedişində onu adlardan ayırmaq mümkün olmur. Tərkibinə görə daş, torpaq və qarışıq olaraq bölünən bu tipin daş kurqan növü xüsusilə geniş yayılmışdır. Kəsmə kameralı, dairəvi və ya kvadrat hasarlı daş kurqanlar Sibirin İskit dövrü müxtəlif ərazilərində mövcud olmuşdur: Altayın Mayemir-Pazırık mədəniyyəti, Qazaxıstanın, Qırqızıstanın, Pamirin Sak-Usun, Tuvanın Uyuk mədəniyyətinin yayıldığı mərkəzi, qərb, şimal və cənub rayonlarında kərtmə-çapma kameralı kurqanlar tədqiqatçıların diqqətini çəkmişdir (164,224; 118; 30). Bu tip qəbirlər 3-20m diametr və 0,2-2m hündürlükdə olmaqla planda dairəvi olub, torpaq, daş, qaya parçaları ilə örtülüdü. Kurqanaltı qəbirlər, adətən, üzəri ağac tirlə örtülmüş formada olurdu. Ağac tir üçün yerli əhali qara şam ağacının gövdə və kötüklərindən istifadə etmişdir. Döşəmə taxta lövhə və kötüklərdən, tavan 2-5 çiv vasitəsilə bir-birinə kip bərkidilmiş şam gövdəsi və tozağacı budaqlarından hazırlanırdı. Bəzən isə belə daş kurqanlarda döşəməni sadə torpaq əvəz edirdi (186, 18-19). Şimali Qara dəniz sahilinin eyni tipli kurqanları cənubi Ural ətrafında, Altayda Semireçye, Şərqi Qazaxıstan və Sırdəryanın aşağı axarlarında tapılmışdır (118, 19).

Bu tip qəbirlərdə avadanlıq az olurdu. Taqar mədəniyyətinin iskit-sibir dünyasının mərkəzində yerləşdiyini hesab edən B.N.Pyatkin kvadrat və ya düzbucaqlı hasarlı kurqanların tikintisində devon qumdaşından, şist, daş və ağacdan istifadə olunduğunu, Orta Yenisey, Krasnoyarsk, Açino-Mariinskdə də qeydə alındığını bildirir (159,35). Qeyd edək ki, hətta Karasuk dövrü qəbirlərində də bu formalı hasarlar mövcud olmuşdur (44, 53-54). Karasuk mədəniyyətinin hər iki mərhələsi üçün daş hasarlı qəbirlərin planı və tipləri monoqrafiyaya əlavə olunmuş şəkildə verilmişdir (şək. 3.2.).

Kurqanlarda hasarın ölçüləri 4,5 x 5- m, 30 x 28 m-ə qədər olurdu. Kurqan örtüyünün altında kvadrat xəndəklər qazılırdı. Onun dərinliyi 0,75 m-dən 3,5 m-dək, bəzən 7,5 m-də olurdu (118,19). Burada da döşəmə və tavan lövhə, yaxud tir-dirəklərdən düzəldilirdi.

Dağlıq Altayın iskit dövrü üçün dairəvi daş örtüklü kurqanlar səciyyəvidir. Ekoloji mühitdən asılı olaraq, tikinti materialı torpaq olan tikililərin quruluşunu izləmək çətindir. Burada hasarları xəndək və ya quyular əvəz edirdi. İrmen mədəniyyətinə xas dairəvi və ya oval forma Karasuk və Luqav mədəniyyətlərinin qəbir abidələri içərisində də rast gəlinmişdir. Kuznetsk çökəkliyi ərazisində daş hasarlı qəbirlər azdır. Oval formalı daş örtüklər Tuvanın Monqun – Taygin tip qəbirləri üçün xarakterikdir. Kurqan əhatəsindəki qəbirlərin sayına görə erkən iskit dövündə Dağlıq Altay abidələri Monqun – Taygin, Karasuk və Luqav mədəniyyətləri ilə oxşarlıq təşkil edir. Bir kurqandakı qəbirlərin sayına görə irmen qəbir tikililəri Tuvanın Aldı-bel mədəniyyətləri ilə oxşardır. Bu yaxınlıq erkən iskit dövrü mədəniyyətlərində müşahidə edilən dayaz torpaq dəfnləri ilə tamamlanır (220). Bir-birinə bitişik, bəzən 0,5-1 m aralı olan sal daşlar üzükvari halqə yaradaraq, dairə təşkil edirdi. Dağlıq Altayın, Tuva və Cənubi Sibirin bəzi kurqanları zəncirvari halqa şəklində



yerləşmişdir (58,168-169). Burada qərb və ya şərq tərəfdəki iki daş sanki giriş qapısını əvəzləyirdi. Yəqin ki, halqalı və kvadrat hasarlı daş kurqanlar xereksurların ilkin, sadə forması olmuşdu. Uyuk mədəniyyətinə aid qəbir kompleksləri içərisində daş örtüyünün diametri 8-60 m, hündürlüyü 0,75-2,5 m olan, ümumi diametri 18-160 m təşkil edən xereksur planda 4 ədəd xaçvari oxu olan nəhəng təkəri xatırladır. Hasarın kənarından örtüyə doğru cığır uzanır və bir neçə daşın belə düzülüşü X-vari formadadır (109, 17). Daş qutu qəbirlər Sibirin iskit dövrünə aid qəbirlərdəndir. Ümumiyyətlə, daş qutularda dəfnetmənin yaranması köçəri maldarlığa keçidlə əlaqədar olmuşdur. Tuva ərazisində 22 daş qutu qəbirlərdən 8-i kurqan altında, qalanı əlavə örtüyü olmadan torpaq üzərindədir (118, 20). Klassik Karasuk dövrü üçün xarakterik olan bu qəbir növü adətən, 1 metr dərinlikdə yerləşdirilirdi (44, 53).

Şimali Qaradəniz sahili çöllərində 100-dən çox iskit kurqanları məlumdur ki, onlar əsasən, e.ə. VII-V əsrlərə aiddir. Onlardan təxminən 80-i arxeoloji cəhətdən daha yaxşı öyrənilmişdir (136, 48). Eramızdan əvvəl VII əsrdən burada ağac konstruksiyalı torpaq xəndəklər, e.ə. VI əsrdən isə digər qəbirüstü tikililər nəzərə çarpır. Herodot və başqa müəlliflərin sözlərinə əsasən, Şimali Qaradəniz çölləri kifayət qədər məskunlaşmış olsa da, burada e.ə. VII-V əsrlərə aid iskit qəbirləri azlıq təşkil edir. İskit tipli mədəniyyətə malik əhali Orta Don ətrafında e.ə. VI əsrin sonlarından məskunlaşmış və çöl zonasında tunc dövrü qəbirləri az, meşə, çöl zonasında isə çoxsaylı olması ilə seçilmişdi (113, 16). Ümumiyyətlə, e.ə. V əsrin II yarısından etibarən Şimali Qaradəniz sahili ərazilərdə artıq kurqan qrupları nəzərə çarpmağa başlamışdı (56, 64). Çöl zonalarındakı qəbirlərin əksəriyyəti (2300-dən 2042-si) e.ə. IV-III əsrlərə aiddir. E.ə VII-V əsrlərə aid cəmi 158 qəbir qeydə alınmışdır ki, onlardan 7-si e.ə. VII-V əsrlə-

rə, 10-u e.ə. VI əsrə, 7-si e.ə. VI-V əsrlərə, 61-i e.ə. V əsrə, 73-ü e.ə. V- IV əsrlərə aid edilir (175, 345). Arxaik dövrə aid qəbirlərin əksəriyyəti (158-dən 88-i) Krım ərazisində aşkar olunmuşdur. Burada da, həm torpaq, həm də daş qutu qəbirlər vardır (175, 347).

Qeyd edək ki, tədqiqatçılardan bir qismi iskitləri katakomba mədəniyyətinin daşıyıcılarından hesab edir. Belə ki, L.S.Kleyn hələ Herodot dövründə çar iskitlərinin öz rəhbərlərini katakombada dəfn etmələri fikrini irəli sürmüş, Herodotun təsvirində çar iskitlərinin quyuda dəfn olunması barədə məlumatı isə köçəri iskitlərə aid etmişdir (91, 6). Eyni zamanda, bəzi alimlər paleozooloji və antropoloji dəlillərlə, e.ə. VI əsrdən köçəri iskitlərdə katakomba qəbirlərinin hakim tip olmasını göstərmişdilər (76, 159). Ancaq tədqiqatçıların böyük qismi katakomba mədəniyyətinin bitməsi və iskitlərin tarix səhnəsində görünməsi arasındakı xronoloji fərqi əsas götürərək, onu iskitlərlə bağlamağın qəti əleyhinədirlər (167, 25-38). Kərtmə tipli qəbirlərdən tipik iskit avadanlıqlarının tapılmasını A.Smirnov dəfnlərin keçid formasında olması ilə izah etmişdir (178, 41-42). Antropoloji müqayisəyə üz tutan digər bir tədqiqatçı iskitlərlə kərtmə mədəniyyəti daşıyıcılarının kəllə sümükləri arasında ciddi fərq olmadığını göstərir (65, 9).

Bütövlükdə iskit-sarmat qəbir abidələrini 3 qrupa bölmək mümkündür: torpaq kurqanlar (V-III), daş örtüklü kurqanlar və xereksurlar. Bu halda e.ə. VI əsrin sonlarına qədər kurqanların, e.ə. IV-III əsrlərdən isə katakombaların əsas qəbir olduğunu güman etmək olar (145, 20). Belə qəbirlərdə ölünü əsasən kürəyi üstə düz uzadır, bəzən bükülü vəziyyətdə qoyurdular (136, 31). Klassik Karasuk qəbirlərində, adətən, tək dəfnetmə üstün olub, ölünü qəbrin şimal-qərb divarına doğru kürəyi üstə və ya sol böyrü üstə yarımbükülü vəziyyətdə uzadırdılar. Şimal və mərkəzi qəbirlərdə ölülərin başı şimal



və şərq, cənub rayonlarda qərb və cənub-qərb istiqamətdə qoyulurdu. Ölənin başının sol tərəfinə içki olan 1-2 qab, ayağı üzərinə taxta sinidə at əti qoyurdu. Çox vaxt ölünün üst geyimi saxlanırdı (44, 53-55). Statistik məlumatlara əsasən, erkən iskit dövrü Dağlıq Altay əhalisi ölüləri adətən sol böyrü üstə, bükülü vəziyyətdə dəfn edirdi. Anoloji mərasim aldıbel mədəniyyəti abidələri üçün də xarakterik olmuşdu (221)

Taqar cəmiyyətində ilkin dövrlərdə dəfnlər basdırılma, sonrakı dövrdə kremasiya üsulundan istifadə ilə həyata keçirilirdi (142, 240). Qaradənizin Şimal sahili iskitlərində dəfnetmə adəti üstünlük təşkil etsə də, yandırılma halları da qeydə alınmışdı. Belə ki, Kirovoqradda 3, Krımda 4 dəfn bu üsulla həyata keçirilmişdi (175, 349).Taqar qəbirlərində ölü qəbirdə kürəyi üstə uzadılır, başı cənub-qərb, bəzən şərq istiqamətinə qoyulurdu (şək. 3.3.). Qadın qəbirlərində geyim, bəzək əşyaları, güzgülər, kişi qəbirləridə xəncər, döyüş baltası, dəri oxuluqda ox, kaman və s. olurdu. Saqlın mədəniyyətində böyüklər, o cümlədən qadınlar bir sırada, başları qəbir kamerasının qərb, şimal-qərb istiqamətində, uşaqlar isə onların aşağısında, ayaqları bükülü, sol böyrü üstə dəfn olunurdu (58,171).

Taqar mədəniyyətinin Tesin dövründən etibarən kollektiv dəfnetmə prosesi artmağa başlayır (44,86). Qəbirdə iki giriş quyusunun olması ilə əlaqədar güman ki, belə qəbirlər qohumların tədricən (ölən olanda) bir yerdə dəfn olunmasından yaranmışdı. Digər hallarda, bir girişi olan kollektiv dəfnli qəbirlərdə ölülərin eyni vaxtda dəfn olunduğu ehtimal edilirdi. Adlı-sanlı şəxslərin kurqanlarında bu hal özünü daha aydın göstərir, belə ki, onları bir qayda olaraq, asılı şəxs müşayət edirdi. Krımın e.ə. IV-III əsrlər şərq əraziləri üçün də ölülərin kollektiv dəfni xarakterik olmuşdu (175, 349). Yaqunya, Tisul və Serebryakovo kimi kurqanlardakı kollektiv qəbirlərdə müxtəlif yaş və cins nümayəndələri vardır. Təkcə Yaqun-

yanın I kurqanının I qəbrində 13 ölünün 10-u kişi, 2-si 20-55 yaşlı qadın və 1 uşaq, II kurqanında I qəbirdə 6 kişi və 1 qadın; XIII kurqanın I qəbrindəki 39 ölüdən 20-si kişi, 11-i qadın, 8-i uşaq olmuşdu. Təqribən oxşar sadalama Sersbryakovo və Tisul qəbirlərində də müşahidə edilmişdir (123, 120). Bu, onu göstərir ki, həmin dövr üçün Taqar cəmiyyətində tək kişi və ya qadın qəbirləri olmamış, ölülərəsasən kollektiv dəfn edilmişlər.

Tədqiqatçılar içərisində təəssüf doğuran bir baxış – Sibiri iskit mədəniyyətinin dəyişilmiş vəziyyətdə gəlib çatdığı ucqar yer hesab etmələridir. Belə bir fikrin mövcudluğu Qaradəniz sahili ərazilərdən «çar» kurqanlarının tapılması, bu kurqanların zənginliyi ilə bağlanırdısa, sonralar eyni qüdrətə, zənginliyə, möhtəşəmliyə malik qəbir abidələrinin Asiya iskitləri üçün də xarakterik olması sübut olundu. Kubanboyu -Kelermes, Ulsk, Yelizavetov, Voronej dayanacağı ətrafında iskitlərin zəngin avadanlıqlı kurqanları, Herodotun təsvirindəki çar kurqanları ilə oxşarlıq tapdığı kimi, Dağlıq Altayın iskit dövrü qəbirləri, Aralboyunun Taqisken və Uyqarak, Semiereçyenin Besşatır, Tuvanın Arjan kurqanları ilə də analogiya təşkil edir (45,81). Odur ki, bu kurqanların quruluşuna ayrı-ayrılıqda nəzər salmağı lazım bildik.

Abakan şəhərindən 60 km şimalda yerləşən Salbık dərəsində 5 km radiusda 56 kurqan qeydə alınmışdı ki, onların bəzisinin hündürlüyü 11 m-ə çatırdı. Piramida formasını saxlayan Böyük Salbık kurqanın təpəsi gil qatılmış brigetdən (kərpic, preslənmiş kömür, torf və s.) ibarətdir. Əvvəllər təpə örtüyü 25 m olmuş, lakin təqribən 2 min il müddətində tədricən çökən kurqan, indiki 11 m hündürlüyü ilə yenədə şəhanə görsənir. Çökmüş torpaq monumental hasarı gizlətsə də, kütləsi 50 t olan, hündürlüyü 5 m-ə çatan künc daşları qalmaqdadır (45, 83).

Dağlıq Altayın Ulaqan rayonunda, Pazırık çölündə e.ə. V-



IV əsrlərdə yaşamış qəbilə və ya tayfa başçılarının qəbirlərindən ibarət kurqanlardan dərinliyi təqribən 4 m, sahəsi 50 $m^2$ olan düzbucaqlı çalalar aşkar edilmişdir. Hündürlüyü 2m olan dəfn kameraları bu çalalarda yerləşdirilmişdir. Qədim buzlaq mənşəli Pazırık dərəsindən 5 böyük daş kurqan qazılmışdı. Kurqanların əsas istiqaməti cənub və şimal yönümlüdür. Pazırık kurqanlarının hazırlanmasında 1800 $m^3$ daşdan, 500 qara şam ağacı tirindən istifadə olunmuşdur. Pazırık kurqanlarının ölçüsü fərqli idi.I Pazırık kurqanının yerüstü hissəsinin d - 47 m, h – 2.2 m, II Pazırık kurqanının h 3,75 m, d – 36 m, III Pazırık kurqanının d 36 m, h 2.6 m, IV Pazırık kuraqının d 24 m, h 1.5 m, V Pazırık kurqanının d 42 m, h 3.75 m olmuşdu (61,13-14; 57,46). Pazırık kameralarının arası kiçik daşla doldurulmuşdu. Kurqanın şimal hissəsində 10 at dəfn olunmuşdu. Qəbir kamerasında bir sarkofaqda kişi və qadın dəfn edilmişdir (166, 13-15). Altayın digər çar kurqanlarının ölçüləri isə belədir: I Başadar d - 40, h 1,6-2 m, II Başadar d - 58, h 27 m, I Tuektin d- 68 m, h 4,1 m, II Tuektin d -32 m, h 2,6 m, III Tuektin d - 62 m, h 5,4 m, IV Tuektin d - 48, h 3,7, V Tuektin d - 53, h 4,1 m, Şibyənin d - 45 m, h 2 m. (57, 46).

Karakol çayının sol sahilindəki qəbristanlıq sahəsində 57 iskit tipli qəbir abidəsi qeydə alınmışdır. Başadar kurqanları e.ə. VI-IV əsrlərə aid olub, daş, torpaq örtüklüdür. Dağlıq Altay qəbirlərinin xarakterik cəhəti kurqanların qrup şəklində, meridian istiqamətində yerləşməsidir. Kurqanlardan şərqdə şaquli şəkildə sıra ilə 9 daş torpağa basdırılmışdı. Kurqanın donmuş qatı 3,2 m dərinliyə qədər çatır. Qəbir quyusunun cənub hissəsi, torpağın üstündən 4 qat ağac kəsmədən ibarətdir. Şimal divarı yanında 7, şimal-şərq küncündə 3 at dəfn olunmuşdu. II Başadar kurqanında 19 at cəsədi və 0,6 x 2,4 m ölçülü sarkofaqda kişi dəfn olunmuşdu. Kurqanın digər kamerasındakı sarkofaqda balzamlanmış kişi və qadın

meyidi aşkar edilmişdir (168, 22-38). II Başadar və Pazırık kurqanlarının qəbir kameraları qalın tirlərdən hazırlanmış, tavanı keçə ilə örtülmüşdü (168, 325).

Ursula çayının sol sahilində, Tuekta kəndində Tuektin qəbiristanlığının 110 ha sahəsində 197 qəbir qeydə alınmışdı. I Tuektin kurqanının qəbir quyusunun sahəsi 7,10x7,40 m, yuxarı hissədə dərinlik 7,1 m-dir. İkili qəbir kamerası qəbir quyusunun 2/3 hissəsini tutur. Xarici kameranın ölçüləri 4,98x5,91 m, divarının hündürlüyü 2,12 və ya 2,34 m-dir. Daxili kameranın isə hündürlüyü 1,75 metrdir(168, 96-108). Onun digər kurqanlardan fərqi, burada at əsləhəsinin qəbrə, ölünün yanına yox, kameranın içərisinə qoyulmasıdır. Daş örtüyünün altında buzlaq izləri qeydə alınıb. Təəssüf ki, o dövrün digər qəbirləri kimi Tuektin kurqanları da qarətə məruz qalmışdır.

Tuva ərazisində diametrinə görə ən böyük kurqan Arjandır. (Uluq-Xorum-böyük kurqan). Yaxın keçmişdə onun d - 120 m, h 3-4 m olmuşdu. Kurqan təpəsi yonulmamış, orta ölçülü-çəkisi 20-50 kq, uzunluğu 20-40 sm tikinti daşından ibarət olmuşdu. Belə orta çəkili daşlardan əlavə, müəyyən nəqliyyat vasitələri və ya iplərin köməyilə gətirilən iri daşlar da vardı. Burada istifadə olunan iri tirlərin orta d - 30 sm, 50-60 sm, hətta 85 sm idi. Kurqan örtüyünün bütün aşağı hissəsi bütöv bərk tavanla örtülmüşdü. Bunun üçün 2,5-3 m hündürlükdə ağaclardan istifadə edilmişdi. 70 kameradan ibarət dairəvi platformasının d- 80 m, sahəsi 5000 m$^2$ olmuşdu (123, 121). Arjanın ağac tir tikililəri sözün əsil mənasında kəsmə olmayıb, çapmadır və tirlər bir-birinə geydirilmişdir. Kurqanın ağac tikilisinin qərb hissəsi pis saxlandığından, burada döşəmə qalıqlarına nadir hallarda rast gəlinirdi. Arjan üçün arxitektura cəhətdən yarımçıqlıqlar nəzərə alınaraq ümumi plan hazırlanmışdır. Yəqin ki, ilkin olaraq mərkəzi kamera tikilmiş və burada «çar» və yaxınları dəfn olunmuşdu. Sonra mərkəzdən şərqə doğru 2 radius sırasıyla kəsmələr: 2 və 7-ci kameralar, daha sonra digər 6 iri kamera hazırlanmış və sonuncu ilə eyni vaxtda yerdə qalan arakəsmələr tikilmişdi. Kameralar arasında dar və ya geniş keçidlər qoyulmuşdu (60, 14). Arjan arakəsmələri ətrafında 8 kiçik sarkofaq vardı. S.İ.Rudenko Dağlıq Altayda eyni tipli 2 variantlı kötük-sarkofaq qeydə almışdı. Pazırık kurqanında 2 cüt, Başadar kurqanında isə 4 cüt oyuğu kötüklər vardı. Onlar d – 1 m, uzunluğu 5 m olan qara şam ağacı gövdəsindən hazırlanmışdır. Sarkofaqın yuxarı kənarlarında xoruz təsviri qalay zərlə örtülmüş, digər sarqofaqda isə qaçan maraq təsvir olunmuşdu. Çarın (başçı) dəfn olunduğu II Başadar kurqanının sarkofaqında fərqli təsvirlər var. Sarkofaqın üz hissəsində bir-birinin ardınca gedən pələng fiqurları oyulmuş, sol tərəfdəki pələngin yanında sığın təsvir olunmuşdur. Qapaq hissədə bir-birinin ardınca gedən 4 pələng, onlardan aşağıda 2 sığın, 2 qaban və müxtəlif vəziyyətdə 3 dağ qoyunu təsviri vardı (168, 47). Analoji təsvirlər II Sardurinin Teyşebainidən tapılan bürünc qalxanında, Urmiya gölü sahillərindən qeydə alınmış bürünc lövhədə, Persopolda təsvir olunan Kserksin paltarı üzərində, III Artakserksin qəbrində, Suz sarayının rəngli divar təsvirlərində və V Pazırık kurqanından tapılan parça üzərində rast gəlinmişdir (168, 271).

2000-2003-cü illərdə Dövlət Ermitajının Mərkəzi Asiya arxeoloji ekspedisiyası və Almaniyanın Arxeologiya İnstitutu e.ə. VII əsrin II yarısına aid II Arjan kurqanını qazmışdır. Buradan iskit ənənəsinə uyğun olaraq, qızıl, zinət əşyaları, silahlar, atla birlikdə dəfn qeydə alınmışdır (212, 10,15). Bütün bu tapıntılar əldə olunduğundan, heç də iskitlərin Sibirə sonradan gəlmələri fikrinə müsbət münasibət bəsləmək olmur. Aydındır ki, Asiya çöllərinin əhalisi kifayət qədər yüksək mədəniyyət yarada və yaya bilərək, öz həmdövrlərinin əksəriyyətini geridə qoya bilmişdilər.

### 3.2. Məişət və təsərrüfat abidələri

Son dövrlərə qədər iskit arxeologiyası əsasən kurqanların – qəbir abidələrinin şərhindən ibarət olmuş və yalnız bu yönümdə arxeoloji mədəniyyətlər, onların xronologiyası, mənşəyi və s. məsələlər araşdırılmışdır. Bu, bir tərəfdən qazıntılar nəticəsində məişət-təsərrüfat əşyalarının azsaylı və gözəçarpan olmaması, digər tərəfdən iskit dövrünün «erkən köçəri əsri» hesab olunması və bununla da yaşayış məskənlərinin axtarılmasının lüzumsuzluğu ilə bağlı olmuşdur. Lakin hal-hazırda bütün iskit-sibir dünyasında, o cümlədən Sibirdə iskit və Taqar yaşayış məskənlərinin olması müəyyənləşdirilmişdir. Qərb iskitlərinin yaşayış məskənlərinin öyrənilməsi Dnepr yaxınlığındakı Kamenski şəhərinin tədqiqi ilə, Sibir ərazisində isə, bu yönümlü araşdırmalar Minusinsk çökəkliyindən başlanmışdı. Burada indiyə qədər 100-dən çox Taqar məskəni qeydə alınmışdır (18). Ust-Erbin, Tes, Abakan, Krivaya və s. məskənlər, o cümlədən Krasnoyarsk arxeoloji ekspedisiyası tərəfindən qeydə alınmış Lobik kəndindəki Qrişkin Loq məskəni XX əsrin 50-60-cı illərindən etibarən öyrənilmişdir. A.İ.Martınov keçən əsrin 70-ci illərində Sibirin meşə-çöl rayonlarında I və II Şestakov, Tambar, Bolşepiçuqin, Tretyakov, I və II Utinsk, Tisul və başqa məskənləri elmə təqdim etmişdir (125,163-173).

Kifayət qədər çoxsaylılıqı ilə seçilən bu abidələri tədqiqatçılar ümumiləşdirməyə çalışmışlar. Martınov A.İ., Alekseyev V.P. iskit-sibir dünyası məskənlərini üç qrupa ayırmışlar:

I. Möhkəmləndirilmiş məskənlər – uzunmüddətli yaşayış yeri, zəngin mədəni təbəqəsi, müxtəlif arxeoloji materialı olan şəhərlərdir. Onların içərisində ölçülərinə və quruluşuna görə seçilən Kamenski, Şestakov, Ust-Erbin, Znamensk siyasi-ideoloji mərkəz sayılmışlar.

II. Uzunmüddətli, möhkəmləndirilməmiş məskənlər – daha xarakterik tip sayılaraq, kifayət qədər yayılmışdır.



III. Müvəqqəti, mövsümi məskənlər (yaylaqlar) (123, 68). Burada alaçıq tipli yaşayış yeri və heyvanlar üçün təsərrüfat tikililəri qurulurdu. Belə yerlərdə mədəni təbəqə olmasa da, arxeoloji tapıntılar, adətən gil qab qalıqları ilə təqdim edilmişdir.

M.B.Absalamov Taqar-iskit məskənlərinin üç qrupa bölünməsi ilə razılaşaraq, I qrupa aid 92, II qrupa aid 5, III qrupa aid 7 məskənin təsvirini vermişdir (18,15). Çox güman ki, burada erkən müdafiə xarakterli möhkəmləndirilmiş şəhərlər e.ə. III əsrdən tez yaranmayıb və onlar əyri, qövsvari torpaq səngərlə, sıldırımla əhatələnir, planda dairəvi və ya dördkünc olurdu. Qeyd edək ki, bu şəhərlər təkcə yaşayış məskəni deyil, həm də istehkam, sığınacaq xarakteri daşımışdır. Daimi düşərgələrin ümumi əlaməti onların hündür əlçatmaz subasarlarda, su mənbəyi yaxınlığında yerləşməsidir. Krasnoyarsk diyarının Açinsk şəhərinin yaxınlığında Çulım çayının sağ sahilində yerli diyarşünas Q.A.Avramenko tərəfindən Staroaydaşin məskəni qeydə alınmışdır(17, 61-62). Yaşayış məskəninin şimal-şərq sərhəddində torpaq kurqanı yerləşmişdir. Məşhur Aydaşin mağarası yaşayış yerindən 2-3 km cənub-şərqdədir. Arxeoloji materiallar müxtəlif saxsılarla, dən daşı, osteoloji qalıqlarla təqdim olunmuşdur. Saxsı qablar üzərindəki naxışlar belə qabların e.ə. V əsrə aid olduğunu göstərir. E.ə. III əsrin II yarısı - e.ə. I əsrlərdə mövcud olmuş Şestakov möhkəmləndirilmiş şəhəri 160x190x190m sahəni əhatə etsə də, onun divarlarından indiyə 0,4-0,6 m hündürlükdə, 5-6 m enində qalıqlar qalmışdır (123,66). Xakas vilayətinin Boqrad rayonunun Znamenki kəndindən 8 km aralıda 1976-cı ildə A.İ.Martınov və A.M.Korotaev tərəfindən tədqiq olunmuş şəhər 220x100 m sahədə, 20-30 sm qalınlığında mədəni təbəqəyə malikdir. Saxsı məmulatları Znamenki şəhərini son Taqar mərhələsinə aid etməyə imkan verir (17,

77-79). Martınov A.İ., Absalamov M.B. Taqar istehkamlarını – şəhərləri bir neçə formada təqdim etmişlər: əyriformalı torpaq xəndəkli; dairəvi formalı; xəndək və bəndlərlə əhatə olunmuş; dördkünc formalı, torpaq xəndəkli (17, 82). S.V.Kiselyovun 1931-ci ildə tədqiq etdiyi Ust-Erba kəndindəki məskən 2m dərinliyində xəndəklə əhatə olunmuşdu (123, 66).

1971-ci ildə A.M.Kulemzin və A.İ.Martınov tərəfindən Kemerovo vilayətinin Tisulsk rayonunun Tretyakovo kəndi yaxınlığında yaşayış məskəni üzə çıxarılmışdır (17, 63). Əsas arxeoloji material saxsı olsa da, sümükdən hazırlanmış üçpərli, rombvari və yarpaqvari ox ucluqları, sümük iynələr, at əsləhəsi və s. Cənubi Sibirin digər abidələrində də özünə analogiya tapılmışdır. Eyni zamanda buradan tunc bıçaqla yanaşı, 3 ədəd dəmir bıçaq da qeydə alınmışdır. Maraqlı tapıntıları ilə seçilən Utinsk yaşayış yeri 1965-ci ildə A.M.Kulemzin tərəfindən qeydə alınmış, 1971-ci ildə Y.M.Borodkin, 1972-1975-ci illərdə A.V.Sirkin və M.B.Absalamov tərəfindən tədqiq edilmişdir (17,64). Çoxtəbəqəli və zəngin mədəni təbəqəsi olan Utinskdə yaşayış erkən Taqar dövründən Taştık mədəniyyəti də daxil olmaqla, böyük bir mərhələdə davam etmişdir. Yaşayış məskəni yaxınlığındakı kurqandan bankavari, ayaqlı qablar, həm yaşayış yerindən, həm də qəbirdən tapılan üçpərli ox ucluğu bir daha erkən Taqar dövrünün burada əks olduğunu göstərir. Digər nəzərə çarpan hal isə burada dördkünc formalı ev qalıqlarının qeydə alınmasıdır.

Krasnoyarsk vilayətinin Şarıpov rayonunun Temra gölü yaxınlığında 1975-ci ildə arxeoloji kompleks açılmışdır. Erkən Taqar dövrünə aid edilən yaşayış yeri və birtəbəqəli 35-40 sm ölçüsündə mədəni təbəqəsi olan kompleksdən tapılan saxsı məmulatı saraqaşen dövrünə və qismən daha erkən dövrə aiddir. Buradan böyük ev heyvanlarının sümükləri,



dən daşı və digər təsərrüfat qalıqları tapılmışdır. 14 kurqandan ibarət qəbir kompleksi yaşayış yerindən 300 m qərbdə yerləşmiş, orta ölçülü, üst örtüyü 6-9 daşlı olub, Taqar mədəniyyətinin Bainovsk və Podqornovsk mərhələləri üçün xarakterikdir (17, 68-69). Temra arxeoloji kompleksinə həm də metaləritmə (mis, tunc) yerləri də aid edilir.

Müvəqqəti düşərgələr maldar təsərrüfatları ilə bağlı olub, arxeoloji tapıntıların azlıgı ilə seçilir. Ambarnı, Tokanovo kiçik çayları ətrafında, Parnaya, Böyük Piçuqin, Solovyovqorı kəndlərində belə yaylaqlara rast gəlinmişdir. Əlavə edək ki, mədən yataqları və metaləritmə yerləri də müvəqqəti yaşayış məskəni olmuşdur. Qədim metallurqlar yüngül yerüstü daxma-çadırlarda yaşayırdılar (18; 17, 63, 82-84). Tuva ərazisində misəritmə yataqları Xovu-Aksı rayonunda Buren-Xem çayının yuxarı axarında və Kaa-Xemsk rayonunda Bay-Syut çayı vadisində öyrənilmişdir. Uyuk tayfaları artıq e.ə. VII-VI əsrlərdə dəmirlə tanış olduqlarından, bu ərazidə dəmir istehsalı rayonları da formalaşmışdı. Qara-Suq dərəsində, Buren-Xemanın yuxarı axarında, Şarbak dağı ətrafında, Altı-Xurak dərəsində, Çevarlık, Ay-Əzim, Kurqat-Oy və s. yerlərdə dəmir istehsalı həyata keçirilirdi (118, 44).

Məlumdur ki, yaşayış evlərinin quruluşu təkcə təbiət-iqlim şəraitindən yox, həm də dövrün ictimai-sosial inkişaf səviyyəsindən, yerli tikinti materiallarının xüsusiyyətlərindən də asılıdır. E.ə. I minillikdə Avrasiya çöllərinin köçəri-maldar tayfalarının təsərrüfat həyatındakı fərqli inkişaf prosesi, eyni zamanda evlərin də dəyişməsinə səbəb olurdu. Əgər Sibirin göstərilən dövr təsərrüfat həyatına nəzər salsaq, bu yaşayış yerlərinin təsadüfi olmamasını, burada həm əkinçilik və maldarlıqla məşğul olan, habelə yerli iqlim şəraitinə uyğun ağaclardan istifadə edən əhalinin həyat tərzini görə bilərik.

A.İ. Martınov Sibirin iskit dövrü evlərini qruplaşdırmış və

onların 4 fərqli tipologiyasını vermişdir: I qrupa – dördkünc formalı, ağacdan tikilmiş yerüstü ev; II qrupa – möhrdən tikilmiş evlər; III qrupa – yarımqazmalar və IV qrupa – alaçıq tikililəri aiddir (123, 69). M.B.Absalamov isə 3 tip yaşayış evləri ayırd edir: dördkünc, kəsmə evlər; çadırvari - konusşəkilli; təsərrüfat tikilisi olan dördkünc daş evlər (18, 70).

İskitlərdə əsas ev arabalar olmuşdur. Həm yazılı mənbələr, həm də arxeoloji qazıntılar nəticəsində tapılan araba qalıqları bunu təsdiq edir. Herodot «iskitlərin nə şəhəri, nə istehkamı var və öz evlərini özlərilə aparırlar, onların evləri – araba alaçıqlarıdır» - deyə yazırdı (52, 198-199). E.ə. V-IV əsrləri əhatə edən müddətdə qışlaqlar və yaylaqlar formalaşır (şək.3.4.). Bu dövr evləri qismən möhkəmləndirilmiş konusvari çadırlardan ibarət olurdu. İkikameralı, 0,60-0,80 m dərinlikdə yerə dayaqlanmış, 0,80x1,35 m və 1x1,75 m ölçüdə olan evlər yarımdairəvi və ya düzbucaqlı formada olurdu(49, 25). Bu dövr üçün həm də yarımqazma tipli evlər xarakterik olmuşdur.

Sibir ərazisində Taqar mədəniyyətinin yaşayış yerini əks etdirən məşhur Böyük Boyar təsvirləri mühüm abidə hesab olunur. Burada sözün əsl mənasında bir Taqar qəsəbəsinin tipik mənzərəsini görmək mümkündür. Belə ki, təsvirdə bir neçə konusvari örtüklü tir, alaçıqvari evlər, adamlar, heyvanlar, iskit tipli qazanlar və s. aydın ifadə olunmuşdur (şək. 3.5.). Konusşəkilli alaçıqların mərkəzində açıq tipli ocaq yeri olur və giriş şərq tərəfdən yerləşdirilirdi. Müxtəlif abidələrdə 30-a qədər belə «ev»lər qeydə alınmışdı. Boyar və Kunin təsvirlərindəki konusvari evlərin yuxarısı dairəvi haça ilə tamamlanırdı. Bu tip evlər bütün Sibir xalqlarında XIX əsrə qədər mövcud olmuşdur (18, 82). XX əsrin 70-ci illərinin əvvəllərində Şestakov şəhərində 3 ədəd düzbucaqlı yerüstü ev qalığı açılmışdı. Planda kvadrat formalı olan bu evlərin 3-3,5m ölçüsü vardı. Oxşar formalı 9 bina qalıqları Krasno-



yarsk diyarının Kosoqol kəndi yaxınlığında da qeydə alınmışdı. Yaşayış yerlərinin ümumi sahəsi 14-16-m$^2$ təşkil edirdi, isitmə sistemi 3 konstruksiyalı: çalada yerləşdirilmiş dairəvi; daşlarla əhatələnmiş yerüstü, daş və ya gildən tikilmiş soba-ocaqdan ibarət olurdu (123, 68). Qazıntılar göstərmişdir ki, Şestakovo yaşayış yeri ətrafında böyük həyətdə təsərrüfat tikililəri də qalmışdır. Kemerovo vilayətinin Utinsk qəsəbəsində 5x7 m ölçüsündə yanaşı 6 ədəd düzbucaqlı yaşayış evləri qeydə alınmışdır. Belə evlərdə möhrə əsaslı iri ocaq izləri də nəzərə çarpırdı (123, 69). Dördkünc, kəsmə evlər planda kvadrat formalı olub, ağac tirdən düzəldilir, giriş qapısı şimal-qərbə açılırdı. Belə evlərdə iki ocaq, təsərrüfat tikilisi və həyət olurdu. 1971-ci ildə A.İ.Martınov Taqar dövrünə aid belə yerüstü yaşayış yerlərini qeydə almışdı (18, 72). Böyük və kiçik Boyar təsvirlərində I Şestakovo yaşayış yerlərini aydın göstərmək mümkündür (şək. 3.6.)

Tuva əhalisinin bəhs etdiyimiz dövrdə əsas yaşayış evləri hörmə (şəbəkəli) keçə alaçıq və yerüstü ağac kəsmədən ibarət idi. Uzun ağaclardan düzəldilmiş, əsasən Sibir köçərilərinə xas olan çum-alaçıq konusvari formada olub, heyvan dərisi və ya tozağacı ilə örtülürdü (104, 96). Göründüyü kimi, Tuvanın iskit dövrü evləri Sibirin müxtəlif əraziləri üçün xarakterik və həmdövr yaşayış yerlərindən kəskin fərqlənmirdi. Xakasiyanın Boyar rəsmlərindəki məşhur alaçıqlar hətta müasir dövrə qədər Mərkəzi Asiya və Cənubi Sibir maldarlarının alaçıqlarından da seçilmirdi (90, 191). Maldar əhalisi qış və yay otlaqlarında evlər tikirdi. Belə evlərdə bir qayda olaraq döşəmə və tavanı kəsmə tirlərdən düzəldirdilər. Kemerovo vilayətində aparılan tədqiqatlarda yerüstü Taqar tikililərinin 3 qrupu müşahidə olunmuşdu: dördkünc kəsmə və daş evlər, həmçinin konusvari, ağacdan düzəldilmiş alaçıqlar (44, 94). Təbii ki, alaçıqlardan başqa, digər stasionar yaşayış yerlərinin hər biri özünəməxsus təsərrüfat kompleksinə ma-

lik olurdu. Belə komplekslərdə təsərrüfat quyuları, mal-qara üçün ağıl, yataq damları və s. olurdu. Təsərrüfat tikintiləri üçün daş, ağac, möhrə, çubuq və bu kimi materiallardan istifadə olunurdu.

Taqarlıların təsərrüfatında əsas yeri maldarlıq tuturdu. Mal-qaranın qorunması üçün damğalamadan və xüsusi itlərdən istifadə edildiyini qəbir avadanlıqları ilə yanaşı, onların divarboyu və döşəmə altından tapılmış qalıqları da təsdiq edir. Taqarlılarda primitiv əkinçilik izlərinə də rast gəlinmişdir. Daş kirkirələr və əl dəyirmanı, çoxlu sayda tunc oraqlar, habelə bir sıra qəbirlərdə taxıl, darı arpa qalıqları tapılmışdı. Belə guman olunur ki, Taqar tayfaları süni suvarmadan da istifadə etmişlər. Qazıntılar nəticəsində üzə çıxarılan kanallardan daha çox mal-qaranın su içməsi üçün, həm də quraqlıq zamanı istifadə olunmuşdur (44, 94).

Məişət əşyaları və əmək alətləri iskit qəbir avadanlıqları içərisində özünəməxsus yer tutur. Məişət qablarının bir çoxu taxtadan düzəldiyindən, çürümüş və qazıntılar zamanı bütöv halda rast gəlinməmişdir. Herodotun məlumatına görə, iskitlər taxta qablarda at südü saxlayırdı (52,187). Sibir ərazisində bütöv ağac məmulatları saxlanmamış, yalnız onların bəzi qalıqları buzlaşma nəticəsində çürüməyərək bu günümüzə gəlib çatmışdır. Şimali Qara dəniz sahili həm də ağac qablarla seçilən qəbirlərlə də zəngindir. 608 qəbirin 140-da sırf ağac məmulatı və ya onun izləri qalmışdır (49, 73). Lakin hal-hazırda iskitlərə məxsus ağacdan düzəldilmiş və bütöv halda qalmış 3 tapıntı məlumdur: 1) 1914-cü ildə N.E.Makarenko Kaxovka yaxınlığında V Mordvinov kurqanından. 2) 1954-cü ildə P.D.Liberovanın qazıntılarında Voronej yaxınlığında Çastıx kurqanından və 3) Soloxa kurqanından belə qablar tapılmışdır. Mordvinov qabı-şarvari gövdəyə, dairəvi oturacağa malik, enli boğazlı və iki horizontal qulplu olub, heç bir bəzəyi yoxdur. Voronej qabı-yanları düz, yarımsferik



kasadır, onun quş fiqurlu qulpu qızılla örtülmüş, qulpun əks tərəfinə düzbucaqlı maral təsvirli qızıl lövhə bərkidilmişdir. Qara rəngli, kiçik qulplu Soloxa qabı-qazanla birgə cənub kameradan tapılmışdır (119, 23). Qeyd edək ki, ağacdan mücrülər, iynəqabı, güzgü, xəncər və s. üçün çexol, qulp, xərəklər, hətta taxta qutu qəbirlər də düzəldilirdi (49, 73). II və III Pazırık kurqanlarından belə qablar tapılmışdı. II Pazırık kurqanından tapılan qablardan biri kürəkvari oturacağa və qısa qulpa malik tayqulp parç formasında olub, yuxarı küncü azca əyilmişdir. Digər qab şarvari formada, uzun qulpludur. Qulpa öküz buynuzu keçirilib, asqı üçün yer qoyulmuşdu (167,44). Tuva tapıntıları içərisində də dairəvi oturacaqlı, şarvari gövdəli, qısa qulplu çıxıntılı parçlar, ağac kötükdən oyulmuş nəlbəki və fincanlar vardı (118, 61).

Metal və taxta qablarla yanaşı gil qablardan da istifadə edilirdi. Məişətdə qablara olan ehtiyacı ödəmək üçün dulus çarxından əlavə, əl ilə də qablar hazırlanırdı. Eyni zamanda, varlı iskitlər gətirilmə yunan qablarına da üstünlük verirdi. İskit-sibir dünyasının saxsı qablarının əsas xüsusiyyəti onların əksərən ornamentsiz olmasıdır. Qablar içərisində müxtəliflik təqribən e.ə. IV-III əsrlərdən artmağa başlayır(şək. 3.7.) Ola bilsin ki, qabların yuxarı və aşağı hissələri ayrı-ayrılıqda xüsusi qəliblərdə düzəldilirdi.

Taqar əhalisi mədəniyyətin inikşaf çağlarında təqribən 33 növ qabdan istifadə edirdi (124,60-64). Onlar arasında bankavari, kasa, nəlbəki, piyalə, tayqulplu parç, ayaqlıqlı, qulplu və qulpsuz qablar geniş yayılmışdı. Keermutsinin dörd saylı daş qutu qəbrindən (2,35x3,30m) insan sümük qalıqları ilə yanaşı tapılmış 16,7-sm hündürlükdə, ağzının diametri 6,7-sm, oturacağı 7,7-sm olan qab Çin arxeoloqlarının məlumatlarına görə, dulus çarxında hazırlanmışdır (221). Keermutsinin digər qablarından açıqca fərqlənən tapıntı ölçü və formasına görə qonşu ərazilərin iskit dövrü qablarına, məsələn,

Dağlıq Altayın Pazırık küplərinə (bardaq) oxşardır. Krasnoyarsk vilayətindən tapılan saxsılar bankavari, konusşəkilli və piyaləvaridir. Tiyan formalı və qulplu qazanlar isə iskit qazanı formasındadır (142, 242,245). Xakas-Minusinsk çökəkliyi və Açinsk - Mariin rayonunda ayaqlıqlı, 2 və 4 bucaqlı, üzəri qoyun buynuzu təsvirli qablardan istifadə olunurdu. Gil qabların bəzisi dişli, hörmə xətli, dalğavari, ziqzaqvari naxışlarla bəzədilirdi (142, 245). Taqisken və Uyqarak materiallarında armudvari qablar üstünlük təşkil edirdi (48, 204). Taqarlılara məxsus yastı oturacaqlı bankalar mirvari və novçalarla bəzədilirdi. Podqornovsk dövründə bəzəyi qabırğa formasında olan qablar, saraqaşen dövründə naxışsız vaza və ya konusvari ayaqlıqlı qazanlar, tesin dövründə kiçik ölçülü, naxışsız, ayaqlı qablar yayılmışdı (44, 90).

Tuvada erkən dövrlərdə dulus çarxı məlum olmadığından gil qablar əllə düzəldilirdi. Belə qablar qeyri bərabər bişirilir, boz, qırmızı-boz və qırmızı rəngli olurdu. Uyuk kurqanlarından tapılan gil qablar bir neçə qrupa bölünür: 1) dar boğazlı, şarvari gövdəli səhəng, 2) bankavari, 3) ikiqulplu şarvari, 4) yuvarlaq, 5) dairəvi qulplu, 6) qabarıq kənarlı çəlləkvari, 7) qabarıq oturacaqlı, yarımyumurtavari, 8) konusvari yapma naxışlı, 9) vazabənzər yumurtavari gövdəli, 10) bardaqvari (118, 61).

Sibirin iskit dövrü əmək alətləri qrupuna bıçaq, biz, bülöv daşı, daş kirkirələri aid edilir (şək. 3.8.). Həm hərbi, həm də təsərrüfat xarakteri daşıyan bıçaqlar, tunc və dəmirdən hazırlanaraq, dəri futlyarda saxlanırdı. Altay, Minusinsk çölləri, Qazaxıstan və hətta Monqolustan tapıntıları ilə müqayisədə M. Mannay – Ool bıçaqları 8 qrupa ayıraraq, onları belə təsnifatlandırır: 1) qövsşəkilli, külüngvari dəstəkli; 2) dirsəkli (buğumlu), 3) tutacağı olmayan, bir deşikli bütöv; 4) Taqar tipli bir oyuqly, kiçik, dairəvi; 5) tunc lövhəşəkilli, təkilgəkli; 6) halqalı; 7) qıvrımşəkilli bəzəkli; 8) dəmir lövhəşəkilli



(118, 56, ş. 12)

I və II tip bıçaqlar e.ə. VII-VI əsrlərə aid olub Karasuk tipli sayılır. Şimali Çin, Monqolustan, Baykalətrafı ərazilərdən tapılan belə formalı bıçaqlar, Uyuk kurqanlarında mütləq əksəriyyəti təşkil etməklə yanaşı, e.ə. V-III əsr Altay, Monqolustan, Ordos, Minusinsk kurqanlarından da qeydə alınmışdır (167,cəd XXII; 89,266). Halqalı bıçaqlar e.ə. III-II əsrlərədək mövcud olmuş, sonralar isə tunc bıçaqlar tamamilə dəmirlə əvəzlənmişdi.

Sibir tapıntılarına əsaslanan arxeoloqlar belə güman edirlər ki, Taqarlılarda primitiv kotan və ya xış olmuşdur. Eyni zamanda torpağın şumlanmasında toxadan da istifadə edildiyi də bildirilir (90). İskit dövrü üçün xarakterik olan oxşar alət Cənubi Sibirin XIX əsrə aid qəbirlərindən də tapılmışdır (123, 73). Torpağın yumşaldılması üçün tunc ucluqlu beldən də istifadə olunurdu. Ümumiyyətlə, iskitlərdə olduğu kimi, Taqarlılar da xüsusi ağırlıq gücünə malik yumşaldıcı alətlərdən istifadə edirdilər.

İskitlərin mənşəyi barədə Herodotun təsvir etdiyi əfsanələrin birində kotan, boyunduruq, balta və cam (kasa) göydən iskit ölkəsinə düşmüşdü. Bunlardan ikisi kotan və boyunduruq – əkinçilik aləti olsa da, Herodot onların «əkinçi yox, maldar» olduqlarını da yazırdı (52, 188,192). Odur ki, əmək və xüsusən əkinçiliklə bağlı alətlərin az miqdarda tapılması Sibir-Altay ərazisinin iskitlərlə bağlılığını inkar etmək üçün heç bir əsas vermir. İskit – Sibir dünyasında oraqlar da geniş yayılmışdı və onlar əsasən dəmirdən hazırlanırdı (55,140-141). Xakas-Minusinsk çökəkliyində və Cənubi Sibirin meşə-çöl rayonlarında 200-dən çox tunc oraqlar tapılmışdır (86,48). Tunc Taqar oraqları qalın və gödək (0,5-sm), həmçinin əyri, uzun (18-22-sm) ölçülü olmuşdur. Oraqlar tutacağının formasına görə 2 qrupa ayrılırdı: tutacağı qabarıq və hamar. Oraqlar kimi düz formalı dəhrələr də istifadədə xüsusi yer tuturdu.

Daş kirkirə də Sibir ərazisində hələ tunc dövründən məlumdur. Bu un üyütməyin sadə üsulu sayılırdı. Hətta Uyuk kurqanından iki ədəd daş kirkirə də tapılmışdı (118, 59). Altayın erkən iskit dövrü kurqanlarından I Karbanda, I Yeddi Sartda, I Qor-Qobuda da kirkirələr tapılmışdır (220).

Sibirin iskit dövrü qəbirlərindən tikiş üçün istifadə olunan tunc bizlər də tapılmışdır. Onlar bir qayda olaraq, qadın qəbirlərində, mis və ya dəri iynəqabında qeydə alınmışdı. Bizlər ağac dəstəkli, iti uclu olub mis və ya tuncdan, iynələr isə tunc və sümükdən hazırlanırdı. Taqar bizləri yuxarıdan misvari papaqcığa malik olurdu (221, 89). Tuva bizləri isə 1)saplaqsız, 4 künc, 2) göbələk başlıqlı, 3) dairəvari ucluqlu, 4) zoomorf başlıqlı, 5) şarvari, 6) üzükvari başlıqlı olurdu (118, 57).

Arabalar Avrasiya çölləri əhalisinin dəfn mərasimilə əlaqədar olaraq qəbir tapıntılarına daxil edilə bilər. Araba qalıqları həm qadın, həm də kişi qəbirlərindən aşkar edilmişdi. O dövrün sosial qanunlarına əsasən arabaların sayına görə maldarın əmlakını müəyyənləşdirmək mümkün idi (76,160). Qəbirlərdə bütöv təkəri salamat qalmış araba qalıqları tapılmışdı. Çox güman ki, belə arabalara öküz qoşulurdu. Antik müəlliflər iskitləri «arabada yaşayan xalq» adlandırır, köçərilərin hərəkət üsulunu «ἄμαξευω» termini (öküzdə getmək) ilə izah edirdilər. İskitlərin üstüaçıq keçə arabalarda yaşadıqlarını Psevdo Hippokrat, Strabon, Sicilyalı Diodor və başqa müəlliflər də qeyd etmişlər (112,60, 120-121, 326,513,596).

Sibirin İskit mədəniyyətinə xas olan ümumiskit kateqoriyalı tapıntılradan olan güzgülər, əsasən, tuncdan hazırlanır, dəri, xəz, parça və ya keçədən tikilmiş futlyarda saxlanırdı. Güzgü təkcə bəzək əşyası hesab edilmir, özündə insanın əksini verdiyindən, o ruhun obrazı, sehrli magik güc daşıyıcısı kimi dəyərləndirilirdi (181,152). Bunu həm kişi, həm də qadın qəbirlərində güzgülərin olması da təsdişləyir (57,35). Sibirin iskit dövrü abidələrində çoxsaylı güzgülər aşkar edilsə də, onlar 3 əsas qrupda birləşdirilmişdir. Təbii ki, hər bir qrup öz daxilində variant müxtəlifliyi ilə də seçilir. Tuncdan hazırlanan, diskvari formaya malik Taqar güzgüləri tutacağının (dəstək) ölçüsünə görə digərlərindən fərqlənir və knopkalı formada olurdu. N.L. Çlenova Sibir güzgülərinin ilgəkli, dörd ayaqlı və medalvari olduğunu bildirib, ilgəklərin ayaq üstə dayanmış heyvan və ya heyvan başı formasında, ikincilərin cütilgəkli, sonuncuların tutacağının zoomorf fiqurlu olduğunu ayırd etmişdir (210, 82). Tuva ərazisində qeydə alınan iskit dövrü güzgüləri də tuncdan hazırlanmış əyri qruplu, knopkalı, medalvari olmuşdu (şək. 3.12). Mannay- Ool M.X. onların daxilində 7 variant ayırır: 1) dairəvi, cüt ayaqlıqlı, 2) əyri qulplu, dairəvi, 3) 4 ayaqlıqlı, 4) dairəvi ilgəkli, 5) yanları əyri. tutacaqlı, 6) medalvari – ilgəkli, 7) cüt heyvan fiqurlu (118, 68). Güzgülərdə ilgək-oturacaqlar əksərən P hərfi, bəzən əyri və ya X formasında olurdu. Belə formalı ilgəkli güzgülər Sibir ərazisində, əsasən, Taqar mədəniyyətinin yayılma arealında qeydə alınmışdı. Qəbir komplekslərindən e.ə. VII əsrin sonu - VI əsrin əvvəllərinə aid edilən 2-3-mm qalınlığında 435 ədəd güzgü qeydə alınmışdır. E. ə. V əsrə aid güzgülərdə oturacağın forması bir qədər dəyişərək üçbucaq forması alır. İlgəkli güzgülər Altayın mayemir abidələrində (e.ə. VII-VI əsr), Toms qəbirlərində, Şimali Qazaxıstanda Uyqarkın e.ə. VII-VI əsr, Ananyin kompleksinin e.ə. VII-VI əsr, Qara dəniz sahilinin e.ə. VI əsr (Skvira, Popovka, Romensk, Perepetrova, Qerasimovka) kurqanlarından da tapılmışdı (210,83). Cənubi Sibir və Qazaxıstanın şimal vilayətlərindən qeydə alınan dairəvi ilgəkli tunc güzgülər xüsusilə yaxınlıq təşkil edir (48,203). Şimali Tsinsizyanın Keermutsi qəbiristanlığına aid iskit mədəniyyətinin elementlərindən biri mərkəzində ilgək olan bəzəksiz tunc güzgüdür. Tədqiqatçı İ.Manbay onun Çjanqoydan gətirildiyini güman edə-

rək, Şansunlində Qo çarlığının qəbrindən tapılan güzgülərlə müqaisə aparmışdır. Lakin S.Komisarov tərəfindən XX əsrin 80-ci illərinin ortalarında başlamış tədqiqatlar göstərdilər ki, Şansunlin qəbirlərinin əksəriyyəti e.ə. IX əsrin II yarısı və e.ə. VIII əsrin I yarısına aid edilir(221). Bundan əlavə, dairəvi formalı tunc güzgülər Çinin Ninçen qəzasının Nanşangen qəbirstanlığının 101 və 102 nömrəli daş qutu qəbirlərindən, daxili Monqolustanın şərqindən də tapılmışdı (221). İskit tipli digər formalı güzgülər yuxarıda qeyd etdiyimiz kimi 2 və 4 ayaqlıqlı olub, Şimali Qara dəniz sahilinin, aşağı Volqaboyunun, şimali Qafqaz və Tuvanın qazıntılarında aşkar edilmişdir (160; 109,82). Medalvari güzgülər Minusinsk, Monqolustan və Ordosda, Qazaxıstan və Altayın e.ə. VI-III əsr abidələrindən tapılmışdır (89, 266, cəd. XXI, 2-7). Tuvanın Uyuk mədəniyyətinə aid avadanlıqlar içərisində belə güzgülər xüsusi yer tutur (118,68, şək. 21,2; 6). Burada da, digər yerlərdə olduğu kimi, zoomorf fiqurlardan istifadə olunmuşdur.

Sibir iskitlərinin bəzəklərinə gəlincə, ilkin olaraq, onların, əsasən, heyvani üslubda düzəldilməsini qeyd etməliyik. Materialına görə bəzəklər sümük, buynuz, şüşə və metaldan hazırlanır daha çox qadın və uşaq qəbirləri üçün xarakterik olurdu. Qızıl bəzəklər daha çox varlı qəbirlərindən tapılmışdır. Qara dənizin şimal sahili kurqanlarının qəbirlərindən çoxsaylı qızıl boyunbağı – sinəbəndlər tapılıb (164, 35). Ümumiyyətlə, iskit aristokratiyasını qızıl, gümüş bəzək əşyaları müşayət etmişdir. I Pyotrun Sibir kolleksiyasında müxtəlif formalı geyim bəzəkləri vardır. Kəmərlər tədricən öz ilkin funksiyasını itirmiş və geyim bəzəyinə çevrilmişdi. Buynuzlu şir təsvirli düzbucaqlı lövhə, dairəvi oyuqlu şəbəkəli lövhələr, mərkəzində iri deşik olan pilək belə kəmərlərin üzərində xüsusi dekorasiya yaradırdı (169,cəd. III 2,3, XXI-II-2-3, XXVII-6). Dağlıq Altayda Uzuntala adlanan sahədə – maral daşları üzərində 2 ədəd kəmər vardı (98,57). Bu da ehtimal etməyə imkan verir ki, iskit hərbçiləri kimi, Dağlıq Altay hərbçilərinin təntənəli mərasimlər üçün, heyvan üslublu lövhəciklərlə bəzədilmiş və sadə, gündəlik istifadə edilən kəməri olub.

Qadın baş geyimlərində muncuq, qızıl düymə və lentlərdən bəzək kimi istifadə olunurdu. Sibir ərazisində e.ə. IV-III əsrlərdə dəmirdən sadə alınlıq, e.ə. III-I əsrlərdə ilgəkli alınlıq yayılmışdı (173,237-242). Karasuk qəbirlərindən 5-7 halqalı zəncir alınlıqlar tapılmışdı (44, 58). E.ə. I minillikdə Avrasiya çöllərində hazırlanma texnikası və təsviri işləmələrinə görə fərqlənən boyunbağı və sırğalar da vardı. Onlardan ən sadəsi ölçülərinə görə iri, ön hissəsi düzbucaqlı, qalan hissələri çevrilmiş spiral formasında, dairəvi quruluşludur. Bundan əlavə, ikiqat boru kimi bir-birinə sarınmış və araları xırda tunc çıxıntılarla bərkidilmiş digər boyubağıların ucları qrifon başı ilə qurtarırdı. Yəqin ki, bir qədər mürəkkəb quruluşlu belə boyunbağılar varlı qadınlara məxsus olmuşdu. Sibir kolleksiyasına daxil olan 2 ədəd belə boyunbağının üzərində kiçildilmiş, ön pəncələrini irəli uzatmış, sanki tullanmaya hazır vəziyyətdə olan şir fiquru vardır (169, cəd 3,4). İncəsənətdə qrifon başlı, şir quyruqlu zoomorf təsvir Dağlıq Altayın iskit dövrü tayfalarına xas cəhətlərdən olmuş və Stavropol diyarının böyük Aleksandrovsk qəzasının Kazinsk kəndindən də anoloji qızıl bəzək tapılmışdır (169,16-17). Kulundin çölünün erkən dəmir dövrünə aid VI Mixaylovski qəbristanlığının I kurqanının 2 nömrəli qəbirdən fantastik heyvan başı formasında düzəldilmiş boyunbağının bir hissəsi tapılmışdır. Qızıldan hazırlanmış boyunbağı başlığının uzunluğu 2.8 sm, eni 1.2 sm olub, ağzı açıq, enli dik burnu şaquli dalğavari xətlərlə bəzədilmiş, öndən 2 dairə ilə enli burun deşiyini xatırladan şir fiqurudur. Uzun, şişuclu, önə doğru əyilmiş S-vari formalı buynuzun üzəri də qabarıq or-

namentlərlə bəzədilmişdir. Heyvanın alt dodağına və boyun hissəsinə bərkidilmiş iki dairəvi qarmaq çox yəqin ki, hansısa asma üçün düzəldilmişdi. Şirin boynu çərtmə naxışlarla bəzədilmişdir. Öz nadirliyi ilə seçilən tapıntı erkən dəmir dövrü Qərbi Sibir kurqanlarında rast gəlinməmişdir (225). Ermitajda saxlanılan Sibir kolleksiyasında tuncdan tökmə üsulu ilə hazırlanmış qarşı-qarşıya uzanan şir fiqurlu boyunbağılar var (şək. 3.9). Oxşar tapıntılar Orta Asiya, Kiçik Asiya və hətta Misirdə də hazırlanmışdı. Sonluğu heyvan fiquru ilə qurtaran boyunbağılar e.ə. V-III əsr sarmat qəbirlərində, Altay və Qərbi Sibir ərazisində (89, XXX cəd), Uyuk çayı saihllərində qeydə alınmışdır (181, 143; 109, 73). Pazırık kurqanlarında geniş yayılmış yastı və dairəvi formalı sinəbəndlər Tuva ərazisində də tapılmışdı (57,36). Maraqlıdır ki, XVII əsrə qədər yakut qəbirlərindən belə sinəbəndlər tapılır və onların ərli qadını xarakterizə etdiyinə inandırırdılar (53,144).

Sırğalar qızıl və gümüşdən, müxtəlif formalarda hazırlanırdı (şək. 3.10.). Halqavari məftildən hazırlanan sırğalar e.ə.V-III əsrlərə aid olub, Altay, Minusinsk, Qazaxıstan və Qırğızıstan kurqanlarından tapılmışdır (168, 21; 89, 350). Maraqlıdır ki, cənub-şərq sərhəd rayonlarında (Koksu, Ulandrık, Yustıd, Baraburqazı) kişilərin sağ, mərkəzi və şimal-qərb rayonlarında (Pazırık, Böyük Yelaman) sol qulağında sırğalar vardı. I üslub köçərilərdə, II – iskit, saklar arasında yayılmışdı (98,49). Dağlıq Altayın iskit dövrü kurqanlarında mumiyalanmış cəsədlərdən görünür ki, qadınların hər iki, kişilərin isə bir (sol) qulağında sırğa vardır (169,23).

A.İ. Qoqolev qədim Altay qadınlarının sağ qulaqda 2, solda 1 sırğa gəzdirdiyini və XVI-XVIII əsrlərə qədər bu adətin saxlandığını göstərmişdir (53, 144). Konuslu, zəncir asmalı, dənə bəzəkli sırğalar Uyuk dövrü abidələrində rast gəlinmişdir (118,74). Cənubi Sibir tayfalarının bu dövr sırğalarında bəzən dişdən asmalar da olurdu; ola bilsin bu, bir bəzəkdən əlavə magik səciyə də daşımışdı. Pəncə, buynuz, spiralvari, xaçvari, ? şəkili, ay formalı sırğalar da Sibirin tapıntıları içərisindədir (169, 21,cədXX-5, 42,59,61). Konusvari formalı firuzə qaşlı sırğalar Altay diyarının Srostink rayonundan tapılmışdır. Bu sırğa Ermitajda saxlanan digər bir sırğa ilə həm forma, həm ölçüsünə görə (hər ikisi 1,68 q) eynidir(169, 16-17). Tuvanın Uyuk kurqanlarından qızıl və ya gümüş məftildən girdə və asmalı sırğalar tapılmışdır. Yarımdairəvi, spiralvari, sıx hörülmüş zəncirli, sonu kürə və ya konusla qurtaran qızıl sırğalar bu baxımdan diqqətəlayiqdir (118,71). Karasuk tapıntıları içərisində qarmağı xatırladan və S-vari sırğalar vardı ki, bunlar hər iki qulağa geyilirdi (44, 58-59). Məlumdur ki, sırğalıqdan keçən göz siniri ovçuluqla məşğül olan adamlarda görmə qabiliyyətini artırdığından, ibtidai dövrdə əsasən ovşu- kişilər sırğadan istifadə edirdilər.

Karasuk dövrü bilərzikləri biləkdə, dirsəklə əl arasındakı hissədə (bazu önündə) saxlanılırdı. Bu dövr üçün tökmə bilərziklər azdır və onlar hörmə, kvadrat, gül bəzəklərlə işlənirdi (44,59). Sibir kolleksiyasında 2 tip: bir neçə dairədə spiralvari əyilmiş və iri şəbəkəli bilərziklər vardı (şək. 3.11.). Sadə məftil qolqbaqların bəziləri 2 şir fiquru ilə qurtarır. Bilərziklər 3 və ya 7 dairəli olub, qoyun, pişik, maral, canavar fiqurlu ucluqlarla seçilirdi (169, 19-20). Sibirin iskit dövrü üçün üzüklərin isə hər 2 əldə gəzdirilməsi məlumdur. Onlar dairəvi, kiçik spiralvari halqa şəklində olurdu. Sibir kolleksiyasında cəmi 12 üzük vardı (şək.3.12). Altay ərazisindən tapılan üzüklərdən biri balıq formalı olmuşdur (169, 21).

Üst geyimi haqqında dəqiq məlumatlar az olsa da, altaylıların yun geyimlərə üstünlük vermələri bəllidir (44,59). Kemerovo və Minusinsk ərazisindən tapılmış geyim qalıqları dəri şalvar, gödəkcə, parçadan köynək və kürkdən ibarət olmuşdu. Köynəyin parçası yundan hazırlanır, tikmə qollu və

öndən üçkünc kəsməsi vardı. Kürk və gödəkcələr düyməsiz olub qayışla bərkidilirdi. Mərasim geyimləri gül və s. muncuqlarla bəzədilirdi (44, 92-93). Müəyyən fərqlərlə altay geyimləri iskit geyimləri ilə oxşardır (164, 253). Sinəsində kəsiyi olmayan enli, qısa gödəkcə V Pazırık kurqanından tapılan xalçadakı təsvirdə verilmişdir. Küloba, Voronejin gümüş qabı, Soloxanın qızıl darağı üzərindəki təsvirlərdə iskitlərin qısa gödəkçəli olduğu görünür (168, 89). Məlumdur ki, Altay və Qərb iskitlərinin qısa gödəkçələri yaxalıqsız olurdu.

Keçədən hazırlanan kişi baş geyimi 2 tip - dəri qulaqcıqlı və şiş uclu olurdu. III Pazırık və I Başadar kurqanlarından tapılan qulaqlı papaq Çertomlık kurqanına aid qılınc qını üzərində təsvir olunan papaqla eynidir. Şiş papaq ümumiyyətlə iskit və saklar arasında geniş yayılmışdı (şək.3.13.). Qadın üçün uzun, enli çiyinli paltar xarakterik idi. Tacşəkilli daş-qaşla bəzədimiş diadema dəridən kəsilir, mozaik asma bəzəklərlə işlənirdi (168,209). Çertomlık, Yuxarı Roqaçik, Kül-Oba, Karaqodeuaş lövhəsi, Aleksandropol kəməri üzərindəki qadın baş geyimi təsvirlərinə əsasən 3 növ: 1)kokoşnik (çutquya oxşar), 2) şiş uclu, 3) mitra (dini ayin zamanı geyilən qızılı rəngli) papaq olduğu görünür. Bunlar əsasən. e.ə. VI-III əsrlərdə iskitlərə məxsus olmuşdur. Onlardan başqa, alın sarğıları - kalaf və örtüklərdən (duvaq) də istifadə edilmişdir (92, 119-120). Silindrik və konusvari şiş papaqlar möhkəm materialdan – dəri və ya keçədən hazırlanır, ön hissəsi qızıl pulcuqlarla bəzədilir, arxa örtüklə bağlanırdı.

Ümumiyyətlə, qeyd etmək lazımdır ki, iskit mədəniyyəti qəbir abidələrinin, yaşayış məskənlərinin, məişət-təsərrüfat abidələrinin və onlardan tapılmış avadanlıqların özünəməxsusluğu ilə fərqlənirdi. Sibir ərazisindən də məhz sırf iskit-sibir dünyası üçün xarakterik xüsusiyyətləri əks etdirən materialların qeydə alınması zənnimizcə, onların mənşəyi ilə bağlı məsələlərə aydınlıq gətirilməsinə köməklik edə bilər.



### 3.3. Maral daşları və petroqliflər

İncəsənət, ideologiya və sosial tarixin öyrənilməsində bir abidə kimi maral daşları xüsusi yer tutur. XX əsrin 70-ci illərindən etibarən maral daşları təkcə Asiyada deyil, Avropada da qeydə alınmışdı. Bu abidələrə Orenburq vilayətinin Qumarovo kəndində, Kabarda-Bolqariyanın I Qızburun kurqanında, Mərkəzi Gürcüstanın Şipyak və Sanomer kəndləri arasında, Krım ətrafı rayonlarda, Krivoy Roqun Tsarevoy qəbrindən, Olviyada, Rumıniyada Dinoqeti-Tarvan adlanan yerdə, Bolqariyada, Almaniyada və s. ərazilərdə rast gəlinmişdir. Mərkəzi Qazaxıstandan 1, Altay ərazisində 50-yə qədər, Tuvada 20, Baykalətrafında 20, Monqolustanda 500-dən çox maral daşları tapılmışdı (207, 7-8). Maral daşları 4 üzlü, dəyirmi və ya yastı, yonulmuş və ya üzəri işləməli daş dirək və ya lövhədən ibarətdir. Onların yastı üzündə maral, qaban, at və başqa heyvanların təsviri, həmçinin, silah və işarələr, xəncər, təbərzin, oxqabılı yay, dairəvi, dördkünc, qeyri- düzgün formalı beşbucaqlılar, orta hissədə xətlər, qayış və s. oyulurdu (şək. 3.14.). Ukrayna, Krım, Qara dəniz sahilləri, Şimali Qafqaz, Cənubi Ural, Sibir, Mərkəzi Asiya ərazilərindən tapılan maral daşlarını 45 əlamət üzrə N.L.Çlenova müqayisə edərək, hamısı üçün ümumi olan-dairəvi və ya dördkünc, öndən ensiz, yuxarı hissəsi arxaya əyilmiş, əl-ayaq, üz isə olmayan formaları ayırır (207, 18-21). Demək olar ki, bütün təsvirlərdə kaman, oxqabı, kəmər bir ensiz xətt şəklində verilirdi. Adlarını yuxarıda sadaladığımız əlamətlər bütün ərazilərdəki maral daşları üçün eyni olsa da, qalan 37 əlamətin xarakterik olduğu ərazilər fərqlidir. Belə ki, Şimali Qafqaz, Sibir-Mərkəzi Asiya regionunu cəmi 6 əlamət: heykəllərin baş hissəsində lent və ya diadema; sifət əvəzinə 2 əyri xəttin çəkilməsi; halqalı sırğalar; asmalar; çərçivədə heyvan təsvirləri; yanlarda-heyvanların olması birləşdirir. Ümumiy-

yətlə, 22 əlamət Sibir və Mərkəzi Asiya üçün xarakterikdir ki, onlardan 13-nü artıq yuxarıda göstərmişik. Digərləri isə dərin oyulmuş oval muncuqlar, dairəvi muncuqlar, təbərzin, Karasuk xəncəri, ziqzaqlı kəmər, marallar, kürəcikli sırğalar, evcik və ya «yolka», çiyin ağacı formalı və s. predmetlərdir. Qeyd edək ki, sonuncu 8 əlamət yalnız Sibir-Mərkəzi Asiya üçün xarakterik olub, digər yerlərdə qeydə alınmamışdır (207, 18-21). Qeyd edək ki, xarici əlamətlərinə görə daş lövhələr 3 xarakterik qrupa bölünür: a) balıqvari formalı; dəyirmi; b) qılıncvari, enli lövhə; v) müxtəlif böyüklükdə işlənməmiş daş lövhələr. (118, 25. ş 2). Balıqvari formalı daşlar, çox yəqin ki, totemik inancla əlaqədar olmuş, Altay, Minusinsk, Monqolustan ərazilərində müşahidə edilmişdir (118, 28). Məlumdur ki, balıqvari və qılıncvari daşlar e.ə.V-IV əsrlərə aiddir. Tuva, Baykalarxası və Monqolustanın e.ə. VII-III əsrlərə aid olan maral daşları xarakterinə görə 2 qrupa bölünür: daş lövhələrdə maralların real təsvir olunması və maralların hədsiz üslublaşdırılması. I qrupda marallar bir-birinin ardınca gedir, düz, ayaqları üstə təsvir olunur, II isə marallarda kürəyə atılan uzun budaqlı buynuz, irəli çıxan dik buynuz, ayaqları bükülmüş formalar nəzərə çarpırdı (118. şək.2.1.2.). I qrupa aid abidələr Tuvanın şimali və mərkəzi rayonlarında yayılmış, üzərindəki təsvirlər Minusinsk çökəkliyinin Taqar dövrü, Şərqi Qazaxıstanın Çiliktin kurqanı, Qara dənizin şimal sahili iskitləri üçün xarakterik təsvirlərlə analogiya təşkil etmişdir. Tuvanın cənubunda yayılan daşlar isə II qrupa aiddir. Ümumiyyətlə, Tuvanın maral daşlarını tədqiqatçılar iskit dövrünə aid edirlər (57, 28; 52, 54; 118. 24). Lakin bəzi daşların erkən iskit dövrünə aid olması faktı da üzə çıxmışdır və bundan sonra 3 tip maral daşları ayrılmışdı: Monqol-Baykal tipli - dimdik burunlu maral təsvirli; Sayan-Altay tip -realist təsvirli və ümumi Avrasiya tipli – təsvirsiz. Maraqlıdır ki, tədqiqatçılar bütün Avrasiya çölləri



boyunca olan daş lövhə və heykəllərin (cəmi 600 ədəd) 80%-ni Monqol-Zabaykalye tipinə aid edib, onları əsasən Karasuk mədəniyyəti dövrü abidələrindən hesab edirlər. Digər 2 qrupa aid olan daşların 20-si Tuva, Baykalarxası və Dağlıq Altaydan, təqribən 20-si Qazaxıstan, Şimali Qafqaz və Qara dəniz sahilindən tapılmış və onlar erkən iskit dövrünə aid edilir. Monqolustanın maral daşlarının mədəni-mənsubiyyəti məsələsi ilə əlaqədar, Dobjanski V.N. onların e.ə. XI-VIII əsrlərdə yarandığını söyləyir (66, 100).

Çuy maral daşının öyrənilməsi Dağlıq Altayda bu növ abidələrin araşdırılmasının əsasını qoymuşdur. Onun ilk dəqiq təsviri hələ XIX əsrin sonlarına aiddir. Müxtəlif tədqiqatçılar qaya parçasına bənzər bu abidəni müxtəlif cür adlandırmışdır: N.M.Yadrintsev «Adım-bom», V.V.Sapojnikova «Atar-qaya», Q.N.Potanina «Adım-bom», P.P.Xoroşix «Adır-qan» və «Ader-qaya» (98,11; 100). Altay ərazisində tədqiqatçıların rast gəldiyi və müəyyən qədər tədqiq olunmuş maral daşının qısa təsnifatına nəzər yetirək: Çuy maral daşı çayın sağ sahilində, Onqudaysk rayonunun İodro kəndi yaxınlığında yerləşir. Bu yarımdüzbucaqlı daş lövhə əyri kəsilmiş yaşıl şistdəndir, yuxarısı dairəvi və kənarları yüngülcə hamarlanmış vəziyyətdədir. Ölçüləri 210x50x30 sm olan daşın cənub-şərq (üz) tərəfində yuxarı hissədə göz, ağız boğaz təsvirləri seçilir. Orta hissədə tiyəsi aşağıya yönəldilmiş xəncər, xəncərin dəstəyindən yuxarıda isə 3 qısa paralel xətlər oyulmuşdu. Daşın ən aşağı hissəsində xaçvari nişan təsvir olunmuşdu. Daşın yuxarı hissəsində (şimal tərəfi) dərin dairəvi çıxıntı var. Tədqiqatçılar bunun qulaq mənasını verdiyini ehtimal edir (100,12). Halqa təsvirinin aşağısında – aydın seçilən xətlərlə yarımçıq heyvan çəkilmişdir. Ortada oxqabına qoyulmuş oxun qırıq-qırıq xətlərlə təsviri verilmişdir və o qayışdan asılı vəziyyətdədir. İki qısa xətlərlə at başı aşağı oxqabına birləşmiş vəziyyətdə göstərilmişdir. Maral daşının

qərb tərəfində şəkil yoxdur, cənubda (yanlarda) iki kiçik təsvir vardır: keçi və arxaık balta. Mərkəzi Asiyanın maral daşları kimi, Çuy daşının istiqaməti şərqədir. Qeyd edək ki, daş böyük qədim ibadətgahda yerləşir. Yustıd rayonunda qeydə alınmış maral daşı belə bir əhatədədir. Burada səkkizdaşlı mərasim halqasında mərkəzi yeri xereksurlar tutur. Onların içərisində ən iri maral daşı vardır. Bu mərkəzi maral daşı açıq-boz rəngli iri qranit lövhədən ibarətdir. Ölçüləri 260x100 sm, eni 15-20 sm-dir. Daşın cənub enli hissəsində ortada döyüş baltası təsvir olunub, onun yan tərəfində (şimal) kolçan, şərqə doğru yönəlmiş ensiz üz tərəfdə uzunluğu 26 sm-ə çatan xəncər təsviri verilib (100,13).

Yustıd kompleksindəki maral daşları üçün ən geniş yayılan forma dorkünc və materialı isə silisiumlu şistdən və xırda dənəli qumdaşından ibarət olmuşdu. Bir qayda olaraq, ensiz, uzun tərəf üz hissə sayılırdı. Yuxarıdan 3 paralel xətt, ortada – qayışdan asılmış xəncər təsvir olunmuşdu. Maral daşlarının yan enli tərəflərində həmişə bir və ya iki halqavari sırğa olurdu. Yan tərəflərdə maral, at, keçi, yırtıcılar və müxtəlif silahlar: təbərzin– sağda, kaman oxqabında solda təsvir edilirdi (98,21). Yustıd çayının sağ sahilində digər maral daşları da qeydə alınmışdı: maral daşının sayı 19-a çatır və onlar demək olar ki, eyni formalıdır (206, 24). Quru-uzek və Baraburqazı çaylarının qovuşduğu yerdə, III Kokorya qəbirstanlığında, Qara-Dyurqun ərazisində, Qızıl-Car çökəkliyində tək sayda maral daşları qeydə alınmışdır (209).

V.V.Bobrovun fikrincə, qəbir tikililərində ölünün baş hissəsinə qoyulmuş daş sütun-lövhələr maral daşlarının genezisinin öyrənilməsinə köməklik göstərmişdir (220). Karasuk qəbirlərində belə sütunlar azlıq təşkil etsə də, Kuznetsk çökəkliyinin İrmen abidələrində (IV Juravlevo,VII Tanay) kifayət qədər çoxdur və bir qayda olaraq, 25-35 yaşlı kişi qəbirlərində qeydə alınmışdır. Öz formasına görə eyni olan daş



sütunlar Dağlıq Altayın kurqanlarında – VI Tıtkeskenin 55-ci kurqanı; Biykenin 9,17,19,20,24 nömrəli kurqanlarında rast gəlinmişdir (220).

Qeyd edək ki, maral daşları üzərində silahlar, qayış və s. insana məxsus əşyalar təsvir olunsa da, oyulmuş insan təsvirləri yoxdur. Qara dənizin Şimal sahilləri iskit stelalarında döyüşçü təsvirləri olsa da, Mərkəzi Asiyada belə antropomorf stelalar azdır və ya hərbi rəhbərlərin şərəfinə, onların ölümündən sonra qoyulurdu. Arjan kurqanı yaxınlığından tapılan maral daşı Tuva və Monqolustan antropomorf stelalarının erkən formasıdır. Tədqiqatçılar daş lövhə üzərindəki xəncərin yaşını müəyyənləşdirərək, nəticədə onu iskit dövrünə aid etmişlər (93,94-97). Arjan daşı düz, silindrik formadadır. Kurqandan 1 km aralıda Uyuk-Arjan adlı yerdə və Orzak-Aksı dərəsində və kurqandan 15 km cənub-şərqdə də belə stelalar tapılmışdı. Daha sonrakı dövrlərdə qaçan maral təsvirli şaquli antropomorf daş lövhələrdən biri Çinqataq dərəsində, digəri isə böyük Ajik adlanan yerdə qeydə alınmışdı (60,54-55). Stilistik planda antropomorf xüsusiyyətli monumental lövhə Okunev ərazisindən tapılmışdı. Burada sxematiklik daha üstün olduğundan, insan təsviri real xarakter daşımır, iri böyük gözlər, ağız, geniş pərli burun, şərti qulaq və s. nəticə etibarilə Okunev heykəlciyində insan üzünün yox, hiss orqanlarının əsas yer tutduğunu göstərir (158, 127).

Heyvan və insan təsviri olmayan, lakin digər atributlar: kəmər, dairə, bəzək və s. oyulan daşlar da abidə kimi tədqiqatçıların diqqətini çəkmişdir. Qeyd olunan təsvirlər özünəməxsus məna çalarına malik olmaqla, Sibir ərazisində iskit dövrünün araşdırılmasına bir daha köməklik göstərir. Sırsk çaatasında tapılan qızıl əşyaları və maral daşları üzərində təsvirlər, habelə, monqol boyunbağıları – 7 Qardaş, Böyük Əkizlər və başqa çar kurqanlarında tapılan qızıl əşyalara oxşayır. Qızıl boyunbağılar – çar, tayfa başçısı, əsilzadə – hərb-

çi, kahınların qəbirində tapılırdı. İskit dövründə həm iskit, meot, ananyin, savromat, saklar arasında bu çox geniş yayılmışdı. Belə tapıntı Karakol kəndində və I Baraburqazının qəbirlərin tapılmışdı (98,53).

Monqolustanda tapılmış 500-dən çox maral daşları mərkəzi qərb və şimal qərb rayonlardadır. Onlarla sərhəddə Tuva və Altay (Tuvada 30, Baykalarxasında 10), Altaydan qərbdə – Şərqi və Mərkəzi Qazaxıstanda, Qırğızıstanda, Orenburq vilayəti, Bolqarıstan və Almaniyada, Gürcüstan və İranda maral daşları yayılmışdı (98,67).

Maral daşları ilə iskit antropomorf «daş heykəlləri» arasında əlaqənin olub-olmaması, təbii ki, xüsusi maraq doğurur. Bəzi tədqiqatçılar maral daşlarını kimmerilərə, daş heykəlləri isə iskitlərə aid edirlər (207, 56). Üzəri təsvirli hər iki daş lövhələri müqayisə edərək, bir sıra oxşar və fərqli əlamətlərin olduğunu görə bilərik. İskit heykəllərinin ön hissəsi enli, maral daşlarının isə ensizdir və eyni zamanda təsvir olunan predmetlərdə də fərqlər vardır. İskit heykəllərində baş xüsusilə seçilir, üz, bığ, əllər, kürəklər antropomorf təsvir olunur, maral daşlarında isə belə işləmələr yoxdur. İskit daş heykəllərində sinəbənd, riton, əksərən, zirehli geyim də oyulurdu. Bunlarla yanaşı, hər iki daş lövhələrdə xəncər, qılınc, ox, oxqabı, balta, baş geyimi təsvir olunmuşdu (152, 56-57). Maral daşlarının kimmerilərə məxsus olduğunu göstərməyə çalışan N.L.Çlenova, iskit daş heykəllərində-akinak, maral daşlarında isə kimmeri xəncəri və analoji olaraq maral daşlarında koban baltası, iskit heykəllərində sxematik baltalar və s. fərqli təsvirləri açıb göstərir (207, 57). Üzərindəki təsvirlərin sağ və ya solda yerləşməsi də fərqləndirici əlamət kimi götürülür. Təqribən 69 haldan 28-də sol (40,5%), 19-da sağ (27,5%), 12-də ön (17,5%) və 9-da (13%) arxa hissədə təsvirlər var. Bütövlükdə ön və arxa üzdə 32%, yanlarda 68% təsvir qeydə alınmışdı. Avrasiya çölləri boyunca maral



daşlarının 42%-də sol, 32,2%-də sağ, 22,6% ön və 3,2%-də arxa tərəfdə, iskit daş heykəllərində isə 29,2% solda, 34,2% sağda, 36,6% öndə təsvirlər olmuşdur (207, 60-67). Tədqiqatçının gəldiyi bu nəticə ilə qane olmayaraq, yuxarıda göstərdiyimizi, təkrar edək ki, maral daşları e.ə. VII-VI əsrlər üçün xarakterik olub, üzərindəki təsvirləri iskit dövrü maddi-mədəniyyət nümunələri ilə eyni tiplidir.

Çuy çayı sahilində qeydə alınmış daş üzərində təsvir olunan sırğa sol qulaqdadır. İskit-sak döyüşçülərinin, tayfa başçılarının da sol qulaqda sırğa gəzdirməsi adi hal sayılırdı. Bundan əlavə, buradakı xəncər də iskit akinakına oxşayır (47, 82). İskit dövrü daş lövhələrində insan təsviri olmadığını deyən Rudenko S.İ., türk qəbirləri yanında şaquli qoyulan daşları insan fiqurlu heykəllər adlandırır (168, 326).

Maral daşlarının xronologiyası haqda müxtəlif fikirlər vardır. Onlar üzərindəki təsvirlərə əsasən inkişaf etmiş tunc dövrünə və ya erkən iskit dövrünə aid edilirlər. Tuva ərazisində qeydə alınan 5 daş lövhəni analiz edən tədqiqatçılar təsvirlərin azlığını nəzərə alıb, dəqiq tarix göstərməsələr də, yuxarıdakı xronoloji tarixi bir daha təsdiqləyirlər (152, 101). Y.A.Şer maral daşlarının tarixini müəyyənləşdirməyi müstəqil və çətin məsələ hesab edir, eyni zamanda Uşkin-Uver (Monqolustan) komplekslərinin Karasuk mədəniyyəti predmetləri ilə yaxınlıq təşkil etdiyini bildirir (214, 343). Tarixşünaslıqda maral daşlarının hansı rol oynamasına onların xatirə abidəsi, məbədgah, qurbangah və ya sadəcə qəbir kompleksinin bir hissəsi olması fikri formalaşmışdır. Monqolustan və Tuvanın maral daşları bir qayda olaraq daş örtüklərin, xereksurların, qədim qəbirlərin dairəvi əhatəsində rast gəlinmişdir. Yustıd məbədgahına anoloji ayin mərkəzləri Yelanqaş, Çaqan- Burqazı, Çaqan-Uzun, Kok-Uzel, Casater, Aoqut, Uzuntal və başqa çayların sahilində yerləşmişdir. Altayın ən böyük məbədgahı Katuni və Çuy çayı sahilindədir

(98,29). Baraburqazı məbədgahında kurqan qəbirləri, daş lövhələr və digər abidələr var.

Belə guman olunur ki, genezisi e.ə.II-I minilliklərə aid olan maral daşları uzun müddət mövcud olmuş və e.ə. IX-VII əsrlərdə daha da inkişaf etmişlər. Onların tənəzzülü isə e.ə. VI əsrdən etibarən başlamışdır. Bu tip mədəniyyət daşıyıcıları tədricən, yerli daş qəbirlər mədəniyyəti nümayəndələri ilə qaynayıb - qarışmış, bunun nəticəsi olaraq, daş lövhələr qəbirlərdən təkrarən daha yeni məna kəsb edərək, istifadə olunmuşdur.

Sibirin iskit dövrü petroqlifləri də öz zənginliyi ilə seçilir. Ümumilikdə, qayaüstü təsvirlərin əsas obyekti e.ə. VII-I əsrlərdə sırf «iskit-sibir» heyvani üslubunda işlənmiş maral olmuşdur (118, 35). Tuvanın Ovyur, Bay-Tayqinsk, Barum-Xemçik, Sım-Çurek, Saqlı, Dzun-Xemçik və Uluq-Xemçik rayonlarında da belə komplekslər aşkar olunmuşdu (şək.3.15.). İşləmə texnikası, süjet və üslubuna görə Tuva petroqlifləri Xakass, Monqolustan, Altay, Qazaxıstan, Qırğızıstan, Tibet və başqa vilayətlərdə analogiyalar tapır (118,37). Qazaxıstan ərazisində Saymalı-Taş, Talıalı, Cunqarın cənub-qərb ətəklərində Eşkeolmes petroqlif kompleksləri də e.ə. VII-VI əsrlərə aid olub, iskit heyvani üslublu süjeti ilə seçilir (127, 123). Qeyd etmək olar ki, Orta Yenisey hövzəsinin Oqlaxtı qayaüstü təsvirlərinin əksəriyyətini atlar təşkil edir. Tədqiqatçılar bu təsvirləri e.ə. VIII-VII və ya e.ə. VI-V əsrlərə aid edirlər (213, 120, 245). Petroqlifləri heyvani üslubda işlənmiş Orta Volqaboyu (e.ə. VII-VI), aşağı və orta Kamaboyu (e.ə.VII- III) və Bel çayı (e.ə.IV- III) hövzələri ananyin mədəniyyətinin yayılma zonası olub, Sibir (Taqar) və sak təsvirləri ilə oxşarlıq təşkil edir (91, 63-72). Qazaxıstanın təsvirlərində araba, təkər, həmçinin öküz, at üstün yer tutur (127, 121) və Mərkəzi Asiya, Altay abidələri ilə oxşarlıq təşkil edir. Krasnoyarsk su anbarının sağ sahilində



Tepsey dağlarında iki antropomorf qrupun mübarizəsi təsvir olunmuşdur. İşlənmə texnikasına görə, ikonoqrafik cəhətdən, bu fiqurlar Taqar mədəniyyəti abidələri ilə oxşar olduğundan, həmin dövrə aid edilir. Qeyd edək ki, Oqlaxtı, Bıçix, Tamqalı petroqliflərində belə nəhəng pəhləvanlar təsvir olunmuşdur (182, 173-175).

Qayaüstü təsvirləri yazının yaranması və inkişafı ilə bağlayan Popov N.İ. Sibir yazılı abidələrini 3 qrupa ayırır: *a*) fiqurlu və ya təsvirli *b*) ideoqrafik və ya heroqlifi və *v)* hərfi (59, 86). Orta Asiyanın iskit dövrü qayaüstü təsvirləri Dağlıq Bədəxşan rayonunda,Ləngar-Kişt, Akcilqa ərazilərində; Qərbi Pamir-Altayın Aravan qəsəbəsində qeydə alınmışdı (38). Qərbi Tyan-Şanda Kuramin dağının ətəyində Kuruksay qəsəbəsində, şimal-şərqi Özbəkistanda Xocakənd, Sayxansaya, Qaraniyasa, Vorzika petroqlifləri içərisində; Talass, Ur-Maral çökəklərində iskit tipli təsvirlər külli miqdarda toplanmışdı. Müasir Qırğızıstan ərazisində onlar, əsasən, İssık-Kul çökəkliyində: Tamçi-Çolpon -Ata, Ton; daxili Tyan-Şanda Saymalı-Taş; şimali Tyanşanın ətəklərində Çu-İliysk dağlarının şimal-qərb ətəklərində, Uteqen yarğanında (213, 79-120) qeydə alınmışdı. Sayan-Altayda iskit dövrü petroqlifləri Tarbaqatay dağının şimal-şərq ətəklərində Taldı kəndi yaxınlığında, İrtışın yuxarı axarlarında rast gəlinmişdir. Dağlıq Altayda-Kuyus kəndi, Dyalanqaş çayı ətrafında, Katon-Karaqaydan şimalda Böyük Qayada, Buratı, Qarakol və başqa yerlərdə sinxron, anoloji təsvirli qayaüstü rəsmlər vardır (123, 94).

Mərkəzi və Şərqi Monqolustanın iskit tipli petroqlifləri Tolı çayı boyunca, Tebşi-Xobd-Somon dağında, İx-Tenqeriyn-am adlı yerdə, Mərkəzi Aymakın Qaqurt dağında, Biçiqtın-ame, Çuluute, Şivertıname, Xuruqiyn - uzurda, Orxon-Somon, Moqoye, Xavtsaayt və s. ərazilərdə toplanmışdı (123, 94).

Minusinsk diyarı tədqiqatçılar tərəfindən petroqliflərin ən çox toplandığı yer hesab olunur. İskit petroqlifləri əsasən, Orta Yeniseyin qayalarında, Taqar kurqanlarının daş hasarlarında, Aydaşin yazılarında, Suxanixdə, Kunində, Potroşilovskda, Tepsey, Ust-Tube, Şalabolinsk, Oqlaxtı kitabələrində, Bıçix dağında məşhur Boyar kitabələrində rast gəlinmişdir (123, 94). Boyar təsvirləri böyük və kiçik olmaqla 2 yerə ayrılır. Daha erkən dövrə aid edilən kiçik Boyar Troitsk kəndinin 6 km-də, Böyük Boyar isə ondan 400 m aralıda yerləşir. Buradakı şəkillər bir – birindən təcrid olunmamış, vahid kompozisiya və sujetinə görə tamamlanmışdır. Boyar təsvirlərinin yaşının müəyyən olunması üçün qazan, ox, ev, uzanmış qoyun təsirləri, onların hansı texniki üsulla çəkilməsi əsas götürülmüşdür. Qeyd etmək lazımdır ki, klassik Sibir tipli qazanlara məhz Böyük Boyar təsvirlərində rast gəlinmişdir. Məlumdur ki, arxaik tipli iskit qazanları e.ə. VII – VI, klassik qazanlar isə e.ə. V-IV əsrlərə aid edilir (69, 131-132). Böyük Boyar abidəsi öz təsvirlərinə əsasən iskit – sarmat dövrünə aid edilir. Məlumdur ki, Böyük Boyarda Taqar əhalisinin həyatını təsvir edən səhnələr vardır. Sujetlərə əsasən, Orta Yenisey sakinlərinin maldarlıqla məşğul olması, ev təsərrüfatında inək, iribuynuzlu tur tipli heyvan, at, şimal maralı, xırdabuynuzlulardan isə qoyun və keçidən istifadə olunması aydın olur (69,134).

Böyük Boyarda heyvanlarla yanaşı, ağac koma və alaçıq formalı evlər də təsvir olunmuşdur. Qədim ağac tikililərinin müasir dövrə gəlib çatmadığı üçün görə, bu, Taqar yaşayış evləri barədə yeganə tutarlı mənbə sayılır. Ağac tirlərin kurqanlarda müşahidə olunması, ondan tikinti materialı kimi istifadə yüksək texniki inkişafdan xəbər verirdi. Qayaüstündə çəkilmiş alacıq tipli evlərə tədqiqatçılar 1947-ci ildə xakaslılarda da rast gəlmişdilər (69,139). Məlumdur ki, iskit xalqlarının əsas evi məhz bu formada olmuşdur. Təsvirlər əsasən



yerli əhalinin üst və baş geyimləri barədə müəyyən təsəvvür yaradır. Maraqlıdır ki, iskit geyim nümunələri olan qısa kaftan, şişuclu papaq buradakı təsirlərlə eyniyyət təşkil etmişdir. Tuva petroqliflərində maral, dağ keçisi, sığın, qanadlı heyvanlar, ağacvari buynuzlu marallar, yırtıcılar, parçalama səhnələri geniş yer tutur. A.D.Qraç parçalama səhnələrinin Mərkəzi Asiyada yalnız Tuvada qeydə alındığını söyləyir (57, 19).

İskit dövrü petroqliflərində zoomorf təsvirlər daha çox istifadə edilmişdi. Burada əsas süjetlər: maral, at, yırtıcılar, dağ keçisi və qoyunu, qaban, quş və başqa heyvanlar qarına doğru ayaqlarını bükmüş, qəflətən dayanma, tullanma vəziyyətlərində göstərilirdi. Bu isə Sibir iskitlərinin hətta qayaüstü təsvirlərində də öz ənənələrinə sadiq qalaraq, heyvani üsluba daha çox üstünlük verdiklərini təsdiq edir.

# IV FƏSİL
# SİBİR SKİFLƏRİNİN İCTİMAİ QURULUŞU VƏ DİNİ GÖRÜŞLƏRİ

## 4.1. Sosial münasibətlər

Sibirin iskit dövrü ictimai münasibətləri ibtidai icma quruluşunun dağılması və sosial-əmlak bərabərsizliyinin inkişafına uyğun gəlir. Heyvan sürülərinin çoxalması və atadan-qalma hüququn vərəsə kimi oğula keçməsi nəticəsində var-dövlət və təbii ki, hakimiyyət ayrı-ayrı ailələrin əlində cəmlənirdi. Bununla belə, onlar digər icmaçılarla əlaqəni kəsmirdilər. İctimai münasibətlərdəki təbəqələşmə və fərqlilik əsasən qəbir abidələri ilə xarakterizə olunurdu. Sibir iskitlərinin qəbirlərinin quruluşu, daxili avadanlıqların materialı, sayı və s. sosial strukturu açmağa kömək edir. Taqar qəbirlərinin altı növünü ayıran S.V.Kiselyov ilk dəfə olaraq, hərbçiləri sosial kateqoriya kimi təqdim etmişdir (123,118). A.D.Qraç Sibirin cənubunda iskit dövrü qəbirləri araşdırmış, onların kateqoriyasını ölənlərin sosial vəziyyətindən asılılığı ilə əlaqələndirmişdir (58). Digər görkəmli tədqiqatçılar Taqar kurqanlarının ölçüsü və tikintisindəki fərqləri bərabərsizlik nümunəsi kimi göstərmişlər: - torpaq örtüyünün fərqli hündürlüyü, kənarlarda daş sütunların sayı (4, 6, 8) və ya alçaq daş plitələr və s. (123, 118). Taqar cəmiyyəti bütövlükdə ibtidai-icma quruluşunun dağılması səviyyəsində olmuşdur. Odur ki, qəbir abidələrinə diqqət yetirərkən, sayca daha çox avdanlıqlı - varlı və bir neçə qablar, bir-iki tunc lövhəciklərlə müşayət olunan - kasıb qəbirlərin kəskin fərqləndiyini görə bilərik.

Ümumiyyətlə, cəmiyyətdə baş verən təbəqələşmə qəbir avadanlıqlarında daha qabarıq nəzərə çarpmışdır. Bu fərq iskit üçlüyünün kurqanlarda yerləşməsinə də təsir göstərmişdir. Heyvani üslubun yaranması və tətbiqini aristokrat təbəqəsinin adı ilə bağlayan tədqiqatçılar məhz varlı qəbrlərində bu üslubda işlənmiş predmetlərin daha çoxluğunu və onların əksəriyyətinin qızıldan düzəldildiyini əsas gətirmişdilər (195,43-44). Hətta qızıl boyunbağılar adi bəzək əşyası kimi deyil, həm də hakimiyyət simvolu kimi qəbul edilirdi. Yunan müəlliflərinin Midiya əyanlarının boyunbağı və bilərzikdən ibarət spesifik bəzəklərinin olması barədə verdikləri məlumatlar, Kssereksin saray relyeflərində əyanlarının boynunda xüsusi boyunbağı təsvirləri də bunu təsdiq edir (225). Qeyd edək ki, boyunbağılar heyvani üslubda işlənmiş, üzəri qrifon – yarı şir, yarı fantastik heyvan fiqurlu olmuşdur. Təbiətdə ümumi qəbul olunmuş qanunauyğunluğa görə, aslan heyvanların şahı sayılır. Əgər bu yönümdən yanaşsaq, vəhşi təbiətdə olan sistemin cəmiyyətin sosial həyatına çox incəliklə daxil edilmiş variantını burada aydın görə bilərik. Qanadlı və buynuzlu şirləri müasir tədqiqatçılar şir başlı qrifon, şir – qrifon və ya qrif adlandırırlar (168,290-293; 36,37). Cənubi Sibir iskitlərinin əsilzadə qəbrlərində yayılmış belə təsvirlər əzəmət, hakimiyyət və hərbi gücün simvolu kimi qəbul edilmişdir.

Cənubi Sibirin iskit dövrü meşə-çöl rayonunda Taqar qəbilə qruplarının 7-8 ərazi birliyi olmuşdur. Çox yəqin ki, tayfa inzibati-siyasi funksiyanı da yerinə yetirmişdir. Burada başçı-nomarxın rəhbərlik etdiyi idarəetmə, vergi və hərbi hakimiyyəti təmsil edənlərlə yanaşı, ictimai işlərin təşkili funksiyasını yerinə yetirənlər də mövcud olmuşdur. Yəni genetik qohumluq saxlanılmaqla idarəçilikdə vəzifə bölgüsü dəqiq müəyyənləşdirilmişdir. Bunu artıq Taqar cəmiyyətində sosial strukturun qəti pillələrinin seçilməsi kimi qiymətləndirə bilərik. Sibirin iskit tayfalarında formalaşmaqda olan dövlətin ilkin atributları buradakı «çar» kurqanlarının qazıntıları ilə üzə çıxarılmışdır. İskitlərdə (istər qərb, istər şərqdə yaşayan) dövlətin yaranması, sosial-siyasi səddlərin kəskin seçilməsi

elmi ədəbiyyatlarda birmənalı izah olunmamışdır. XIX əsrdə bəzi tədqiqatçılar iskitləri barbar xalqlar sırasında görsələr də, sivilizasiyaya yaxın hesab etmiş, XX əsrin əvvəllərində M.P.Rostovsev hələ erkən dövrdə iskitlərdə güclü dövlətin, Semenov – Zuser iskitlərdə kollektiv mülkiyyətin, A.Y.Bryusov dövlətəqədərki cəmiyyətin olduğunu bildirmişdi (123, 111). Ümumiyyətlə isə iskitlərdə dövlətin mövcudluğu barədə 2 mövqe üstünlük təşkil edir. Bəzi tədqiqatçılar iskitlərdə dövlətin e.ə. III-II əsrlərdə, B.N.Qrakov, A.İ.Melyukova, M.İ.Artomonov və başqaları isə e.ə. V əsrə qədər hərbi-demokratik cəmiyyətin, e.ə. V əsrdən etibarən despotik hakimiyyəti olan güclü çarlığın yarandığını bildirmişlər (55, 9). A.P.Smirnov iskitlərdə dövlətin e.ə. V əsrdən də əvvəl yarandığını təsdiq etmişdir (178).

Avrasiya çöllərində erkən dövlətçiliyin inkişafında 2 mərhələ ayırmaq mümkündür. I mərhələ e.ə. VII-VI əsrləri əhatə edir. Bu dövrdə ilkin «çar» qəbir-sərdabələri meydana çıxır: Ukrayna ətrafında Kelermes kurqanı, Priaralyedə Taqisken və Uyqarak qəbristanlıqları, Mərkəzi Qazaxıstanda Tasmola, Tuvada Arjan və s. II mərhələ e.ə. V əsrdən, sosial strukturun formalaşmasında yeni mərhələ ilə başlayır. Maddi mədəniyyətin, incəsənətin daha artıq inkişafı cəmiyyətin ideoloji konsepsiyasının formalaşmasında, böyük bir ərazidə iqtisadi, siyasi və inzibati strukturun cəmlənməsində və bu kimi amillərlə müşahidə olunmuşdur. Həmçinin, bu dövrdə tayfaların birləşməsinə gətirib çıxaran dini hakimiyyət də bərqərar olmuhdur. Təbii ki, bütün bunlar arxeoloji qazıntılar nəticəsində, ayrı-ayrılıqda öz təsdiqini tapmışdır. Nəinki dövlətin yaranması, habelə, onun xarakteri, strukturu müxtəlif mövqelərin yaranmasına gətirib çıxarmışdı. Dövlətin quldar xarakter daşıması nəzəriyyəsi daha çox yayılmışdı. Bununla yanaşı tədqiqatçılar burada klassik quldarlığın olmamasını da bilirdilər. Lakin ictimai-iqtisadi formasiyaların dəqiqliyini, onların əvəzolunma ardıcıllığının pozulmazlığını əsas tutan materialist tədqiqatçılar iskit cəmiyyətində quldarlığın olduğuna əmin idilər. M.İ.Rostovsev iskitlərdə Xəzər xaqanlığına oxşar hərbi-feodal quruluşun mövcudluğu fikrini irəli sürmüş, onun ardınca N.P.Toll, M.Ebert, D.J.Dümezil iskit cəmiyyətinin feodalizm yolunda inkişaf etdiyini təsdiq etmişlər (163; 123, 112). A.M. Xazanov iskit cəmiyyətini hər hansı istismarın üstün olmadığı erkən sinfi struktur kimi qiymətləndirmiş və sosial tərkibi 2 istiqamətdə öyrənmişdir. Belə ki, onun fikrincə, ailə və onun formasını, nəsili, vərəsəlik qaydasını, iskitlərdə nəsli-tayfa quruluşunu, eyni zamanda, iskitlərdə yaranmış erkən sinfi təsisatları- asılı əhali kateqoriyasını, qulları və azad əhalini, kahinlik sistemini, aristokratiya və çar sülaləsinin xarakterini qruplaşdıraraq öyrənmək lazımdır (194). Məlumdur ki, iskit ailəsi: patriarxal böyük ailəyə və kiçik ailəyə (ər, arvad, uşaqlar) bölünürdü. Özünəməxsus mədəni-sosial birlik olan iskitlər dövlətçiliyə qədər uzun yol keçmişlər. V.İ. Kuzişin bu yolu 3 mərhələyə ayırmışdır: e.ə. VII-VI əsrlərdə dövlətçiliyin ilkin rüşeymlərinin yaranması; e.ə. V-VI əsrlərdə dövlətçiliyin erkən formasının yaranması; e.ə. III-eramızın III əsri iskit dövlətçiliyinin köçəri dövlətin xüsusi formasına çevrilməsi (102, 25). O, son iskit dövründə dövlətçilik əlamətlərinin göstəricisi kimi - ərazinin və sərhədlərinin qəti müəyyənləşməsi, mühafizəsinin təşkili, etnik konsolidasiya, oturaq əkinçiliyə keçid, şəhərlərin salınması və qonşu ərazilərin işğalı ilə geniş ərazi idarəetməsinin yaradılması kimi cəhətləri əsas hesab edirdi (102,26-27).

Sosial təşkilatlanmanın yuxarı səviyyəsi Herodot tərəfindən iskitlərin 3 çarlığa bölünməsi ilə şərtləndirilmişdir (52,217). İskit cəmiyyətində sosial təbəqələşmənin üç pilləli olmasını daha sonralar tədqiqatçılar da təsdiq etmişdir (193,81). Əhali əsasən, azad iskitlər, kahinlər, asılı əhali kateqoriyasına (kasıblamış maldar, xərac verənlər, qullara) bö-

lünürdü. Herodot qullar haqqında IV kitabında yazırdı ki, iskitlər bütün qulların gözünü çıxardırdı və əsirlərin bir hissəsini qurban kimi kəsirdilər(52,187). Aristokratlar – cəmiyyətin yuxarı təbəqəsi sayılsa da, onlar içərisində çar sülaləsi seçilirdi və çarın ilahi mənşəli olması fikri dövlətin ideoloji əsasını təşkil edirdi (194, 191).

Qeyd etdiyimiz kimi, Cənubi Sibirdə ictimai-sosial münasibətlərin inkişafı, əsasən, kurqanların köməkliyi ilə daha qabarıq nəzərə çarpır. Taqar mədəniyyətinin ayrı-ayrı mərhələləri üzrə tədqiq olunmuş kurqanlara baxarkən, Bainovsk, podqornovsk, saraqaşen, tesin dövründə Sibir iskitlərinin ictimai mənzərəsini ardıcıl izləmək mümkündür. Taqar mədəniyyətinin abidələrində cəmiyyətin nəsli-qəbilə təşkilatlanmasını izləmək mümkündür. Bainovsk və podqornovsk mərhələlərində daş hasarlara üstünlük verilmişdir. Hər biri tondan artıq çəkiyə malik olan, belə abidələrin tikintisinin çoxsaylı kollektiv tərəfindən icra olunduğu şübhə doğurmur. Saraqaşen və tesin dövrlərinin məqbərələri isə daha ağır zəhmət tələb edən tikililər olmuşdur. Yəni artıq bu dövrdə insanların daha sıx birliyi formalaşmışdı. Təbii ki, belə əlaqələr təkcə qəbir tikintisi prosesi zamanı yaranmır, ümumi təşkilatlanmanın, rəhbərlik və idarəçilik ənənələrinin güclənməsi ilə xarakterizə olunurdu. Bütün mərhələlər boyu əsas əhali kütləsi üçün xarakterik olan eynitipli qəbirlərdə sadə və standart dəfn ayini və avadanlıqlar qeydə alınmaqla yanaşı, onlarla bərabər möhtəşəm tikintili varlı qəbirləri də seçilmişdir. Məsələn, podqornovsk mərhələsinə tayfa və ya qəbilə başçısının dəfn olunduğu 4 kurqan aiddir. Bu kurqanların ümumi sahəsi 625-840- $m^2$ olub, həm monumental hasarları, qəbirüstü örtüklərinin iri ölçülülüyü ilə seçilirlər (44, 95). Uzun-Oba, Tiqey, I və II Kara-kurqan, Tunçux kurqanlarındakı qarətlərə baxmayaraq, dəbdəbəli dəfn mərasimi izləri, qızıl bəzək və əşyalar yuxarıda dediklərimizi bir daha təsdiq edir.



Əgər Bainovsk dövrünün sıravi əhalisi arasında hərbçi qəbirləri qismən seçilirdisə, podqornovsk mərhələsində bütün kişi qəbirlərinin yarıdan çoxu hərbçi qəbirləri idi. Bu, iskit qəbirləri üçün xarakterik hal olduğundan, sadəcə yada salmaq istərdik ki, ayrı-ayrı tədqiqatlarda dəfələrlə iskitlərin hərbçi xalq olduğu, ox və kamanın onların əsas silahı sayılması və hətta onların döyüşkən xarakterinin heyvani üslubda belə əks olunduğu vurğulanmışdır(56, 81,90). Hərbçi qəbirləri xüsusi hasar içərisində ayrıca və ya digər qəbirlə yanaşı yerləşirdi (44, 95). Ümumiyyətlə, iskit-sibir dünyası üçün kiçik və orta ölçülü qəbirlər hərbçi qəbirləri hesab oluna bilər. Hərbçilərdə sosial kateqoriya bir çox tədqiqatçılar tərəfindən də diqqəti çəkmişdir (88). Tədqiqatçılar «iskit triadasını, dəfn adətlərinin bəzi xüsusiyyətlərini və hər şeydən öncə hərbçi (döyüşçü) qəbirlərini» Taqar mədəniyyətini iskit-sibir dairəsinə bağlayan əsas cəhətlərdən hesab edirlər (157, 126). Hərbçilər sosial kateqoriya kimi Cənubi Sibirin tədqiqatçılarından olan S.V.Kiselyovun da diqqətini çəkmişdir (89,79). Ümumiyyətlə, Sibirdə sosial inkişafın səviyyəsinin müəyyənləşdirilməsinə, baxılan dövrdə, hərbçi qəbirlərinin olub-olmaması yönümündən yanaşmaq mümkündür və əgər nəzərə alsaq ki, əslində Taqar mədəniyyətinin sonuna yaxın artıq hər bir kişi hərbçi sayılırdı və demək olar ki, qəbirlərin əksəriyyəti döyüş yaraq-əsləhələləri ilə müşayət olunurdu, onda hərbçi dəfnlərinin sayını dəqiqləşdirməyə lüzum qalmadığı aydın olar. Bununla yanaşı, Taqar mədəniyyətinin bainov (e.ə.VII-VI) dövrü zəif differensasiya ilə xarakterizə edilirdisə, podqornovsk (e.ə. VI-V) dövründə döyüşçü dəfnləri çoxsayldır (Kara-kurqan, Uzun – Ob və s.). Belə ki, Bainovsk dövründə hərbçilər bütün kişi qəbirlərinin 20 %, podqornovsk dövründə 50 %, saraqaşen dövründə 90 % təşkil etmişdi (105, 166).

Qəbirlərdə silah-sursat sayının artımı professional hərbçi

təbəqəsinin artıq formalaşmasından xəbər verir. Bütövlükdə, Sibirin iskit dövrü qəbirlərində qab-qacaq və bəzəklər silah tapıntıları qədər çoxsaylı deyil. Əgər varlı döyüşçülərin qəbirlərində bu avadanlıqlara rast gəlinsə də, sıravi döyüşçülərin qəbirləri bu baxımdan kasıb hesab edilə bilər. Döyüşçü qəbirləri üçün kəmərə bərkidilən xəncər, bıçaq, döyüş baltaları, sümük və ya tunc ox ucluqları, habelə digər yaxın və uzaq məsafəli döyüş silahları xarakterik idi. Bəzi qəbirlərdə xüsusi işarə olan "şian" - ayaq üçün tikmə də tapılmışdı (123, 118). Çox güman ki, bu varlı təbəqəyə aid iskit döyüşçülərinə xas olmuşdu.

İskit qəbirlərinin tədqiqi gedişində maraqlı hallardan biri qadın qəbirlərindən onlara məxsus əşyalarla (güzgü, bəzəklər, geyim) yanaşı silahların ox-kaman, cida, sapand daşı və s. tapılması idi. Yüzlərlə tapılan belə silahlı qadın qəbirlərinin ən erkəni e.ə. VI-V əsrin əvvəllərinə aid olmuşdur. Şübhəsiz ki, iskit cəmiyyətində qadının hərbi təlimlərdə iştirakı, müxtəlif silahlardan istifadəsi tədqirəlayiq hal olmuşdu. Lakin ox, yay, nizə, cida kimi atıcı silahlardan fərqli olaraq, xəncər, balta qadın qəbirlərində yox dərəcəsindədir. Bununla da, müəyyənləşdirmək çətin deyil ki, iskitlərdə qadınlar vəzifə etibarilə yüngülsilahlı hərbçilər kateqoriyasına aid olmuşlar (76, 182; 190, 13). Həm Şimali Qaradəniz sahili, həm də Sibirin iskit dövrü qəbirlərində silahlı qadın dəfnləri qeydə alınmışdır. Dnepryanı meşə-çöl hissəsində, Aşağı Don və Rostov-Don ətrafında, Şimal-Qərbi Qaradəniz sahilində, Qafqaz və Kubanda, Minusinsk çökəkliyində belə qəbirlər vardır (190, 13-14; 76, 176). Azov ətrafında Maloçnaya çayı axarlarında Zaporojye vilayətinin Novoe kəndində 3 ədəd və Akimovka ş.t.q. 13 kurqan qrupu tapılmışdı. Burada qadının kəllə sümüyünə yaxın 2 dəmir ox ucluğu, ayağının aşağısında taxta qabda at əti və dəmir bıçaq qoyulmuşdu. Qəbrin şimal-qərb küncündə 2 nizə vardı. Qadının sol tərəfindəki 2



ağac və 82 tunc ox ucluğu dəri oxluq içərisinə qoyulmuşdu. Digər 2 qəbir yuxarıdakı təsvirlə oxşar olsa da, 3-cü qəbirdə 130 ox ucluğu ilə yanaşı bilərzik və muncuqlar da tapılmışdı (190, 4). Yelizavetov qəbirstanlığının 30 № kurqanının 2-ci qəbrində ox ucluğu, 1 cüt nizə və qılınc; Dnepropetrovsk vilayətinin 13 qarət olunmamış qadın qəbirlərində nizə və ox ucluqları, qılınclar tapılmışdır (205, 125). İskit çöllərində 77 silahlı qadın qəbri məlumdur. Belə qəbirlərin əksəriyyətində tək, 4 halda isə südəmər körpə və qulluqçu ilə birgə dəfn qeydə alınmışdır. Qeyd edək ki, qadınların yaşı 18-60 arasında olsa da, burada əsas çoxluğu (47%) 25-35 yaşlıları təşkil etmişdir (190, 11).

Qadın qəbirlərində silahların olmasını alimlər birmənalı qarşılamamışlar. K.F.Smirnov bu qadınların Volqa-Don hövzəsi savromatlarından olub, iskitlərlə nigahda olan qadınlar hesab edir və sarmat qəbirlərinin 20%-ni silahlı qadın qəbirlərinin təşkil etməsini əsas gətirərək fikrini təsdiqləyir, Fialko E.E. onunla razılaşmayaraq, iskitlərdə 25% qadın qəbirlərində silah olduğunu bildirərək, amazonkaların əsl iskit qadını kimi göstərməyə çalışmışdır (190, 15). Taqar cəmiyyətində isə silahlı qadın qəbirləri cəmi 5% təşkil edirdi (44).

İctimai münasibətlərdəki bərabərsizlik kəskin olaraq təkcə sırf varlı və kasıb qəbirləri arasında deyil, həm də eyni kamerada dəfn olunmuş sıravi adamlar arasında da mövcud olmuşdu. Belə kameralarda bəzi qəbirlərin yanında avadanlıq heç olmamış, bəzilərində az sayda bəzəklər qoyulmuşdu. Kollektiv qəbirlərdə həm sosial, həm də əmlak bərabərsizliyini görmək mümkün olmuşdur. Bu hal əmlakın vərəsəlik hüququnun yaranmasının nəticəsi kimi də izah oluna bilər.

Taqar mədəniyyətinin bütün mərhələlərində tayfa başçıları üçün qəbilə qəbristanlığından kənarda xüsusi kurqan ucaldılırdı. Belə kurqanlarda əvvəllər tayfa başçısı və onun arvadı, sonralar isə onun ailə üzvləri də dəfn olunurdu. İskit-Sibir

dünyası üçün ümumi olan ictimai kateqoriyaların strukturu A.İ.Martınov tərəfindən 5 qrupa bölünmüşdür. Onun fikrincə, cəmiyyətin əsasını sıravi icmaçıların geniş qrupu, aristokratiya, professional vərdişləri olan sənətkar təbəqəsi, hərbçilər, qullar təşkil edirdi (123, 123-124).

İskit dövrü Tuvada sosial vəziyyət ibtidai icma münasibətlərinin dağılması mərhələsini əhatə edirdi. Burada da belə münasibətlər qəbir abidələri fonunda aydın nəzərə çarpır. Sadə avadanlıqlı, kiçik ölçülü sıravi icmaçı qəbirləri ilə yanaşı patriarxal ailə başçılarına və ya tayfa rəhbərlərinə məxsus torpaq və daşdan tikilmiş dəbdəbəli avadanlıqlı qəbirlər dediklərimizi bir daha təsdiq edir. Uyuk çayı sahilində 32№-li kurqandakı qadın qəbrindən (1929-cu ildə S.A.Teplouxov tərəfindən qazılmışdır) çox saylı qızıl bəzəklər: baş örtüyünün bəzəkləri, sinəbənd, spiralvari sırğalar tapılmışdır ki, onlar, əsasən heyvani üslubda işlənmişdir. M.X.Mannay-Ool haqlı olaraq, bu qəbrin varlı əyan və ya qəbilə başçısının həyat yoldaşına aid olduğunu bildirmişdir (109, 89-90). Tuva ərazisində sosial münasibətlərin kəskin və qabarıq ifadəsi *Arjan* kompleksi materiallarında əks olunmuşdur. 120 m diametri, 3-4 m hündürlüyü olan 70 kameralı kurqan 5000 $m^2$ sahəni əhatə etmişdir. Kurqan örtüyünün daşları 20-50 kq ağırlığında, 20-40 sm uzunluğunda və daha artıq ölçülərdə olmuşdur (60, 5-9). 64 $m^2$ sahəni əhatə edən çar qəbri «çar və çariça», 8 əyan və 6 minik atı üçün nəzərdə tutulmuşdur. Əvvəlki fəsildə qeyd etdiyimiz kimi, Arjanda 160 minik atı dəfn edilmişdir ki, onların 13 müxtəlif ərazilərdən gətirilməsi və atla dəfninə görə Ulsk kurqanından sonra ikinci sayılması şübhə doğurmur.

E.ə. VI-V əsrlərə aid iskit çar kurqanlarının siyahısı Soloxa, Çertomlık, Aleksandropol və Oğuzla bitir. Tolstaya Moqila, Kül Oba, Meliotopol, Qaymanova Moqila kurqanları əslində çar ailəsi və ya iskit hərbi birləşmələrinin böyükləri – nomarxlar üçün tikilmişdi. Digər kurqanların böyük əksəriyyəti varlı təbəqə qrupları: iskit aristokratiyasının müxtəlif təbəqələrinə məxsus tayfa başçıları, xüsusi səlahiyyətli – pilofor, çar drujina üzvləri – skeptuxlar (skipetpo saxlayanlar) və başqalarına məxsus olmuşdur (76, 121). Təbii ki, sosial münasibətlərin formalaşması gedişində böyük (d. 60-70 m, h. 8-10 m) və kiçik (d. 5-6 m, h. 0,3-0.5 m) ölçülü kurqanlar meydana çıxır və kurqanların ölçüsü ölənin imkanından asılı olurdu. Bə'zən bü türbələr sahibinin sağlığında tikilirdi (123, 121). Yada salaq ki, Misir fironları da öz qəbirlərini sağlıqlarında görmək istəyirdilər və təbii ki, iri ölçülü bu tikililərdə çox adam – çara tabe olan və ya tayfa üzvləri iştirak etməli idi.

Qeyd edək ki, kurqan qrupu içərisində digərlərindən böyüklüyünə, yerləşmə istiqamətinə görə fərqlənən, başlanğıc nöqtə kimi seçilən və ya tam mərkəzdə yerləşən kurqan başçı rolunu oynamışdır. Tuvanın iskit dövrü qəbir abidələrində: Aymırlıq, Saqlı-Baji, Çinqə kurqanlarında bu qanunauyğunluq gözlənilmişdir. Hətta Salbık, Uyuk, Pazırık və s. kimi çar kurqanlarında da belə, dominat sistem nəzərə çarpmışdır. Təbii ki, bu misal Qaradəniz ətrafının iskit dövrü qəbir abidələri hesabına genişləndirilə bilər (159, 34).

Sibirin iskit dövrü qəbir komplekslərinin materialları Taqar cəmiyyətində qəbilə-tayfa əsilzadələrinin seçilməsi prosesini müşahidə etməyə imkan verir. Abakan çöllərində e.ə. VI əsrə aid Kara-Kurqan adlı monumental kurqan qazıntı zamanı 4 m hündürlükdə, 14 böyük dirəkli daş hasar isə 3 m uzunluqda idi. O dövrdə quru boz çöldə belə böyük kurqanlar uzaqdan qara nöqtə kimi seçildiyindən, yəqin ki, kurqanın adı buradan götürülmüşdür. Hasar içərisində 20 $m^2$ sahədə 2 qəbir quyusu vardı. Ağac tirlərdən ibarət bir neçə kameralı qəbirlərdə tayfa başçısı və onun xanımı dəfn olunmuşdu (45, 82-83).

Dəfn prosesinin təsviri onun ümumxalq matəmi şəklində keçirilməsindən xəbər verir. Belə ki, minlərlə adam qəbrin tikilməsinə lazım olan ağac və daşları gətirmək üçün yaşadıqları yerdən uzaqlara gedir və birgə tikintidə iştirak edirdilər. M.P.Qryaznov Arjandakı dəfn mərasimində 300 atın kəsilib-bişirilməsi və 10 minə qədər adamın burada iştirak etməsi haqda məlumat vermişdir (60, 50). Eyni zamanda çar qəbrində müşayətçi şəxslərin olması, onların hansı səlahiyyətləri daşıması da sosial münasibətlərə aydınlıq gətirə bilər. Herodotun fikrincə, saqi, aşbaz, mehtər, cangüdən və xəbəraparan çarla birgə dəfn olunurdu (52,204). Nəzərə alsaq ki, onlar sadəcə qulluqçu yox, əyan, vəzifəli şəxslər olmuşdur, cəmiyyətdəki ictimai təbəqələşmədə hansı şəxslərin yüksək mövqe daşıdığı aydın olar. Bundan əlavə, kurqanda 13 müxtəlif ərazidən gətirilən 7 qrup eyni tipli atlar çarın şəxsi atları sayılmır, ona verilən hədiyyə hesab edilirdi (60, 70). Təbii ki, o dövr üçün xüsusi qiyməti olan at məhz kifayət qədər hörmətli şəxsə hədiyyə edilə bilərdi və ya bu, sadəcə hədiyyə olmamış, asılı xalqların, tayfaların çara son borcu, hətta məcburi yığılmış vergi də hesab oluna bilərdi. Eyni zamanda, əgər atlar həmqəbilələrin hədiyyəsi idisə, onunla tayfanın neçə qollarının olduğunu müəyyənləşdirmək olar: I Pazırık-10, Bereş-16, Şibe-14, III, IV Pazırıkda-14, II Pazırıkda-7 tayfanın birliyindən söhbət edə bilərik (168,238).

İskit dövrü Tuva ərazisi üçün 3-4 sosial qrup ayırmaq mümkündür: çar, aristokratiya, aşağı təbəqə və bu təbəqəyə daxil edilən qullar. Belə qruplaşma yuxarıda bütün iskit –sibir dünyası üçün verdiyimiz təsnifata uyğun gəlir. Tuva ərazisində e.ə. VII-III əsrlərdə dağ-mədən işinin və metallurgiyanın inkişaf etdiyini, Xovu-Aksı, On-Kajaa, Bay-Syut, Kızıl Torq, Çırqakı, Çinqe-Xem kimi iri mis-tunc emalı ərazilərinin formalaşdığını nəzərə alsaq, xüsusi kateqoriya kimi dəmirçiləri, daha dəqiq desək, sənətkarları da ayıra bilərik



(115, 64; 116). İskit dövrü Dağlıq Altay əhalisinin sosial-strukturu əsasən Pazırık, Başadar, Tuekta kurqanlarının qazıntıları əsasında müəyyənləşdirilmişdir. Sosial təbəqələşmənin təyin olunmasında qəbir avadanlıqlarının, qəbirüstü tikilinin, ölünün vəziyyətinin, mərasimin mühüm rol oynamasını qərb alimləri birtərəfli qiymətləndirməmiş, bəziləri hətta onun rolunu inkar etmişlər (25, 25,10). Lakin bununla belə, çar qəbirləri üçün bu xarakteristikanın daha münasib olduğu görünür. Məlumdur ki, iskit kurqanlarında arabalar qırılmış və ya sökülmüş halda tapıldığından, onların quruluşunu dəqiqləşdirmək çətindir. Qəbrin içərisinə yerləşə bilməsi üçün, əvvəlcə araba, sonra dişlə (çillə-qonşu aləti), boyunduruq qoyulurdu. İskit kurqanlarında arabaların qalıqları 3 istiqamətdə qeydə alınmışdı: qəbirdən kənarda, giriş quyusunda və qəbrin dibində. Əsasən «çar» kurqanlarında: Aleksanropolun mərkəzi qəbrində, Krasnokut, Çertomlık kurqanlarında qəbirdən kənarda, torpaq örtüyündə belə qalıqlar tapılmışdı. Meliotopol, Qaymanova Moqila, Tolostoya Moqila, Kazennaya Moqila, Qaymanova Polya №43, Berdyansk kurqanlarında giriş quyusunun örtülü hissəsində araba izləri vardı (39, 105). V Pazırık kurqanında qəbirdə araba qalıqları aşkar edilmişdi (şək 4.1.). Araba şam ağacından düzəldilmiş, iki təkər oxu, öz aralarında birləşən 6 təkərli korpus, yan barmaqlıqlar, üstlük, qoşqu böyunduruğu, yan qayışı üçün vallardan ibarət olmuşdu. Diametri 160 sm olan təkər top, mil və çəmbərdən düzəldilirdi. Hər tərəfdə uzunluğu 70-71 sm olan 34 mil vardı (167, 236).

İskit arabalarında dəmir təkər qurmalarından istifadə edildiyinə görə S.S.Bessonova onların qalştat, frank və kelt təkərlərinə oxşadığını və e.ə. IV əsrdən qəbirlərə qoyulmağa başlandığını güman edir (39, 11). Kurqanlarda qoşqu və ya minik atlarından hansının çox olması fikir ayrılığı yaratsa da, minik atlarının çoxluq təşkil etdiyi daha inandırıcı görsənir.

V Pazırık kurqanında həm araba qalıqlı qoşqu, həm də minik atları dəfn olunmuşdu. Tədqiqatçılar Altay qəbirlərində minik atlarının çoxluğunu onunla izah edirdilər ki, at sahibi öldükdən sonra, heç kimin bu atdan istifadə etmək hüququ olmadığından, atı da onunla dəfn edirdilər və qoşquda da atdan çox öküzə üstünlük verirdilər (167, 147, 232-235). Arabaların dəfn mərasimin də cənazə və ya toy arabası ola bilməsi də ehtimal etmək olar.

İskitlərdə hunlarda olduğu kimi, ağsaqqallar qəbilənin rəhbəri sayılırdı. Hələ XX əsrin 50-ci illərində S.İ.Rudenko belə bir nəticəyə gəlmişdi ki, Dağlıq Altayda iri tayfa başçısı qəbirləri ilə yanaşı, kifayət qədər avadanlığı olan orta ölçülü varlı qəbirləri və kiçik qəbirlər də olmuşdur (164, 56). Bununla belə, o, Dağlıq Altayın kurqanlarının əksəriyyəti böyük əhali kollektivinin inşa etdiyi əyan, aristokratlara aid edirdi (164, 54-55). Bu ərazidə ayrı-ayrı tayfalara aid patriarxal ailələrin kurqan qrupları-tayfa qəbirstanlıqları da qeydə alınmışdır. Bu dövrdə nəsli tayfa başçıları cəmiyyətin hərbi-demokrat quruluşunun başında dayanırdı. Mal-qara ayrı-ayrı ailələrin xüsusi mülkiyyəti sayılsa da, örüş-otlaqlar tayfanın ümumi nəzarətində idi. Hətta iri qəbilələr arasında da birinin daha qüvvətli olması I Pazırık kurqanında özünü göstərmişdir. Arjan kurqanında olduğu kimi, burada dəfn olunmuş atların asılı qəbilələrə məxsus olması M.P.Qryaznov tərəfindən bildirilmişdir (61, 69-70). Heyvanlara vurulan damğalar onu göstərir ki, onlarda fərdi mülkiyyət möcud idi. Bunu Hunlara, Orxon-Yenisey türklərinə, həm də iskitlərə aid etmək mümkündür (222,153). Dağlıq Altay maldarlarında ailə mülkiyyətinin mövcudluğunu arxeoloji qazıntılar zamanı qəbirlərdən tapılmış atların qulaqlarındakı nişanlar-en və kəsiklər təsdiq edir. Müxtəlif ailələrə məxsus atlar bir ilxıda otarıldığından təbii ki, nişanların vacibliyini nəzərə almaq olar. Onlar atların qulaqlarını adətən iki yaşında kəsirdilər



(164,52). Pazırıq kurqanından tapılmış atlarda ön tərəfdən qulaqlarında en açılmışdır. Onlardan birinin sağ qulağın da bir, digərin də dörd, üçüncü atda isə sağ da iki, solad dörd kəsik vardı. Yerdə qalan dörd atın ancaq sol qulaqları tapılmış, onlardanda ikisi kəsikli, ikisi bütövdür. Digər üç atın isə yalnız birində iki kəsik qeydə alınmışdır (58,67).

Sibir iskitlərinin ictimai mənsubiyyətinə diqqət yetirərkən çar, aristokrat və sadə şəxslərin özünəməxsus sosial təbəqə yaratdığını seçmək mümkündür. Bunu həm geyim, bəzək nümunələri, bütövlükdə yaşayış tərzi, həm də qəbir abidəsi və avadanlıqları bir daha təsdiqləyir. Bütün bunlar isə sosial təşkilatlanmanın ən yüksək formasının-dövlətçilik ənələrinin mövcudluğunu söyləməyə imkan verir.

### 4.2. Dini görüşlər

İskit-sibir incəsənətində aparıcı mövqe tutan heyvani üslubun istər sadə zoomorf, istər parçalama, hücum, istər halqavari çevrilmiş motivləri həm bütövlükdə, həm də ayrı-ayrılıqda özünəməxsus məna çaları ilə seçilir. Bu, özünü iskitlərin dünyagörüşündə-dini inanclarında, sakral-magik xarakterli mifologiyasında qabarıq göstərirdi. Ayrı-ayrı heyvanların təsvirləri bir sitayiş obyekti olaraq təbiətlə bağlı ya kosmoqonik inamla, ya da totemizmlə də əlaqədar ola bilərdi. Sosial dünyagörüşü də iskit incəsənətinin əsasında özünə yer tutmuşdu. İncəsənət əsərlərinin əksəriyyəti tayfa başçısı, hərbi-teokratik rəhbərin atributu kimi ideoloji liderliyin əlaməti idi. Bu iskit, Pazırık, Taqar çar qəbirlərində əksini tapmışdır. Sosial-ideoloji anlamda bütün kosmos dövləti, dövlət çarı təmsil edirdi. İskitlərin mənşəyilə bağlı Herodotun göstərdiyi əfsanələrdə də hakimiyyət rəmzləri də məhz kosmoqonik xarakter daşımışdı.

İskit heyvani üslubunun əsasını təşkil edən zoomorf təs-

virlər həm də cəmiyyətin mənəvi mahiyyətini açaraq bu və ya digər dünyagörüşünü, ideyanı əks etdirirdi. Heyvanların mübarizəsi səhnəsi tədqiqatçılar arasında fərqli izah tapdığından, üç əsas konsepsiya formalaşmışdır: totemist, magik və mifoloji. D. Karter, A. Alfoldi, E. Farkaş, V. Holmsten, L.Dyula və hətta A.D.Qraç totemist nəzəriyyənin tərəfdarı olmuşdurlar. Onlar çöl sakinlərində döyüşkənlik ruhunun güclü olduğunu və burada iki zoomorf totem-əcdad arasında mübarizənin təsvir olunduğunu güman edirdilər (103,4).

Magik nəzəriyyə tərəfdarları (K.Şefold, İ.Yatsenko, Q.Fyodorov-Davıdov, A.Xazanov, A.Şkurko) belə hesab edir ki, heyvan təsvirləri predmetlərdə o məqsədlə yerləşdirilmişdi ki, bu predmet və onun sahibi heyvana xas əlamətlərə və ya xarakterə malik ola bilsin. Onların fikrincə, hətta mübarizə-parçalanma səhnəsi ritual olaraq heyvanın bir - birini yeməsi, heyvanın ruhunun, gücünün başqa bədənə keçməsi olub, apotropey- qoruyucunun magik gücünü artırmalı idi (103, 4; 88, 106).

V.İ.Abayev, K.V.Trever, S.P.Tolstov, S.İ.Rudenko, B.A.Litvinski, D.S.Rayevski, Q.M.Bonqard-Levin, E.A.Qrantovski, A.K.Akişev, S.S.Bessonova, E.E. Kuzmina və başqaları yırtıcı heyvanın otyeyənlə mübarizənin əsasında dualizm, təbiətdə olan əksliklərin, xeyir və şərin mübarizəsinin dayandığını müdafiə edirdilər (168, 339; 103,4). Bu üslubun Krit və Mikenada yarandığını bildirən Q.M.Bonqard-Levin e.ə. VII əsrdən Şimali Qara dəniz sahillərində yayıldığını və öz simvolikasını saxladığını bildirirdi (42, 10-11). Tədqiqatçıların fikrincə, Ön Asiya incəsənətində bu kompozisiya astral-kosmoqonik xarakter daşımışdı. Dırnaqlı və şirin mübarizəni günəş işığında ulduzun çıxmasına bənzədilir, bəzən şiri-dan ulduzu, öküzü-günün istisi, keçini-gecənin soyuğu kimi izah edərək, onların mübarizəsini gecə və gündüzün əvəzləməsinə bənzədirdilər. Eyni zamanda mübarizəni



solyar tsikllə eyniləşdirərək, günəşin dövranı, yay və qışın mübarizəsi ilə izah etməyə çalımışdılar (103, 4-5). Şir və keçinin mübarizəsi səhnəsi yazın gəlişi, şirin öküz və ya marala hücumu isə təbiətdə yaz dirçəlişini bildirməsini şumer inancları da təsdiq edir (191, 80). Herodota görə, iskitlərdə yaz bayramı var idi. Bayram zamanı torpaqlar bölüşdürülür, çara bahalı qurbanlar kəsilirdi (52,188). Bu bayramı iskit heyvani üslubu və Novruz bayramı ilə əlaqələndirmək mümkündür. İranda Əhəmənilərə qədər və Əhəmənilər dövründə yırtıcılar tərəfindən maral, keçi və ya qoyunun parçalanması səhnəsi olmuşdu. E.ə. VI - IV əsrlərə aid olan belə mübarizə təsvirlərində şir və öküz ulduzlarının bir-birini əvəzləməsi göstərilirdi ki, təbiətdə bu hadisə mart ayına-Novruz bayramı gününə təsadüf edirdi (42, 11). Burada yaranışın kosmoqonik aktı və təbiətdəki əks qüvvələrin dualist mübarizəsi-harmoniyanın xaos, işığın qaranlıq, həyatın ölüm, təzənin köhnə ilə münasibəti aydınlaşdırıldı.

Etnoqrafik, linqvistik və mifoloji materiallara əsaslanaraq, maralın ovu və parçalanma səhnəsini ölən və dirilən ilahə kultu və ya günəşlə də bağlamaq olardı. Maral kultu Sibir və Altayın tunqus, yakut, mansı, evenk, dolqan, selkun və s. xalqlarında olmuşdur (88, 106-107). I Pyotrun Sibir kolleksiyasında, Qara dəniz sahillərində belə səhnələr çox zaman bahalı, təmtəraqlı qabları bəzəyirdi. Bununla əlaqədar, tədqiqatçılar mübarizə səhnəsini həm də çar emblemi kimi qəbul edirdilər (123, 102-104).

İskit tayfaları dünyanın dinamik olmasına-hərəkət, tsikl, inkişaf, obrazların bir vəziyyətdən digərinə keçməsinə inanırdılar. Bu halda onlar konkret heyvanı yox, müəyyən ideya daşıyıcısını təsvir etdiklərinə inanırdılar. Belə ki, qoyun-farn (tayfa, qəbilə, ev, insanın ilahi hamisi) daşıyıcısı, maral-günəş simvolu və s. hesab olunurdu. Ümumiyyətlə, bu dövrdə günəşi xarakterizə edən müxtəlif simvollar olmuşdur. Bütün

iskit-sibir dünyasında tuncdan düzəldilmiş və ya qızıl suyuna çəkilmiş solyar disklər mövcud olmuşdu. Onların bəzisi konsentrik dairələrlə bəzədilmiş (Stepanovsk kolleksiyasında, Nekrasovo qəbrstanlığında, Serebrekovada, Aydaşinsk mağarasında), bəziləri isə maral təsvirli lövhələrlə (Taqarlılarda) birgə tapılmışdı. Günəşlə bağlı əsas ideyalar (işıq, şüa, hərəkət) müəyyən üsullarla göstərilirdi: lövhələrin qızılla işlənməsi-parlaqlıq, işıq; yarımdairəvi buynuz-saçan şüa; lövhəyə bərkidilən yarımdairələr isə hərəkəti, təkrarlanmanı bildirirdi. Ümumiyyətlə, qızıl həmişə günəş, od rəmzi kimi qəbul olunmuşdur. İskit tayfalarının qızıla üstünlük verməsini həm antik, həm də müasir tədqiqatçılar da təsdiq edirlər (121, 7). İskit Sibir dünyasında «Yer günəşinə» - müqəddəs oda inam da solyar kultla əlaqədar idi. Məhz odla bağlı geniş yayılmış təsvir isə qoyuna aid edildiyindən, Taqarlılarda *istifadə* olunan xüsusi bayraqları bu heyvanların təsvirləri bəzəyidi (123, 99).

Petroqliflərdə isə günəşin təsvirini 3 qrafik qrupda birləşdirmək mümkündür: 1) müstəqil çəkilmiş solyar işarələr; 2) günəş işarəsinin müxtəlif heyvanların bədəni üzərində çəkilməsi; 3) parlaq buynuzlar (126, 15). Maral və qoyunun günəş obrazı bu dövr petroqliflərində xüsusilə geniş yayılmışdı (şək 4.2.). Hərfi olaraq erkək maral mənasını bildirən «saka» sözü, osetinlərdə «sağ», farslarda «sax», buryatlarda «sadaa(n)», ruslarda «soxatıy» formasında işlənmiş, Orta Asiya iskitlərinin «saka» adı ilə eyniyyət təşkil etmişdir. Bəzi müəlliflər bu sözün iskit çarının adının bir hissəsini təşkil etdiyini güman etmişlər (88, 103). M.İ.Artamonov maralın kosmik gücü ifadə etdiyini, həmçinin tayfaların əsas totemi olduğunu söyləmiş, V.İ.Abayev onun bu fikiri ilə razılaşmışdı (32,33; 13). M.E. Kilunovski və M.P.Qryaznov maralı iskit panteonundakı Allahlardan birinin - günəş allahının atributu hesab etmişdir (88, 103; 62,222-231). Maral həm də müəy-



yən allahların şərəfinə kəsilən qurbanlardan biri olmuşdu. Kelermes kurqanındakı riton və Mitanni möhürü üzərində maralın qurban kəsilməsi səhnəsi təsvir olunmuşdu. Burada gedən marallar, ayaqları bağlı, başı aşağı sallanan qurbanı kəsməyə aparırlar. Ümumiyyətlə, başı aşağıya doğru sallanmış təsvirlərdəki heyvanlar simvolik «ölmüş» hesab edilirdi. Burada «həyat-ölüm» - «yuxarı-aşağı» mövqeyini nəzərə alsaq, ayaq üstə dayananlar canlı, başı aşağı olan qurban hesab olunmalıdır (171, 115).

Baykalətrafında qartal günəş kultu ilə bağlı olmuşdur. Avropa iskitlərinin də sevimli motivi əfsanəvi qrifon, qartal, qırğı və tərlan (şahin, qızılquş) olmuşdur. Altay ərazisində II Pazırık kurqanından tapılan yəhər örtüyünü bəzəyən qartal-qrifon fiquru, I Pazırık kurqanından qrifonun cütdırnaqlı üzərinə hücumu səhnələri quş təsvirlərinin özünəməxsus yer tutduğunu göstərir (165, 47). Orta Volqaboyu yırtıcı quşların əyri dimdiyi, sərbəst aşağıya doğru sallanan qanadları olmuşdu (95, 67). E.ə. VI əsrə aid Melqunov kurqanından döyüşçünün kəmərini bəzəyən uçan qartal təsviri aşkar olunmuşdur. Maral daşları üzərində təsvir edilən disklər tunc dövründə burada günəş Allahına inamın mövcudluğundan xəbər verir. Təsadüfi deyil ki, 1856-cı ildə qeydə alınmış İvolqin daşı üzərindəki günəş diski də işıq saçan tunc güzgü formasındadır (84, 217).

Avrasiya çölləri incəsənətində at obrazının populyarlığını at təsvirli predmetlərin çoxluğu ilə təsdiq etmək olar. At fiquru tunc ayin qazanlarında, savromat güzgülərinin dəstəyində; stilizə olunmuş atlar Şərqi Pamir və Minusinsk çökəkliyinin Taqar abidələri içərisində; atların realist təsviri Tuva və Monqolustan petroqliflərində, maral daşları, məişət və s. əşyalar üzərində rast gəlinmişdir. Monqolustanın qızıl örtüklü tunc atları üslubca Xakasiya fiqurları ilə oxşarlıq təşkil etmişdir (99, 86). Ordos və cənubi Sibirin erkən iskit

dövrü at fiqurları Saqqız tapıntıları içərisində analogiya tapmışdır (176, 237).

Taqar mədəniyyətinə aid tapıntılar içərisində günəşə olan münasibət aydın görsənir. Üst geyimində sinəni bəzəyən, bəzən kəmərə, çantalara bərkidilən «maral lövhəcikləri» adlandırılan, üzərində maral təsviri olan yastı tunc pilləklər də günəş Allahının simvolu sayıla bilər. Belə lövhə-pilləklər Taqar mədəniyyətinin podqornovsk mərhələsində meydana gəlmiş və saraqaşen dövründə geniş yayılmışdır (44, 93). Taqar qəbirlərində onlar «maral lövhəcikləri» ilə yanaşı qoyulurdu(121,7). Eyni zamanda kəmərdə yerləşdirilmiş xüsusi futlyarda gəzdirilən tunc güzgülər və qızıl suyuna çəkilmiş sinədə gəzdirilən, muncuqlarla haşiyələnmiş güzgülər də günəşə olan inamla əlaqədar olmuşdur. Günəşin əsas ideyaları olan işıq, şüa, hərəkət burada qızıl haşiyələnmə, yarımdairəvi buynuz və s. ilə çatdırılırdı.

Maral başlı pilləklər günəş allahının simvolu kimi Taqar mədəniyyətinin podqornovsk mərhələsinin sonları və bütün saraqaşen mərhələsi üçün xarakterik olub, üst geyimlərinin sinəsini, kəməri bəzəyirdi (44, 93). I Pazırıq kurqanından maral buynuzlu maska tapılmışdır. Marala inamın öz yerini ata verməsini xarakterizə etmək üçün çox yəqin ki, dəfn olunmuş atın üzünə bu maska geydirilmişdi (61,85). Amudərya dəfinəsindən tapılan buynyzlu at fiquru da günəş allaşının simvolu və nəsli totem kimi qəbul olunur (131,25). Qanadlı, buynuzlu at İssık kurqanında sak rəhbərlərinin baş geyiminin əsas elementi olmuşdur (19, 47-59). Ümumiyyətlə, bir maldar xalqı olaraq, iskitlərin həyatında iri və xırda buynuzlu heyvanların xüsusi rol oynaması danılmazdır. Bu xalqın ibtidai inancında da bir totem olaraq keçi, maral, qoyun və s. özünə geniş yer tapsa da, bəzən daha çox buynuz təsviri müşahidə olunur. Buynuzlu əcdadların rolu əski türk etnik mədəniyyətində böyükdür: hökmdar və kahinlər başlarına



buynuzlu tac qoyurdular və buynuzların sayı da onun gücünü bildirməyə xidmət edirdi. Buynuz atributu ritual – mifoloji element kimi də diqqəti cəlb edir.Bir sıra müqəddəs yerlərin qoyun və ya keçi buynuzu ilə bəzədilməsi, onlardan dilək istənməsi əhalinin inancından doğur. İskit-sibir heyvani üslubunda maral buynuzları S-vari və ya çıxıntılı əyri oxlu verilirdi (62, 223-224). Şimali Qafqazın Qumarovo kurqanının 3-cü qəbrindən uzunluğu 5 sm olan, qızıldan tökmə üsulu ilə hazırlanmış 5 ədəd maral fiquru tapılmışdı. Yalnız cəmi bir maralın buynuzu salamat qalmışdır. Ox qabını bəzəyən bu təsvir yandan götürülüb, buynuzu S–vari əyri qarmağı xatırladır. Göz və burun deşiyi dərin, iri dairəvi dəlikdən ibarət olub, qızıl silindrin içərisinə mavi firuzə qaş qoyulmuşdu. S-vari formada buynuzu olan maral süjeti demək olar ki, bir çox yerlərdə geniş yayılmışdı (226,16-43-47,50; 227,42).

Daha sonrakı dövrlərdə günəş at və ya qulan obrazları ilə təsvir olunurdu. Xalq inamlarında at güc və uğur rəmzi olduğundan, onun astral funksiya yerinə yetirə bilməsi də mümkün sayılırdı. Sibirin həm cənub, həm də şimal rayonlarında at kultunun yayılmasını arxeoloji abidələr də təsdiq edir. E.ə V əsrə aid Oqlaxtı qayaüstü təsvirləri, İşim dəfinəsi, Aydaşin mağarası at təsvirləri ilə zəngindir (143, 154-157; 182, 142). Herodot «Ona, ən qüdrətli Günəşə cəldayaqlı at qurban kəsilirdi» (52, 201) deməklə, iskitlərdə də bu inancın möhkəm olduğunu göstərirdi. İndiyə qədər də bu iskit ənənəsi qalmaqdadır. Yakut mifologiyasında atçılıq hamisi Uordax Cesenqey qədimlərdə «Cesenqey Toyon» adı ilə günəş mənasını daşımışdı. Sibirin digər türkdilli xalqlarında "izıx", "ıtık sılqı" (ilahi mənsubiyyətli müqəddəs at) ayininə görə varlı şəxs əzəmət və ləyaqət qazanmaq üçün özünün ən yaxşı ağ dayçasını azadlığa buraxırdı. Əhəmənilər dövründə qədim farslar günəş allahı Mitraya ağ at qurban verirdilər. Yakutlar da dünyanın yaradıcısına - günəş allahını təcəssüm edən Aar

toyona ağ at qurban verirdilər (53, 145-147). Odur ki, at təsviri və ya bütov fiqurları tapıntılar içərisində də seçilir. Tunc ayin qazanlarında, savromat güzgülərinin dəstəyində, Minusinsk çökəkliyinin Taqar abidələrindən tapılmış məişət və ayini əşyalar üzərində at təsvirləri özünəməxsus yer tuturdu. Dağlıq Altayın Katandin, I Baraburqazının V və X kurqanlarında, XII Yustıd kurqanında, Yelanqaş, Çuy maral daşı üzərində, Qara - Dyurqun, I Ulandrık kurqanında at təsvirləri verilmişdi (104, 86, ş. 1). Katandin kurqanında tapılan at heykəlciyi tayfa başçısının və ya varlı şəxsin sakral baş örtüyünün tərkib hissəsi olmuşdu. V Pazırık kurqanından, Taqisken və Seyminskdən tapılan qazan qulplarını əvəz edən bir cüt at başı da sakral xarakter daşımışdı. Belə cütlük çox zaman erkək və dişi at kimi ölənin baş örtüyünü bəzəyirdi. Qədim altaylıların inamına görə, qoşa at öləni o biri dünyaya müşayət etməklə yanaşı, həm də nəsil artımına səbəb olmalı idi. Həmçinin bu, ekizlik kultunun ilkin atributlarından olub, var-dövlət və artımı xarakterizə edirdi (99, 88). Mifik, qanadlı at təsvirləri iskit - Sibir petroqliflərində əks olunmuşdu (99, 93, ş. 8). Səma atlarına inam onların nəinki qanadlı, həm də hürgüclü təsvir olunmasına, qızıldan hazırlanaraq günəş parlaqlığı verilməsinə qədər gəlib çatmışdı.

Uluq-Xorum qazıntılarında 32 oxlu təkər-günəş və şüaları təsvir olunmuşdur (57, 62-63). Məlumdur ki, təkər-hərəkətdə olan günəşin rəmzi sayılırdı. İskit dövrü petroqliflərində 12, 28 şüalı fiqurların təsvirinə də rast gəlinmişdir. Təsvirlərin birində iki ədəd 12 şüalı fiqurun verilməsi yaz-payız gecə-gündüz bərabərliyinin, günün 12 saat işıqlı, 12 saat gecə olmasının göstəricisi kimi qəbul edilir (213, 279).

Təbiət kultu (bitki başlancıç, həyatın yaranması) da özünəməxsus yer tuturdu. Əkinçiliklə bağlı olan bitki təsvirləri Okunev petroqliflərində də var idi. V Pazırık kurqanda keçə xalça üzərindəki ilahə həyat ağacı ilə təsvir olunmuşdur. Burada məhsuldarlıq ilahəsi uzun paltarda, iri baş geyimində taxtda əyləşmişdir. Onun bir əlindəki böyük budaqda 5 cüt fiqur vardır. Bu cütlüklər kişi və qadın başlanğıcı, digərləri konkret bitkini ifadə edirdi. Eyni süjet Amudərya dəfinəsindən qızıl pilləklər üzərində də dəfələrlə təkrarlanmışdır (123, 101).

I Pyotrun Sibir kolleksiyasından olan qızıl kəmərdə ağac təsviri vardır. Təsvirin mərkəzində həyat ağacı, onun altında 3 insan fiquru yerləşdirilmişdir (169, cəd. XXII, cəd. I-5). Ümumiyyətlə, Sibir tapıntıları içərisində həyat ağacı xüsusi yer tutur (şək.4.3.). İskit dövrü Sibir petroqliflərində buynuzu ağac budağını xatırladan keçi və ya qoyun təsvirləri qeydə alınmışdı. Şimali Qara dəniz sahillərində, sarmat kurqanlarında (Xoxlaç), Altay petroqliflərində belə təsvir geniş yayılmışdı (126, 21, 99, 105).Türk xalqları içərisində ağac kultu məlum idi. Onlar ağacı tanrı və ya tanrıdan ayrılmış bir parça hesab edidilər. Ağac etnoqonik əsatirlərdə ilk ana kimi də xatırlanır. Yakutlar, telengitlər, tuvalılar, tofalar ağacın ilahi qüvvəsinə inanırdılar (24,94). Yakut eposunda da həyat ağacı geniş yayılmışdı (53, 147). Qədim Sibir əhalisi (nenlər və s.) inanırdılar ki, məhz bu ağac birinci adamın zamanında inkişaf etmişdi. Onlar tozağacını - "səma ağacı", sidr ağacını "qurban ağacı" hesab edirdilər (200, 28).Ağac pirlər, onlara verilən qurbanlar hal-hazırda da geniş yayılmışdır. Qədim Çin mifologiyasında "tszyanmu" ağacı xatırlanır. "Buludlara çatan" uzun yarpaqsız qəribə formalı ağacın J - hərfinə bənzər budaqları sonralar Sibir şamanlarının ağaclarında da rast gəllinmişdi. Oxşar təsvir Tepsey petroqlifləri üzərində həyat ağacı ilə birgə verilən at təsvirlərində də vardı (213, 266, ş. 124, 267). Sibirin iskit dövrü inanclarında ruhlara inam da qalmaqda idi. Bunu qəbirə, ölünün yanına qoyulan avadanlıqlar, yeməklər də təsdiq edir. XX əsrə qədər maral dişi və balıqqulağı tuvalıqlarda zərərli ruhlardan qorunmaq üçün is-

tifadə olunurdu. Eyni funksiyanı tunc və sümük gözmuncuqları da yerinə yetirirdi (118, 96-97).

Saçlar da pis ruhlardan qəlbi qoruyan inanclardan sayılırdı. Uzun açıq saçlar bəzən zalım və cadugərlik, bəzən də mehriban allahların simvolu kimi qəbul olunurdu. Zalım, şər qüvvələrlə mübarizədə açıq saçın adama köməklik göstərməsinə inam var idi. Nqanasanlar dəfndən sonra yüngülləşmək üçün saçlarını açıq qoyurdular. Xantıların mifologiyasına görə, hər səhər qadın günəş allahı yerə öz şüaları - saçları ilə kiçik quş cildində doğulan körpə göndərir. Çox zaman ölənin saçlarını 2 hörüb uclarına tunc bəzəkli saçlıq vururdular. Qərbi Sibir incəsənəti üçün hörüklü qadın təsvirləri xarakterik olmuşdu. İskitlər də döyüşdə məğlub olanın saçlarını kəsirdi ki, düşmən yenidən canlana bilməsin (43, 117-120). Herodot bu barədə yazırdı ki, "...qızlar toydan əvvəl saçlarından tel kəsir və qəbir üstünə qoyurdular, oğlanlar isə saçlarını yaşıl budağa sarıyıb qəbir üstünə qoyurdular" (52,195; IV,34). Qaradənizin şimal sahilləri iskitləri matəm əlaməti olaraq «saçlarını dairəvi kəsirdilər». Şimal-şərqi iskit tayfalarının adətinə görə uşaq vaxtından saçlar kəsilirdi. II Pazırık kurqanında qadının saçı tamamilə, V Pazırık kurqanındakı kişinin saçı öndən bir az, qadının saçı isə dairəvi formada kəsilmişdir (164, 114). Ölənin saçının kəsilməsi bəlkə də onun beyninin yarılaraq təmizlənib mumiyalanması ilə əlaqədar olsa da, güman ki, sağ olanların saçlarının kəsilməsi matəm xarakteri daşıyırdı.

Ümumiyyətlə, saçların daranması, hörüklər, müxtəlif saç düzümləri həm bir yaş qrupundan digərinə (yeniyetmə, ərli qadın, ölüm) keçidi, həm də ruhun müdafiəsini təlqin edirdi.

Arçekassk kurqanına aid qəbirdə isə qadın başı cənuba düz vəziyyətdə uzadılmış halda dəfn edilmişdir. Kəllə sümüyü sadə, ümumi qayda üzrə qoyulmamış, əllər başda çarpazlaşdırılmış, başı əmgək sümüyü üstə qoyulmuşdu. Bu yalnız



o halda ola bilərdi ki, ölü əllərindən tutaraq üzüüstə qəbrə qoyulsun. Tunc dövründə bir sıra xalqlarda da müşahidə olunan adətə görə, bəd rühlarla əlaqəsi olan adamları məhz belə dəfn edirdilər ki, digərləri onların təsirinə düşməsin (105, 88-89). Erkən dəmir dövründə zoomorf fiqurlu su qabından içilən suyun insanı bədxah ruhlardan təmizləyəcəyinə inam geniş yayılmışdır.

I Pyotrun Sibir kolleksiyasında daha çox rast gəlinən, asma hissəsi dənlərdən tərtib edilmiş bərabər tərəfli üçbucaq şəklində sırğalar da əhalinin inancı ilə əlaqədar olmuşdur. Əyri mıxı və ya ? işarəsini xatırladan məftil sırğalar XIX əsrin əvvəllərinə ədər Lena sahili maldarları üçün xarakterik olmuşdu (53, 144). Sırğalar da dairəvi olduğundan günəşi bildirə bilərdi. Qızıl və tunc simdən sırğalar (0-forması) müxtəlif əlavə və asmalarla iskit dövünrdə bütün Avrasiyaya yayılmışdı (98,47). Belə tip sırğalar e.ə. VII-V əsr Sibir, Qazaxıstan, Tuva və Altayda rast gəlinmişdir. Daha sonrakı dövrlərdə II tip sırğalar – nazık qızıl və gümüş simdən halqavari, aşağısı ilgəkli formada yayılmışdı. Son iskit və hun dövründə Sibir, Orta Asiya, Şimali Tuva və Dağlıq Altayda belə sırğalar, II və V Pazırıkda kişinin sol qulağında sırğa qeydə alınmışdı (164, 132). İskit dövrü qəbirlərində Ulandrık, Yustıd və Baraburqazı çayı ətrafında, hətta Şərqi Altayın digər yerlərində onlarla belə hal müşahidə olunmuşdur (98,48). Belə ki, dənlər taxılı, üzüm giləsini və s. təmsil etdiyindən belə sırğalar bərəkət, məhsuldarlıq kultuna həsr olunmuşdur. Analoji hal zoomorf fiqurlu qol bilərziklərində müşahidə olunmuşdur. Tökmə üsulu ilə hazırlanmış bilərziklərin başlığında bu və ya digər heyvan başı formasında verilməsi sahibin o biri dünyada qoruyucusu simvolu mənasını daşıyırdı. Gördüyümüz kimi, Sibirin iskit dövrü zərgərlik məmulatları əsasən dini təsəvvürlərlə sıx bağlı olmuşdur.

Herodot qərb iskitlərində rəhbər şəxsin dəfnini təsvir edərkən diqqəti cəlb edən bir məlumat da verir: «Bazilevs öldükdən sonra, böyük 4 künc quyu qazılır, ölünün əvvəlcə qarnı yarılaraq təmizlənir, ətirli qatran, kərəviz toxumu və anislə doldurulduqdan sonra tikilir və bədəni mumla örtülürdü» (52, 204; IV,71). Anoloji mərasim Dağlıq Altay, Minusinsk və Tuva ərazisinin iskit dövrü qəbirləri üçün də xarakterik olmuşdur. Dağlıq Altayın V Pazırık kurqanında kişi və qadın cəsədi üzərində orijinal əməliyyat aparılmışdır. Beyin və digər daxili orqanlar, bütün əzələlər çıxarılaraq tikilmiş və mumiyalanmışdır (164, 231-234). Arjan-çar kurqanında da mumiyalanma əməliyyatı çar üzərində həyata keçirilmişdir (60, 62).

Taqar mədəniyyətinin tesin dövrünüdə gildən istifadə etməklə mumiyalanma halları nəzərə çarpır. Həmin mədəniyyətinin Bermisk kurqanından 62 eyni formalı, eyni üsulla mumiyalaşmış cəsəd tapılmışdır. Baş tam təmizlənərək, kəllə otla, göz və ağız boşluğu gillə, sinə və qarın isə təmizlənərək ot kütləsi ilə doldurulmuşdu. Qəbrə qoyulan belə gil-gips qarışıqlı skleti E.Vadetskaya «mumiya-kukla» adlandırır (44, 86).

Altayın II Başadar kurqanında ölünün qarın hissəsindən daxili orqanlar çıxarılmış və sonra tikilmiş, kəlləsinə isə toxunulmamışdı. II Pazırık kurqanın da isə qadının kəllə sümüyü aralanmış, beyni çıxarılmış, çınqıllı torpaqla doldurulmuş, kişinin isə həm beyni, həm də daxili orqanları çıxarılmışdı (168, 330). Şərqi Qazaxıstanın Sarı-Gil rayonundakı 1№-li kurqandakı 70 yaşlı kişinin kəlləsində analoji əməliyyat aparılmış, daxili orqan və əzələləri çıxarılmışdı. (168, 332).

Mumiyalanmadan başqa, bu dövr qəbirlərində gil maskalar da tapılmışdı. Minusinsk çökəkliyindən tapılan belə maskalar gil-gips şəkilli olmuşdu (44,42). Məlum dəfn portretləri Misir, Mesopotomiya, Finikiya, Karfaqen, Mikena, Kipr, Kerç və Olviyanın çar kurqanlarında qeydə alınmışdı. Yenisey sahillərində birdən-birə oxşar vəziyyətin müşahidə olunması bu ənənənin yerli və ya gətirilməsi dilemmasını qoyur. Qədim dövrdə ölünü bəzən həmin vaxt dəfn etmir, onu kənarda sklet halına düşənədək saxlayırdılar. Onda kəlləni gillə örtür və restavrasiyadan sonra qəbrə qoyurdular. Bir sıra müəlliflər bu ənənənin ölənin üz cizgilərinin gələcək nəslə çatdırılmasına xidmət etməsi fikirin tərəfdarıdırlar (44, 94-96). Qeyd edək ki, belə bir proses məhz çar dəfninin dəbdəbəsini tamamlaya bilərdi.

Həm Qaradəniz sahili, həm də Sibir-Altay iskitləri çarı qəbrə qoymazdan öncə xüsusi araba ilə onu tabe xalqlar içərisində gəzdirirdilər (52,204; IV,71). Dəfnsonrakı ayinlər içərisində isə təmizləmə üsulu maraqlıdır: iskitlər başlarını yağlayır, sonra saçlarını yuyurdu. 3 ağacı bir-birinə bərkidərək, üzərini çadırla örtür, kiçik alaçıq düzəldir və özlərinin yetişdirdikləri çətənə toxumunu alaçığın ortasında qaladıqları ocaqda yandırırdılar. Əmələ gələn güclü tüstü onları bihuş edir, şadlandırırdı. Herodot bu mərasimi izah edərkən «Onlar bədənlərini su ilə yumayıb, beləcə qüsl edirdilər» - deyə yazırdı (52,205; IV,74,75). Pazırık kurqanında icra olunan oxşar ayın arxeoloji qazıntılar zamanı aşkarlanmışdır. Altayda alaçıq 3 yox, 6 ağacdan ibarət düzəldilirdi. Çətənə əkilməsi təkcə II Pazırık kurqanında deyil, digər 3 kurqanda da qeydə alınmışdır. Rudenko S.İ. belə qənaətə gəlir ki, iskitlər adi vaxtlarda da çətənədən istifadə edirdilər. Antik dövr müəlliflərindən Hesxey Aleksandritli çətənəni iskitlərin istifadə etdiyini təsdiq edir (164, 244). İskitlərin belə məhsullara müraciəti ola bilsin ki, yaxınının ölümünə görə kədərlənənləri şadlandırmaq və qəmdən azad olmaq istəyi ilə bağlı idi. İskitlər dəfn sonrası qüsldən sonra ehsan da verirdilər. Herodot atanın şərəfinə oğulun xeyirat təşkil etdiyini bildirir (52,193, IV,26). Belə ehsan izləri I Pazırıq və II Başadar kurqanlarında qalmışdır. Massaget və issedonlar haqqında

Herodot yazırdı ki, «deyirlər, issedonların bir adəti var: Birinin atası öləndə bütün qohumlar ona mal-qara gətirir, kəsibdoğrayır və bişirib yeyirdilər. Massagetlər də doğranmış əti bişirib yeyirdilər» (52,193). II Pazırık kurqanında alaçığın ortasında 4 ayaqlı iskit tipli mis qazan toxumların yandırılma yeri olurdu (164, 243). İskit tipli mis qazanlar Dağlıq Altay ərazilərindən, xüsusən, II Pazırık kurqanından tapılmışdı (şək.4.4.). Qida ilə yanaşı belə iri qablarda dəfn mərasimi zamanı ətirli maddə də yandırılırdı (167, 48). A.P. Okladnikov son dövrlərə qədər istifadə olunan yakut «çoron»larını formaca iskit qazanları ilə eyniləşdirmişdir (147,177). Ola bilsin ki, iskit qazanı – patriarxal ailənin birlik rəmzi sayılırdı. Belə qazanlarda yakutlar, «ısıax»- kumıs bayramı olarkən, kumıs içilirdi və bununla da allah qarşısında hamının bərabər olduğuna inanırdılar (53,142-143). Arçekassk kurqanlarından tapılan tunc miniatur formalı iskit qazanını tədqiqatçılar hakimiyyət simvolu kimi qəbul etmişdilər (105,92).

